RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



100

№ 58 (9225) 16 MART 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri

## Ankaranın Esenboğa Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak etmək üçün martın 15-də Türkiyəyə səfər edib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ankaranın Esenboğa Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi rəsmi şəxslər qarşıladılar.

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 15-də Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub. AZƏRTAC xəbər verir ki, Ankaradakı Prezident Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşünün məhz Türkiyədə keçirilməsi təşəbbüsünün Azərbaycan Prezidentinə aid olduğunu deyən Türkiyə dövlətinin başçısı bu təşəbbüsə görə təşəkkürünü bildirdi.

Türk Dövlətləri Təşkilatının bu formatda keçirilən sammitlərinin əhəmiyyəti qeyd edildi, Zirvə görüşünün Türkiyədə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması mövzusuna həsr olunmasının önəmi vurğulandı.

Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən dəhşətli zəlzələdən dərhal sonra ölkəmizin göstərdiyi qardaşlıq dəstəyini və nümayiş etdirdiyi həmrəyliyi bir daha minnətdarlıqla xatırlatdı. Türkiyə Prezidenti Azərbaycandan olan xilasedicilərin və həkimlərin zəlzələ bölgəsində səylərini, həmçinin təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün ölkəmizin humanitar yardımlarını qeyd etdi.

Zəlzələ ilə bağlı bir daha başsağlığını çatdıran Prezident İlham Əliyev təbii fəlakətin Azərbaycan xalqını dərindən sarsıtdığını dedi.

Görüşdə ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin "bir millət, iki dövlət" prinsipinə uyğun olaraq bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, ticarət, enerji, müdafiə, müdafiə sənayesi sahələrində əməkdaşlığın daha da genişləndirilməsi və regional məsələlər müzakirə olundu.

Həmçinin söhbət zamanı Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.

## Azərbaycan öz resurslarına güvənir

### İlham Əliyev Almaniyanın tanınmış böyük şirkətlərini birgə tərəfdaşlığa, əməkdaşlığa çağırdı



**"Son 20 ildə iqtisadiyyatımız üç dəfədən çox artıb. Düşünürəm ki, bu, dünya rekordu hesab oluna bilər. Eyni zamanda birbaşa xarici borcun azalması strategiyasına əsaslanaraq, biz xarici borcumuzu azaltmışıq və 2023-cü il yanvarın 1-nə olan məlumata görə, bu, ÜDM-in 10 faizindən aşağı olub. Faktiki olaraq, bu, mənim bir neçə il bundan əvvəl hökumətin qarşısında qoyduğum hədəf idi. İndi hədəfə nail olunduğundan biz borclanma strategiyamıza yenidən başlayırıq".**

Bu fikirləri Prezident İlham Əliyev martın 13-də Almaniyaya işgüzar səfəri çərçivəsində Berlində bu ölkənin aparıcı şirkətlərinin rəhbərləri ilə görüşündə səsləndirib.

Almaniyada müxtəlif sektorları təmsil edən otuz şirkətin nümayəndələrinin, eləcə də Federativ hökumətin nümayəndələrinin, İqtisadiyyat və İqlim Müdafiəsi Nazirliyinin rəhbərliyinin iştirak etdiyi görüşdə İlham Əliyev həm Azərbaycanın iqtisadi inkişafı üzrə planlar haqqında strateji icmalı paylaşıb, həm də xüsusilə ikitərəfli əməkdaşlıq çərçivəsində alman şirkətləri üçün ölkəmizdə olan imkan və fürsətlər haqqında məlumat verib. Bu ölkənin enerji, logistika və infrastruktur, sənaye və kənd təsərrüfatı sektorları üzrə tanınmış şirkətlərin rəhbərləri isə Azərbaycanla əməkdaşlığa dair planları və layihələri barədə qısa məlumat verməklə yanaşı, müxtəlif təkliflərini də səsləndiriblər.

→ 6

## Avropa Parlamenti Azərbaycandan Zəfərin intiqamını alır

### Erməni lobbisinin təsiri altında olan bu bədnam qurum Qarabağın azadlığı gerçəkliyi ilə barışa bilmir

Erməni lobbisinin əlində alətə çevrilən, eyni zamanda qəbul etdiyi qərarlarla Hayastana hamilik edən Avropa Parlamenti Azərbaycana qarşı riyakarlığını davam etdirir. Diqqəti çəkən odur ki, artıq AP bütün əndazələri aşaraq hətta əvvəlki qərəzli mövqeyini də üstələyib. Belə ki, Vətən müharibəsinə qədər ölkəmizə münasibətdə qərəzli, qeyri-obyektiv qətnamələr qəbul edən bu qurum indi aşkar şəkildə Azərbaycana qarşı böhtan yolunu tutub.

→ 11

Heydər Əliyev İli - 2023

## Heydər Əliyev mükəmməl və sağlam dövlət-din münasibətlərinin banisidir

### Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və "Azərbaycan" qəzetinin "Dini təhsil: mövcud vəziyyət və perspektivlər" mövzusunda konfransı

Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin yubileyi ərəfəsində bu dahi şəxsiyyətin müxtəlif istiqamətlərdəki fəaliyyətləri bir daha təhlil olunur, Ümummilli Liderin irsi geniş müzakirə edilir. Ulu Öndərin fəaliyyətində xüsusi proritet yönümlərdən biri də milli-mənəvi dəyərlər sistemi idi.



Heydər Əliyevin rəhbərliyi altında xalqımızın dini-mənəvi dəyərlərinin qorunması, inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasət real nəticələr vermiş, Azərbaycan multikulturalizminin və tolerantlığının elmi əsaslarla öyrənilməsi, həmçinin dünyada təbliği istiqamətində əməli addımlar atılmışdır. Bu baxımdan Ulu Öndəri milli-mənəvi dəyərlərin ən böyük himayədarı və təbliğatçısı saymaq olar. Sevindiricidir ki, bu siyasət yeni mərhələdə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir.

"Heydər Əliyev İli" çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və "Azərbaycan" qəzetinin "Dini təhsil: mövcud vəziyyət və perspektivlər" mövzusunda təşkil etdiyi konfransda da bu mövzu ətrafında müzakirələr təşkil olundu.

*Konfransın moderatoru Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil ŞİRİNOV qeyd etdi ki, din təhsili istər dinin əsas prinsiplərinin doğru şəkildə cəmiyyətə çatdırılması, istərsə də dövlət təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, din milli dəyərlər sistemi olaraq cəmiyyətin mənəvi inkişafında, ictimai birliyin, sosial inteqrasiyanın təminində əvəzsiz rola malikdir:*

- Bununla yanaşı, dinin səhv interpretasiyasının milli-mənəvi birliyə deyil, cəmiyyətin bölünməsinə səbəb olduğu da sirr deyildir. Bu baxımdan dini biliklərin səhih mənbələrə əsaslanaraq, həmçinin dövrümüzün reallıqlarını nəzərə alaraq cəmiyyətə çatdırılması labüddür. Ümummilli Lider Heydər Əliyevin səsləndirdiyi bu kəlmələr - "Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir" - ölkəmizdə mövcud olan multikultural dəyərlərə hörmətin bariz nümunəsidir.

Doğru dini təhsil dinin özünü təhriflərdən qorumaqla yanaşı, həm də milli-mənəvi birliyin təmin edilməsində onun rolunu artırır, cəmiyyəti radikal dini tendensiyalardan sığortalayır.

→ 4-5

# A.R.Rzayevin 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Anar Rəsul oğlu Rzayev 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 mart 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051,1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318, № 8, maddə 922, № 12, maddə 1403; 2022, № 7, maddə 762, № 8, maddə 871, № 11, maddə 1261) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq, Nazirlik sisteminə daxil olan qurumların fəaliyyətini yoxlamaq, habelə onların fəaliyyətinə nəzarəti həyata keçirmək;".

2. 3.1.65-ci yarımbənddə "Nazirliyin strukturuna daxil olan qurumlar və tabeliyində olan digər" sözləri "Nazirlik sisteminə daxil olan" sözləri ilə əvəz edilsin.

3. 3.1.69-cu yarımbəndə "peşəkarlıq" sözündən əvvəl "Nazirlik sistemində" sözləri əlavə edilsin.

4. 4.1.12-ci yarımbəndə "fəaliyyət istiqamətlərinə" sözlərindən əvvəl "Nazirlik sistemi üzrə" sözləri əlavə edilsin.

5. 5.1-ci bənddən "və Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu" sözləri çıxarılsın.

6. 5.5.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.5.4. Nazirliyin Aparatının, Nazirlik sisteminə daxil olan qurumların fəaliyyətinə nəzarəti təşkil edir və onların işinin əlaqələndirilməsini təmin edir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 mart 2023-cü il*

# Azərbaycan Prezidentinin təşəbbüsləri qlobal səviyyədə dəstək qazanır

## Qoşulmama Hərəkatının Sədri İlham Əliyevin irəli sürdüyü təşəbbüslərin dəstəklənməsi məqsədilə Parlament Dəstək Qrupu yaradılır

**Martın 13-də Bəhreyn Krallığının paytaxtı Manama şəhərində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin 2-ci konfransı keçirilib.**

Azərbaycan Respublikası Milli Məclisinin və QH Parlament Şəbəkəsinin Sədri xanım Sahibə Qafarovanın sədrliyi ilə keçirilən konfransda 20-dən çox ölkənin parlament sədrləri, 60-dan çox heyət olmaqla, ümumilikdə 300-dən artıq nümayəndə iştirak edib. Konfrans bir sıra mühüm sənədlərin qəbulu ilə yadda qalıb.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, konfransın əsas nəticələrindən biri Azərbaycan Respublikasının Prezidenti və Qoşulmama Hərəkatının Sədri cənab İlham Əliyevin cari ilin mart ayının 2-də Bakıda keçirilmiş Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə irəli sürdüyü təşəbbüslərin dəstəklənməsi məqsədilə Parlament Dəstək Qrupunun yaradılması barədə qərarın qəbul edilməsi oldu. Azərbaycan Milli Məclisinin təklif etdiyi və üzv parlamentlərin yekdilliklə dəstəklədiyi bu qərara əsasən, Parlament Şəbəkəsi çərçivəsində yaradılacaq Parlament Dəstək Qrupunun əsas məqsədi Prezident İlham Əliyevin Afrika ölkələrinə və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstəklə bağlı qlobal çağırışlar və pandemiyadan sonrakı qlobal bərpa mövzusunda müvafiq tövsiyələrin hazırlanması məqsədilə yüksəksəviyyəli BMT panelinin yaradılması barədə BMT Baş katibinə çağırış təşəbbüslərinin qlobal miqyasda dəstəklənməsi və təşviq olunmasıdır. Konfransın yekun sənədi kimi qəbul olunmuş Manama Bəyannaməsi isə üzv parlamentlərin müasir dövrün çağırışları və əməkdaşlıq imkanlarına, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin hazırkı və gələcək fəaliyyət prioritetlərinə dair vahid mövqeyini əks etdirir.

Tədbirdə həmçinin "Qoşulmama Hərəkatı Parlament Şəbəkəsində beynəlxalq parlament təşkilatlarına müşahidəçi statusunun verilməsi haqqında" qərar qəbul olunub. Bu qərarla İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Parlament İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası, Beynəlxalq Parlamentarilər Konqresi və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasına Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yanında müşahidəçi statusu verilib. Digər beynəlxalq parlament təşkilatlarının Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə əməkdaşlığa olan marağı Parlament Şəbəkəsinin beynəlxalq parlament diplomatiyasında rolunun güclənməkdə olduğunu göstərir.

Konfransda Parlament Şəbəkəsinin iş qaydalarına bir sıra dəyişikliklərə dair qərar qəbul edilib ki, bu da şəbəkənin daha çevik və daha effektiv fəaliyyətinin təmin olunması məqsədi daşıyır.

***"Azərbaycan"***

# Dağıstan Azərbaycanla əlaqələrin daha da gücləndirilməsinə böyük önəm verir

Milli Məclisin Sədri Sahibə Qafarova martın 15-də ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Dağıstan Respublikası Milli Şurasının Sədri Zaur Askendərovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Milli Məclisin Sədri Dağıstan və Azərbaycan xalqları arasındakı tarixi əlaqələrdən, ümumi dəyərlərdən danışıb, bu münasibətlərin hazırda da uğurla davam etdirilməsindən məmnunluğunu ifadə edib. O, Azərbaycanla Rusiya Federasiyası arasında münasibətlərin inkişafında dövlət başçılarının xüsusi rolunu qeyd edərək, qarşılıqlı səfərlərin bu münasibətlərə böyük töhfələr verdiyini diqqətə çatdırıb. Milli Məclisin Sədri Rusiya Federasiyasının subyektləri, o cümlədən Dağıstan Respublikası ilə Azərbaycan arasında uğurlu əməkdaşlıq əlaqələri, bu sahədə parlamentlərarası münasibətlərin özünəməxsus rolu barədə fikirlərini bölüşüb.

Spiker Sahibə Qafarova Rusiya Federasiyası Federasiya Şurası və Dövlət Duması ilə Azərbaycan Respublikası Milli Məclisi arasında mövcud olan ikitərəfli əlaqələr haqqında məlumat verib, qarşılıqlı parlamentlərarası dostluq qruplarının rolunu vurğulayıb.

Ötən ilin dekabr ayında Dağıstan Respublikasının rəhbəri Sergey Melikovun ölkəmizə səfərini və onunla keçirdiyi görüşü xatırlayan Milli Məclisin Sədri həmin səfərin ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyətini qeyd edib.

2020-ci ildə Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarını işğaldan azad etməsindən danışan Sahibə Qafarova Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazilərimizin Ermənistan tərəfindən 30 illik işğalına son qoyulması, hazırda Cənubi Qafqaz regionunda tamamilə yeni şəraitin yaranması, Azərbaycanın iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün Ermənistana beynəlxalq hüququn 5 əsas prinsipi əsasında təkliflər irəli sürməsi, o cümlədən Laçın yolu ətrafında vəziyyət, Ermənistanın regionda sülhün və təhlükəsizliyin təmin olunmasına qarşı törətdiyi təxribatlar haqqında ətraflı məlumat verib.

Görüş üçün təşəkkürünü bildirən Rusiya Federasiyası Dağıstan Respublikası Milli Şurasının Sədri Zaur Askendərov Dağıstan və Azərbaycan xalqlarının yaxınlığından, bölüşdükləri ümumi dəyərlərdən danışıb. O, Dağıstanda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanda isə Dağıstanın böyük şairi Rəsul Həmzətovun 100 illik yubileylərinin keçirilməsinə hazırlıq getdiyini və bunun iki xalq arasındakı bağlılığın bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişaf etməsindən məmnunluğunu bildirib və Dağıstanın Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da gücləndirilməsinə böyük önəm verdiyini qeyd edib.

Parlamentlərin qarşılıqlı münasibətlərin inkişafında oynadığı roldan danışan qonaq qanunvericilik sahəsində təcrübə mübadiləsinin daha yaxşı qanunlar yaratmağa kömək edəcəyinə inamını ifadə edib.

Zaur Askendərov digər xalqların nümayəndələri ilə yanaşı, azərbaycanlıların da Dağıstanda vahid ailə kimi yaşadıqlarını məmnunluqla qeyd edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət

Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Dağıstan Respublikası Milli Şurasının Sədri Zaur Askendərovun rəhbərlik etdiyi nümayəndə heyəti martın 15-də Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, önünə tər güllər düzülüb.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Azər Badamov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Dağıstan parlamentariləri ilə görüş

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev və parlamentin Elm və təhsil komitəsinin üzvləri martın 15-də Rusiya Federasiyası Dağıstan Respublikası Milli Şurasının Sədri Zaur Askendərovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan vitse-spiker dost və qonşu olan Dağıstanla münasibətlərin Azərbaycan üçün böyük əhəmiyyət daşıdığını bildirib. Adil Əliyev Azərbaycanla Rusiya arasındakı strateji əməkdaşlıq və tərəfdaşlıq münasibətlərindən söz açıb, bu əlverişli zəmində Rusiya Federasiyasının subyektləri, o cümlədən Dağıstan Respublikası ilə əlaqələrimizin inkişaf etməkdə olduğunu qeyd edib.

Azərbaycanda idmanın və bədən tərbiyəsinin inkişafına sistemli və kompleks yanaşmanın təməlinin Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu deyən vitse-spiker Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmizin dünyanın qabaqcıl idman ölkəsinə çevrilməsindən bəhs edib.

Ölkədə gənclər və idman sahəsində qanunvericiliyin təkmilləşdirilməsindən danışan Adil Əliyev bu istiqamətdə həyata keçirilən dövlət proqramları və görülən işlər barədə məlumat verib. Vitse-spiker Azərbaycan gəncliyinin öhdəsinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirdiyini, ölkədə gedən proseslərin daim önündə olduğunu bildirib, gənclərimizin 44 günlük Vətən müharibəsində də öz əzmini və vətənpərvərliyini bütün dünyaya nümayiş etdirdiyini vurğulayıb.

Göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edən Dağıstan parlamentinin sədri Zaur Askendərov ölkələrimiz arasında qarşılıqlı etimada əsaslanan yüksəksəviyyəli münasibətlərə toxunub, Azərbaycan və Dağıstan xalqlarının çoxəsrlik dostluq əlaqələrindən, qarşılıqlı əməkdaşlıq imkanlarından danışıb.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev Azərbaycanda təhsilin və elmin inkişafına göstərilən dövlət dəstəyindən, yaradılan qanunvericilik bazasından, bu sahədə aparılan islahatlardan, tətbiq edilən yeniliklərdən, əldə olunan nailiyyətlərdən bəhs edib. O, Ermənistanın işğalından azad edilmiş ərazilərimizdə təhsil və digər infrastrukturların viran edilməsinə toxunaraq, Azərbaycan dövlətinin bu istiqamətdə genişmiqyaslı layihələr həyata keçirdiyini deyib. Komitə sədri Azərbaycan və Dağıstan arasında elm və təhsil sahəsində qurulan əməkdaşlıq münasibətlərinin inkişaf perspektivlərindən danışıb.

Dağıstan parlamentinin sədr müavini Kamil Davdiyev, Təhsil və elm komitəsinin sədri Yelena Pavlyuçenko, Mədəniyyət, gənclər, idman və turizm komitəsinin sədri Murat Paizulaev, Dağıstanın mədəniyyət naziri Zarema Butaeva Azərbaycan və Dağıstan arasında idman, fiziki tərbiyə, gənclər, təhsil, mədəniyyət və turizm sahələrində əlaqələrin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Söhbət zamanı qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, fəal təcrübə mübadiləsinin həyata keçirilməsinin əhəmiyyəti qeyd edilib.

Görüşdə deputatlar Musa Qasımlı, Azər Badamov, Aqiyə Naxçıvanlı, Şahin İsmayılov, Ramil Həsən və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# VII Sankt-Peterburq Beynəlxalq Əmək Forumunda

**Martın 15-də VII Sankt-Peterburq Beynəlxalq Əmək Forumu çərçivəsində hibrid formatda təşkil olunmuş beynəlxalq konfrans keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, "MDB iştirakçı dövlətlərinin ərazisində beynəlxalq miqrasiya proseslərinin tənzimlənməsi" mövzusuna həsr olunmuş konfransda Milli Məclisin deputatı, MDB PA-nın Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyasının sədri Nizami Səfərov, MDB ölkələrindən olan parlamentarilər, ekspertlər, alimlər və siyasətçilər, beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirə videoformatda qatılan Milli Məclisin deputatı Nizami Səfərov diqqətə çatdırıb ki, birlik dövlətlərinin parlamentariləri sosial və əmək sahəsinə, əmək məhsuldarlığının artırılmasına, təhsil, peşə hazırlığı və digər məsələlərə diqqət yetirirlər. MDB PA-nın fəaliyyət göstərdiyi illər ərzində bu sahədə bir sıra model qanunlar və tövsiyələr qəbul olunub. İclasda Nizami Səfərov MDB daxilində miqrasiya proseslərinin tənzimlənməsi, əmək miqrantlarının hüquqlarının qorunması, insan alveri ilə mübarizə barədə fikirlərini bölüşüb.

Sonra tədbirdə MDB ölkələrində ümumi əmək bazarının formalaşması, xarici mütəxəssislərin daxili əmək bazarına cəlb olunmasının stimullaşdırılması, əmək miqrasiyasında rəqəmsal informasiya texnologiyalarının tətbiqi, əmək məhsuldarlığının artırılması və digər məsələlərə baxılıb, müzakirələr aparılıb.

Konfransın sonunda müzakirə olunan məsələlərlə bağlı yekun tövsiyələr qəbul olunub.

***"Azərbaycan"***

# Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə qərargahın növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan qərargah rəhbəri Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş strateji xəttə uyğun olaraq, 2023-cü ilin Böyük qayıdışın sürətli inkişaf mərhələsi olacağını, yaşayış məntəqələrinin tikintisi və bərpası işinin əməli müstəvidə sürətlənəcəyini və miqyasının artacağını diqqətə çatdırıb. İşğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində vaxt amilinə diqqəti yönəldən Samir Nuriyev operativliklə yanaşı, keyfiyyət və dayanıqlılığın da paralel olaraq təmin edilməsinin dövlətimizin başçısı tərəfindən qarşıya qoyulmuş vəzifə olduğunu deyib. Qərargah rəhbəri həmçinin işğaldan azad edilmiş ərazilərdə 2023-cü il ərzində görülməsi nəzərdə tutulan işlərlə bağlı bir sıra prioritet istiqamətlərə toxunub.

Sonra iclasın gündəliyinə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə su ehtiyatlarından səmərəli istifadə və bərk məişət tullantılarının idarə edilməsi sahəsində görülən işlər, torpaq islahatlarına hazırlıq, Böyük qayıdış çərçivəsində əhalinin dayanıqlı məşğulluğunun təmin edilməsi və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində ərazilərdə görülən işlərin cari vəziyyəti ilə bağlı məruzələr dinlənilib. Ərazilərə geri qayıdan əhalinin dayanıqlı məşğulluq imkanlarının təmin edilməsi məqsədilə zəruri institusional, hüquqi və dəstək mexanizmlərinin yaradılması ilə bağlı vəzifələr müəyyən olunub.

Torpaq islahatları ilə bağlı təkliflərin hazırlanması zamanı torpaqların bölgüsündə ədalət prinsipinin təmin olunması, ərazilərə qayıdan əhalinin torpaqlardan səmərəli istifadəsinin təmin edilməsi və nəticə etibarilə ərazilərdə iqtisadi artım, məşğulluq və dayanıqlı gəlir mənbələrinin formalaşdırılmasının əhəmiyyəti vurğulanıb. Laçın şəhərinin, Zabux, Sus və Talış kəndlərinin yenidən qurulması və bərpası istiqamətində görülən işlər barədə məruzələr təqdim edilib.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri iclasın gündəliyində dayanan məsələlərin yerlərdə əlaqələndirilməsi və müvafiq ərazilər üzrə görülən işlərin cari vəziyyəti barədə məlumat veriblər.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində zəruri tədbirlər müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

# Tikinti qanunvericiliyinə dəyişikliklər vətəndaş məmnunluğuna xidmət edəcək



**Martın 15-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, iclasda 5 məsələ - "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri müzakirə edilib.

İclası açan Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Şəhərsalma və Tikinti Məcəlləsinin 2012-ci ildə qəbul edildiyini, sənədin hazırlanması zamanı bu sahədə mütərəqqi beynəlxalq təcrübədən istifadə olunduğunu bildirib. Məcəllədə əks olunan vacib normalardan birinin tikintiyə icazə ilə bağlı məlumatlandırma icraatının olduğunu deyib. O, son illər ölkədə həyata keçirilən idarəetmə və kadr islahatlarının şəhərsalma sahəsini də əhatə etdiyini, bu sahədə şəffaflığın artırılmasının, tikinti fəaliyyətində elektron informasiya texnologiyalarının tətbiqinin müsbət nəticələr verdiyini söyləyib. Azərbaycan Prezidentinin 12 avqust 2021-ci il tarixli fərmanı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi yaradıldığını, hazırda işğaldan azad edilmiş torpaqların ərazi planlaşdırılması sənədlərinin hazırlandığını qeyd edib.

Komitə sədri diqqətə çatdırıb ki, bu günədək Şəhərsalma və Tikinti Məcəlləsinə bir neçə dəfə dəyişikliklər edilib. Prezident tərəfindən təqdim olunmuş növbəti əlavə və dəyişikliklər müstəsna əhəmiyyət kəsb edir. Sənəddə təklif olunur ki, tikintisi bu məcəllənin tələblərinə uyğun aparılmamasına baxmayaraq, 2023-cü ilin may ayının 1-dək inşa edilmiş tikinti obyektlərinin istismarına icazə verilsin və təhlükəsizlik tədbirləri də nəzərə alınsın. O qeyd edib ki, qanun layihəsi bir çox insanların öz əmlakının qanuni mülkiyyətçisinə çevrilmək üçün hüquqi baza rolunu oynayacaq.

Əli Hüseynli bildirib ki, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi tikinti obyektlərinin istismarına icazə prosedurunu və müddətini optimallaşdırmaq, bu sahədə şəffaflığı və vətəndaş məmnunluğunu təmin etmək zərurəti nəzərə alınaraq hazırlanıb. Sənəd ölkə əhalisinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsinə, vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti çərçivəsində həyata keçirilən ardıcıl və sistemli tədbirlərin davam etdirilməsi məqsədi daşıyır.

Əli Hüseynli İnzibati Xətalar və Cinayət məcəllələrinə təklif olunan əlavə və dəyişikliklərdə isə şəhərsalma və tikinti qanunvericiliyinin pozulmasına görə yeni məsuliyyət növlərinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəlikdəki məsələlər barədə fikirlərini açıqlayıb. O, sənədlərdə təklif olunan dəyişikliklərin iqtisadi səmərəsinin də olduğunu, ümumilikdə isə Azərbaycanda inşaat sektorunun Ümumi Daxili Məhsulun böyük bir hissəsini təşkil etdiyini deyib. Qeyd edib ki, bu istiqamətdə həm dövlət tərəfindən, həm də sahibkarlar tərəfindən görülən işlərdə fəallıq müşahidə olunur. O, bu sahədə sənədləşmə ilə bağlı bəzi problemlərin olduğunu və məsələnin həlli ilə bağlı müvafiq addımların atıldığını söyləyib.

Komitə sədri layihələrdə təklif olunan dəyişikliklərin kommersiya obyektlərini əhatə edəcəyini, onların sənədləşdirilməsinin və bununla bağlı prosedurların sürətləndirilməsinin nəzərdə tutulduğunu bildirib. Qeyd edib ki, iqtisadi baxımdan daşınmaz əmlakın dövriyyədə olması vergilərin toplanmasına, eyni zamanda vətəndaşların maliyyə əlçatanlığının artırılmasına imkan yaradacaq. Diqqətə çatdırılıb ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda nəzərdə tutulan düzəlişdə tikinti obyektinin istismarına icazə və torpaq sahəsi üzərində mülkiyyət və ya icarə hüququnu təsdiq edən sənədin əlavə edilməsi təklif olunur. Qanun layihəsi qanunvericiliyin tələblərinə uyğun aparılmamış tikinti obyektləri üzərində hüquqların qeydiyyatı məqsədilə hazırlanıb.

Müzakirələrdə çıxış edən deputatlar Qüdrət Həsənquliyev, Əli Məsimli, Fəzail Ağamalı, Vahid Əhmədov, Erkin Qədirli, Vüqar Bayramov, Azay Quliyev, Ziyad Səmədzadə, Elşən Musayev, Rüfət Quliyev, İqbal Məmmədov təklif olunan dəyişikliklərin mütərəqqi olduğunu qeyd ediblər, bu sahədə mövcud olan bürokratik əngəllərin aradan qaldırılması baxımından əhəmiyyətindən danışıblar.

Sonra çıxış edən parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc təqdim olunan qanun layihələrinin iqtisadi və sosial baxımdan mühüm əhəmiyyət kəsb etdiyini, eyni zamanda milli təhlükəsizlik xarakteri daşıdığını bildirib. O, əmlakla bağlı məsələlərin həllinin, habelə bunun düzgün təbliğ edilməsinin vacibliyindən danışıb.

İclasda iştirak edən Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Aparatının rəhbəri Rəşad İsmayılov da təqdim olunan sənədlər barədə öz fikirlərini açıqlayıb.

Müzakirələrin sonunda gündəlikdəki qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində bəhreynli rəssam Raşid Al-Xəlifənin "İlk qığılcım" sərgisinin açılışı olub









Heydər Əliyev Mərkəzi ziyarətçilərinə fərqli incəsənət nümunələrindən ibarət daha bir sərgi təqdim edib.

AZƏRTAC xəbər verir ki, martın 14-də mərkəzdə bəhreynli rəssam Raşid Al-Xəlifənin "İlk qığılcım" (First light) adlı sərgisinin açılışı olub. Bakı sərgisində Raşid Al-Xəlifənin ən son instalyasiyaları nümayiş etdirilir.

Müəllifin "Balıq tələsi", "Mozaika", "Biz canlı olan hər şeyi sudan yaratdıq", "Dairəvi əksetmə" kimi əsərləri ilk dəfə Heydər Əliyev Mərkəzində təqdim edilir. Bu həm də rəssamın Azərbaycandakı ilk sərgisidir.

Sərginin açılışından öncə jurnalistlərə açıqlama verən Raşid Al-Xəlifə Bakıda olmaqdan məmnunluq hissi keçirdiyini söyləyib: "Mən çox şadam ki, Bakını gördüm və öz sənət nümunələrimi bu gün Heydər Əliyev Mərkəzində nümayiş etdirə bilirəm. Özümlə gətirdiyim sənət nümunələrinin bəziləri məhz bu sərgi üçün hazırlanıb. Bakını ziyarət etmək mənə bir neçə dəfə tövsiyə olunub. Mən Bakını bu Mərkəzin açılışından sonra görmək istəyirdim və burada öz əsərlərimi nümayiş etməkdən böyük şərəf hissi duyuram".

Sərginin açılış mərasimində Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Fərqan Novruzov çıxış edərək diqqətə çatdırıb ki, Heydər Əliyev Mərkəzi hər bir zaman dünya mədəniyyəti nümunələrinin təbliği istiqamətində fəaliyyət göstərir: "Bu gün müasir incəsənət nümunələrinin parlaq nümayəndələrindən olan Bəhreyn kral ailəsinin üzvü, Bəhreyn Milli İncəsənət Şurasının sədri, İncəsənət Cəmiyyətinin ilk prezidenti və fəxri prezidenti Şeyx Raşid Al-Xəlifənin sərgisinin Heydər Əliyev Mərkəzində təşkil olunması mühüm bir hadisədir. Ümid edirik ki, sərgidən zövq alacaqsınız və xoş təəssüratla ayrılacaqsınız".

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov söyləyib: "Bu gün bu möhtəşəm binada belə bir sərgini ziyarət etmək mənim üçün xoş oldu. Dünyada ayrı-ayrı rəssamlarla görüşmək və onların yaradıcılıq dünyaları ilə tanış olmaq imkanları mənə nəsib olub. Ərəb mədəniyyəti və elminin dünyada özünəməxsus yeri var. Bu sərgi qeyri-adiliyi ilə fərqlənir. Sərgi bir rəssam kimi mənim üçün ən yüksək hissləri keçirdiyim sərgidir. Belə bir gözəl sərginin təşkilində əməyi keçən hər kəsə, xüsusən Heydər Əliyev Mərkəzinə təşəkkür edirəm".

Sərginin kuratoru Stefan Stoyanov çıxış edərək ən böyük arzusunun bu gün gerçəkləşdiyini dilə gətirib: "Mən Nəsimi İncəsənət Festivalı zamanı Bakıda olmuşdum. Həmin vaxt bu möhtəşəm Heydər Əliyev Mərkəzində də olmuşduq və bina mənə çox böyük təəssürat bağışlamışdı. Qeyd etmək istəyirəm ki, Heydər Əliyev Mərkəzi yeni əsrin ən gözəl memarlıq nümunəsidir. Mənim üçün artıq arzusunda olduğum anın - Raşid Al-Xəlifənin sərgisinin bu binada təşkil edilməsi xoşbəxtlik hissi yaradır".

Sərginin digər kuratoru Yasmin Şarabi çıxış edərək bildirib ki, sərgidə rəssamın olduqca maraqlı əsərləri var. Ziyarətçilər burada qeyri-adi parametriyanı görmüş olacaqlar. Həmçinin Bəhreynin özünəməxsus memarlıq hissələrini tərənnüm edən əsərləri və ilahi naxışları özündə daşıyan həndəsi elementləri görə biləcəklər. Şeyx Raşid Al-Xəlifə qədimliklə müasirliyi özündə ehtiva edən əsərləri ortaya qoyur. Əsərlər gələcəyə doğru nəzər salır, lakin keçmişi yaddan çıxarmır".

Şeyx Raşid Al-Xəlifə çıxış edərək hər kəsi salamlayaraq, belə bir gözəl binada fərdi sərgisinin təşkilindən məmnun olduğunu qeyd edib.

"Mən Bəhreynlə Azərbaycan arasında incəsənət sahəsində mübadilə proqramının daha da genişləndirilməsini arzu edərdim. Mənim sərgimi qəbul etdiyinə görə Heydər Əliyev Fonduna və onun rəhbərliyinə təşəkkür edirəm", - deyə rəssam vurğulayıb.

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bu sərginin paytaxtımızda təşkilinin əhəmiyyətini qeyd edib. "Bizim üçün böyük imkandır ki, belə gözəl və möhtəşəm sərgini Heydər Əliyev Mərkəzində təşkil edə bilmişik. Biz gələcəkdə Bəhreyndə gənc heykəltaraş və rəssamlarımızın birgə mübadilə sərgilərinin təşkilinə çalışacağıq. Düşünürəm ki, bizim gənc heykəltaraş və rəssamlarımız da bundan bəhrələnəcəklər".

Raşid Al-Xəlifə əsərlərini onu əhatə edən təbiətdən ilhamlanaraq yaradır. Rəssamın incəsənət nümunələri digərlərindən ənənəvi və müasir memarlığın ətraf mühitlə vəhdəti ilə fərqlənir.

1952-ci ildə Bəhreyn kral ailəsində anadan olan Raşid Al-Xəlifə Böyük Britaniyanın Hastinqs Kollecində incəsənət və dizayn üzrə təhsil alıb. Karyerasına peyzaj rəngkarlığı ilə başlayan rəssamın həyatında və ətrafındakı dəyişikliklər seçdiyi sahəyə də təsir edib. Ötən əsrin 80-ci illərində Raşid Al-Xəlifənin yaradıcılığında efemer incəsənət nümunələrinə daha çox rast gəlinirdisə, 90-cı illərdəki əsərlərində abstrakt formalar, digər materiallarla, xüsusən də onun yaradıcılığına xas olan "qabarıq kətan"la eksperimentlər üstünlük təşkil edir. 2000-ci illərdə isə alüminium rəssamın yaradıcılığının mərkəzinə çevrilir.

Raşid Al-Xəlifə müxtəlif beynəlxalq sərgilər, incəsənət yarmarkaları və biennalelərin iştirakçısıdır. Hazırda o, Bəhreyn İncəsənət Şurasının sədridir. Təsis etdiyi RAK Art Foundation isə həm də gənc rəssamlara dəstək göstərir.

Heydər Əliyev Mərkəzindəki sərgi sentyabrın 10-dək davam edəcək.

# "İslam və elm" mövzusunda müzakirələr aparılıb

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) təşkilatçılığı ilə vebinar təşkil olunub. Vebinarda Malayziya Beynəlxalq İslam Universiteti (IIUM) Beynəlxalq İslam Təfəkkürü və Sivilizasiyası İnstitutu (ISTAC) əl-Qəzali Epistemologiya, mədəni tədqiqatlar və təcdid kafedrasının müdiri, professor Osman Bakar "İslam və elm" mövzusunda məruzə ilə çıxış edib.



Görüşdə Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri İrfan Davudov, Aİİ rəhbərliyi, institutun müəllim və əməkdaşları iştirak ediblər.

Aİİ-nin İlahiyyat fakültəsinin dekanı dosent Elnurə Əzizovanın moderatorluğu ilə baş tutan görüşdə professor Osman Bakar İslam ilə elm arasında münasibətlər, İslam dünyasında elmi fəaliyyətlərin tarixi, İslam düşüncəsində elmin rolu, mədəniyyətlərarası əlaqələr və digər mövzular barədə söhbət açıb.

Görüş mövzu ətrafında müzakirələrlə davam edib.

***"Azərbaycan"***



# Heydər Əliyev İli 2023

# Heydər Əliyev mükəmməl və sağlam

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və "Azərbaycan" qəzetinin "Dini təhsil: mövcud vəziyyət və perspektivlər" mövzusunda konfransı

*Əvvəli 1-ci səh.*

"Dünyəvilik prinsipinə xələl gətirmədən din təhsilini necə vermək lazımdır" sualı ətrafında bir çox mülahizə qeyd edilir və müzakirələr aparılır. Qısaca qeyd edə bilərik ki, dünyada dini təhsilin müxtəlif formaları mövcuddur. Bunlardan biri konfessional tədrisdir, yəni tədrisdə bir din və ya məzhəb əsas götürülür və dərslər həmin dindən, yaxud məzhəbdən çıxış edərək keçirilir. Bu tədris metodu daha çox müəyyən bir dini və ya məzhəbi öz rəsmi ideologiyası kimi qəbul edən dövlətlərdə tətbiq olunur. Digər təcrübələr isə "din haqqında" və "dindən öyrənmə" modelidir. Dünyəvi dövlətlərdə din tədrisi daha çox bu son iki metod üzərində qurulub. "Din haqqında öyrənmə" modeli müəyyən bir dini dünyagörüşün digərlərindən üstünlüyünü önə çəkmədən cəmiyyətdə mövcud olan dinlərin əsas mahiyyəti və tarixi haqqında deskriptiv (təsviri) bilikləri əhatə edir. "Dindən öyrənmə" modeli isə tədris prosesində dinlərin insanlığa təlqin etdiyi universal mənəvi dəyərlərin mənimsənilməsinə xidmət edir. Bu iki model dünyəvilik prinsipinə xələl gətirmədən cəmiyyətin köklü institutlarından biri olan din haqqında şagird və tələbələrə biliyin verilməsinə xidmət edir.

Fikrimcə, son dövrlərdə ictimai müzakirələrə səbəb olan "xaricdə din təhsili" mövzusuna yuxarıda sözügedən din təhsili modelləri çərçivəsində yanaşmaq daha doğru olardı. İslam dünyasındakı din təhsilinə nəzər saldıqda görürük ki, əksər müsəlman ölkələrində din təhsili konfessional modelə əsaslanır və normativ xarakter daşıyır. Bu təhsildə konkret bir məzhəbin və ya dini qrupun baxışı əsas götürülür və hətta çox vaxt digər məzhəblərin fikirləri "doğru yoldan uzaqlaşma" kimi qələmə verilir. Həmçinin bir çox müsəlman ölkəsindəki din təhsilində klassik dini elmlərə baxış bir-birindən köklü şəkildə fərqlənir. Hətta xalqları eyni məzhəbə mənsub olan ölkələrdəki dini təhsilə diqqət yetirdikdə bu köklü fərqliliyin şahidi oluruq. Bunun əsas mənbəyi isə, ilk növbədə, həmin ölkələrin dinə baxışdakı ideoloji fərqlilikləridir. Dünyəviliyi dövlət-din münasibətlərində əsas model kimi qəbul edən ölkələrdəki din təhsili ilə müəyyən bir dini dünyagörüşü siyasi sisteminin əsası kimi qəbul edən ölkələrdəki din təhsili bir-birindən fərqlidir. Dinin və ya məzhəbin mənbələri eyni olsa da, mənbələrə baxış və onların interpretasiyası bir-birindən köklü şəkildə fərqlənir. Məhz buna görə də dini təhsilə təkcə elmi prizmadan baxmaq kifayət deyil, burada ideoloji amillər də mütləq nəzərə alınmalıdır. Təsəvvür edək ki, dünyəvilik prinsipini qəbul etmiş bir ölkənin vətəndaşı öz baza təhsilini bu prinsipi qəbul etməyən və hətta "qeyri-islami" adlandıran başqa bir dövlətin dini təhsil ocağında alır. Şübhəsiz, o, təhsil almaq üçün getdiyi ölkədə dünyəviliyin nəzərə alınmadığı bir tədris prosesindən keçəcək. Yenə təsəvvür edək ki, çoxməzhəbli bir ölkənin vətəndaşı tək məzhəbin "haqq", digərlərinin isə ən yaxşı halda "bidətçi" kimi təqdim edildiyi bir dini tədris prosesindən keçir. Bütün bunların ictimai vəhdətə vuracağı zərbəni, yəqin ki, təsəvvür etmək çətin deyildir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 9 fevral tarixli sərəncamına əsasən, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılmışdır. Sərəncamda da qeyd olunduğu kimi, institutun yaradılmasının əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etməkdir. Bu sərəncamla ölkəmizdəki ali din təhsili yeni mərhələyə qədəm qoymuş, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi də institutun tərkibinə daxil edilmiş və beləliklə, güclü bazaya malik olan ali təhsil müəssisəsinin əsası qoyulmuşdur.

Ödənişsiz təhsil verən Azərbaycan İlahiyyat İnstitutu yüksək elmi təfəkkürə malik olan kadrların rəhbərliyində milli-mədəni irsi anlayıb dəyərləndirə bilən, mövcud problemlərə dair həll yolları irəli sürən, ilahiyyat sahəsində əsas biliklərə yiyələnmiş kadrlar hazırlamağı qarşısına məqsəd qoymuşdur. Doğru və zamanın reallıqları ilə çulğalaşan dini biliklərə sahib olan, əldə etdiyi biliklərlə özünə və cəmiyyətə faydalı olan, tədqiqatları ilə elmə töhfə verən, din sahəsində ictimai şüurun formalaşmasında aktiv rol oynayan ilahiyyatçıların hazırlanması institut qarşısında duran ən ümdə məqsədlərdəndir.

Azərbaycan İlahiyyat İnstitutunda bir fakültə (İlahiyyat), 3 kafedra (Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai elmlər) mövcuddur. İnstitutda tədris Azərbaycan dilində həyata keçirilir. Gələcəkdə rus, ingilis və ərəbdilli bölmələrin açılması və dünyanın müxtəlif dövlətlərindən tələbələrin institutda təhsilə cəlb olunmaları da nəzərdə tutulur.

Azərbaycan İlahiyyat İnstitutunda təhsil iki istiqamətdə - islamşünaslıq və dinşünaslıq üzrə həyata keçirilir. İslamşünaslıq ixtisası üzrə standartlara islam dininin teoloji, tarixi, sosioloji, psixoloji və fəlsəfi aspektlərdən öyrənilməsini təmin edən fənlər daxil edilmişdir. Bu ixtisasın standartlarında ənənəvi islam elmləri ilə yanaşı, təkcə islam dinini deyil, ümumilikdə, dinləri müxtəlif yönlərdən tədqiq edən din sosiologiyası, din psixologiyası, din fəlsəfəsi, məzhəblər tarixi, dinlər tarixi və digər fənlər də öz əksini tapmışdır. İslamşünaslıq ixtisasına yiyələnənlərin həm din xadimi, həm də islam dini üzrə mütəxəssis kimi fəaliyyət göstərmələri nəzərdə tutulmuşdur. Dinşünaslıq ixtisası üzrə standartların hazırlanmasında Azərbaycan reallıqlarını nəzərə almaqla, dünyanın digər aparıcı universitetlərində mövcud olan dini tədqiqatlar (Religious Studies) bölmələrinin standartlarından faydalanılmışdır. Bu standartlara islam, yəhudilik, xristianlıq, hind və çin dinləri kimi dünyada mövcud olan böyük dinlərin öyrənilməsini nəzərdə tutan fənlər daxil edilmişdir. Həm islamşünaslıq, həm də dinşünaslıq ixtisaslarının standartlarında multikulturalizm, Azərbaycan tarixi, fəlsəfə, məntiq, eləcə də ərəb və ingilis dillərinin öyrənilməsini nəzərdə tutan fənlər daxil edilmişdir.

Din sahəsində mütəxəssis yetişdirərkən bir məqama xüsusi diqqət yetirilməlidir. Cəmiyyətə təkcə savadlı din mütəxəssisləri və xadimləri deyil, savadla yanaşı, Azərbaycanın milli dəyərlərini və ictimai strukturunu mənimsəmiş kadrlar lazımdır. Unutmaq olmaz ki, din müasir dünyada, təəssüf ki, təkcə mənəviyyat deyil, eyni zamanda təhlükəsizlik məsələsidir.

*Dinin insanların mənən zənginləşməsində geniş təsir imkanlarına malik olduğunu söyləyən **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz QURBANLI** vurğuladı ki, bununla bərabər dinin insanların həyatındakı rolunu danmaq, funksiyalarından düzgün faydalanmamaq, habelə ondan sui-istifadə hallarına yol vermək dövlət və cəmiyyət qarşısında yeni problemlər, təhlükələr yarada bilər:*

- Dini-etnik zəmində qarşıdurmaların artdığı, dindən istifadə edən radikal elementlərin geniş vüsət aldığı və ona bilərəkdən rəvac verildiyi bir dövrdə cəmiyyətdə dözümlülüyə nail olunması, müxtəlif din və mədəniyyətlərə mənsub insanların sülh şəraitində yaşayışının təmin olunması hər bir dövlətin qarşısında duran vacib məsələlərdəndir.



Ümummilli Liderimiz Heydər Əliyevin xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdışı onun növbəti xilaskarlıq missiyasının başlanğıcı oldu. Məhz Ulu Öndərin sayəsində milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı, bu dəyişikliklərin fonunda ölkədə dini etiqad azadlığı bərqərar oldu. Vətəndaşların vicdan azadlığı Konstitusiyamızın 48-ci maddəsində öz əksini tapdı və Azərbaycan Respublikasının "Dini etiqad azadlığı haqqında" qanununda geniş şəkildə təsbit olundu. Ümummilli Lider Heydər Əliyev tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan, milli-mənəvi dəyərlərə qayıdışın bünövrəsini formalaşdıran, xalqın keçmişinə, adət-ənənələrinə, inanclarına dövlət səviyyəsində qayğı göstərən, ölkədə dini etiqad azadlığını tam təmin edən dövlət-din münasibətləri modelinin əsası qoyuldu. Ulu Öndərin azərbaycançılıq konsepsiyasına uyğun olaraq ölkədə dövlət-din münasibətlərinin, millətlərarası və dinlərarası dialoqun genişlənməsi üçün əlverişli şərait yaradıldı, bu sahədə beynəlxalq hüquq normalarına uyğun qanunvericilik bazası formalaşdırıldı. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması da Ümummilli Liderin adı ilə bağlıdır. Eyni zamanda dahi şəxsiyyət Heydər Əliyevin müəllifi olduğu Konstitusiyamızda bu modelin tərkib hissəsi kimi Azərbaycanın demokratik, hüquqi, dünyəvi, unitar respublika olması öz əksini tapdı.

Dini təhsil də diqqətdən kənarda qalmadı. Belə ki, Bakı İslam Universiteti fəaliyyətə başladı. Amma təhsil ocağının ödənişli əsaslarla fəaliyyət göstərməsi çətinliklər yaratdı. Hayastanın Azərbaycana təcavüzü, yüz minlərlə vətəndaşımızın öz torpaqlarından didərgin salınması, əhalinin sosial vəziyyətinin aşağı olmasından istifadə edən xarici dairələr Azərbaycanda dini radikal qrupları təşkilatlandırmağa cəhd etdilər. Bu sırada vəhhabilik və İrana bağlı şiəliyin qabarıq şəkildə təbliği görünməkdə idi. Dini inancdan öz geosiyasi maraqlarını həyata keçirmək vasitəsi kimi yararlanmağa çalışan ölkələr gənclərimizi dini təhsil adı ilə öz ölkəsindəki dini hövzələrə cəlb edə bildi. Təəssüf ki, onların bəziləri geriyə qayıdarkən təhsil aldıqları ölkələrin dövlət-din münasibətlərinin, özünəməxsus dini dünyagörüşünün, habelə həyat tərzinin təbliğatçısına çevrildilər. Bu proses cəmiyyətimizdə bir sıra problemlərin yaranmasına və təhdidlərə yol aça bilərdi. Azərbaycan cəmiyyətinin əsrlər boyu saysız-hesabsız təhdid və çətinliklər qarşısında tab gətirməsi, öz varlığını qoruyub saxlaması məhz onun milli kimlik və vətəndaş həmrəyliyi məsələsindəki həssaslığı sayəsində mümkün olmuşdur.

Milli kimliyimiz zamanla dinimizlə, onun mütərəqqi prinsipləri ilə çulğalaşaraq formalaşmışdır. Sevgi, hörmət və fədakarlıq hisslərinin inkişaf etdirilməsində milli-mənəvi dəyərlərimizin rolu əvəzsizdir. Xüsusilə gənc nəsilləri bu dəyərlərə uyğun, milli ruhda yetişdirmək olduqca əhəmiyyətlidir. Çünki gənclərin dini-əxlaqi dəyərlərdən uzaqlaşmaları onların adət-ənənələrimizə zidd düşüncələri mənimsəmələrinə, zərərli axın və ideologiyaların tələsinə düşmələrinə gətirib çıxara bilər ki, bu da cəmiyyətimizin gələcəyi üçün təhdiddir. Bu təhlükənin qarşısının alınması məqsədilə sağlam dini təhsil vermək və savadlı ilahiyyatçı yetişdirmək üçün bazanın formalaşdırılması labüd idi. Məhz bu baxımdan dini təhsil sahəsinə diqqət artırıldı.

Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək üçün Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) yaradıldı. İnstitut hazırda ödənişsiz əsaslarla çox qabaqcıl düşüncəyə malik, müasir dünyamızda gedən prosesləri mükəmməl bilən, elmlə dinin qarşılıqlı əlaqəsini gözəl anlayan, tolerant və multikultural dəyərləri, azərbaycançılıq ideologiyasını mənimsəyən, islamda vəhdəti təbliğ və təşviq edən, heç bir halda məzhəb ayrı-seçkiliyinə yol verməyəcək kadrlar yetişdirir. İnstitutda dini dərslərlə yanaşı, dünyəvi elmlərin də yüksək səviyyədə tədrisi, əhatəli və dərin məzmunlu dərs vəsaitlərinin hazırlanması, tədrisin ümumi saf dini prinsiplər əsasında təşkil olunması, xurafatçılığa yol verilməməsi, tələbələrə vətənpərvərlik ruhunun aşılanması və sairə amillərə xüsusi diqqət yetirilir. Həmçinin təhsil ocağında qeyri-müsəlman dini icmalar da diqqətdə saxlanılır, mütəmadi kurslar təşkil edilir. Aİİ-də xarici tələbələr də təhsil alırlar ki, burada da məqsəd Azərbaycan İlahiyyat İnstitutunun bölgənin əsas dini təhsil mərkəzinə çevrilməsidir.

Sonda qeyd edim ki, hazırda başqa ölkələrdə dini təhsil alınmasına ehtiyac duyulmur. Çünki Azərbaycanın İlahiyyat İnstitutu və müxtəlif dini kolleclər vasitəsilə kifayət qədər kadr hazırlamaq imkanı var. Dövlət Komitəsində bu il "Dini təhsil" şöbəsi yaradılıb. Dini təhsil sahəsində dövrün tələblərinə uyğun aparılan davamlı islahatlar təhsilin keyfiyyətinin artırılmasına, savadlı milli kadrların hazırlanmasına öz müsbət təsirini göstərir.

*Minilliklərə, tarixin dərinliklərinə söykənən, mental baxışlarımızdan süzülüb gələn mənəvi dəyərlər Azərbaycan xalqının kamillik və milli şüur səviyyəsinin ən böyük təcəssümüdür. Bu barədə danışan **"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV** dedi ki, Ulu Öndər Heydər Əliyev hər zaman milli və mənəvi dəyərlərimizə böyük önəm vermiş, hətta sovet dövrünün sərt tələb və qaydaları zamanı bu dəyərlərin yaşaması üçün əlindən gələni etmişdir:*

- Xalqımız olduqca mühüm və bəşəriyyətə nümunə olan yüksək mənəvi keyfiyyətlərə, dəyərlərə malikdir. Mənəvi dəyərlər insanların yaddaşlarına yazılır, gördükləri işlərdə, əməllərdə qorunub saxlanır, gələcək nəsillərə ötürülür. Mənəvi dəyərə can verib onu real gücə çevirən isə insandır, geniş mənada götürdükdə xalqdır. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir. Çünki biz dünyanın ən böyük mənəvi xəzinəsinə malik xalqıq. Bizim milli-mənəvi irsimiz olduqca zəngindir, sözün bütün mənalarında ən gözəl milli nümunədir. Tarixin dərinliklərindən formalaşaraq bu günümüzə gəlib çatan bu sərvət heç vaxt tükənməmiş və itirilməmişdir. Əksinə, zaman ötdükcə bu mənəvi irs ən yüksək kaloritlərlə və keyfiyyətlərlə daha da zənginləşmişdir.

Tarixin müəyyən mərhələlərində xarici təsirlər, yad ideologiyalar da bu sərvəti xalqımızdan qopara bilməmişdir. Məsələn, sovet hakimiyyəti illərində cəmiyyətimizin mərkəz tərəfindən ideoloji repressiyalara məruz qalması belə bizi öz inancımızdan, milli ənənə və adətlərimizdən ayıra bilməmişdir. Sovet hakimiyyətinin bu istiqamətdə bütün cəhdləri uğursuz olmuşdur.

Sovet dövründə xalqımızın milli-mənəvi dəyərlərinə tapınması və mərkəzdən gələn məkrli təsirlərin zərərsizləşdirilməsi Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi illərində baş vermişdir. Məhz Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə xalqımız sovet ideologiyasının unutdurmağa cəhd göstərdiyi mənəvi irsinin zənginliklərinə yiyələnmiş, milli dəyərlərinə daha hörmət və ehtiramla yanaşmağa başlamışdır.

Cəmiyyətimizdə mənəvi dəyərlərin yaşadılması baxımından Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilən yol Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Dövlət başçımız Ulu Öndərin nəcib əməllərini, əsasını qoyduğu mütərəqqi ənənələri layiqincə yaşadır, cəmiyyətimizdə dini-mənəvi dəyərlərin möhkəmləndirilməsinə xüsusi diqqət və qayğı ilə yanaşır. Möhtərəm İlham Əliyevin Novruz bayramında şəhər gəzintisinə çıxması, insanlarla görüşməsi, hər il Ramazan bayramı münasibətilə iftar mərasimində iştirak etməsi və müsəlman dövlətlərinin səfirlərini qəbul etməsi, ölkə vətəndaşlarına təbrik ünvanlaması, o cümlədən respublikamızda tarixi və dini abidələrin bərpası istiqamətində görülən işlər dövlətimizin başçısının mənəvi dəyərlərimizə nə qədər bağlı olmasının təcəssümüdür.

Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə ötürülməsi, xüsusən bu dəyərlərin qloballaşmanın təsiri altında yetişən gəncliyimizə çatdırılması, ümumən dünyaya tanıtdırılması ilə bağlı Heydər Əliyev Fondunun reallaşdırdığı tarixi layihələr bu siyasətin uğuruna xidmət edir. Mehriban xanım Əliyeva tərəfindən Azərbaycanın milli musiqisinin, folklorunun, milli xalçaçılıq, rəngkarlıq irsimizin, mətbəximizin, Novruz ənənələrinin qorunması və bütün dünyada təbliği istiqamətində atılan davamlı addımlar bu siyasətin nailiyyətləridir.

Biz Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın milli-mənəvi dəyərlərimizə nə qədər bağlı olduqlarını bir daha torpaqlarımızın işğaldan azad edilməsindən sonra gördük. Təsadüfi deyil ki, bu gün azad edilmiş ərazilərimizdə aparılan quruculuq işlərinin bir istiqamətini tarixi və dini abidələrimizin bərpası təşkil edir. Ermənilər tərəfindən dağıdılmış, vandallığa məruz qalmış mədəniyyət nümunələrimiz, məscidlərimiz bərpa olunur. Bu sahədə görülən işlər həm də milli-mənəvi dəyərlər kontekstindən Qarabağın tarixi Azərbaycan torpağı olduğunu göstərən ən böyük milli faktordur.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkəmizdə mədəniyyətlər və dinlərarası dialoq keyfiyyətcə yeni mərhələyə yüksəldildi, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə hüquqi zəmin yaradıldı. Ən əsası, bu, dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Ümummilli Lider Heydər Əliyev haqlı olaraq multikulturalizm və tolerantlıq siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. Ulu Öndərin müəllifi olduğu Azərbaycan Konstitusiyasında ölkəmizdə dinindən, irqindən, dilindən asılı olmayaraq hər bir vətəndaşın hüquq və azadlıqları, o cümlədən insanların etiqad azadlığı təsbit olundu. Respublikamızda yaşayan hər bir etnik azlığın, hər bir xalqın təmsilçilərinin mədəniyyətinin, dəyərlərinin müxtəlif qanunlar və normativ-hüquqi aktlarla təsbit edilməsi, mükəmməl qanunvericilik bazasının formalaşdırılması və digər bu kimi mühüm addımlar da aparılan bu məqsədyönlü siyasətin tərkib hissəsidir.

Azərbaycan mədəniyyətlərarası və dinlərarası dialoq üçün mühüm mərkəzə çevrilib. Bu nəticələrin əldə olunmasında öz xeyirxah əməlləri ilə tolerant və eləcə də əsl islami dəyərləri təlqin edən, bəşəriyyəti mərhəmətə, qarşılıqlı köməyə, sülhə çağıran Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyevanın da böyük xidmətləri var.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bu istiqamətdə həyata keçirdiyi tədbirlər, apardığı maarifləndirmə kampaniyaları da bu baxımdan təqdirəlayiqdir. Dövlət-din münasibətlərinin davamlı sağlamlaşdırılması, qarşılıqlı etimad mühitinin formalaşdırılması yönümündə komitənin apardığı səmərəli işlər cəmiyyətdə razılıqla qarşılanır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəzdindəki İlahiyyat İnstitutunun fəaliyyəti də bu kontekstdə xüsusi fərqlənir və deyərdim ki, nümunəvi rol oynayır.

Bir məqamı da qeyd etmək istərdim ki, Azərbaycanda uzun illər dini təhsillə bağlı ciddi problemlər vardı. Bu problemlər isə nəticə etibarilə dövlətçiliyimizə və milli təhlükəsizliyimizə ciddi təhdidlər yaradırdı. Təəssüf ki, xaricdə dini təhsil alan həmvətənlərimizin bir çox hallarda radikal, antiazərbaycançı meyillərə cəlb olunması, onların müstəqil dövlətçiliyimizə qarşı yönələn cəhdlərdə iştirakı kimi hallara rast gəlinirdi. Bəlli xarici dairələr tərəfindən yeniyetmə və gənclərin səmimi dini duyğularının nadancasına istismar edilməsi Azərbaycanda dini durumun sağlamlaşdırılmasına əsas maneə idi. Bu kontekstdə Prezident İlham Əliyev tərəfindən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması Ulu Öndərin müəyyən etdiyi dövlət-din münasibətlərinin dünyəvi və hüquqi prinsiplərlə tənzimlənməsində mühüm addım oldu.

Əminliklə və sevinclə deyə bilərəm ki, yeni nəsil ilahiyyatçılarımız cəhalətdən, antiazərbaycançı meyillərdən uzaq, islamın əsl mahiyyətinə uyğun təhsil əsasında formalaşır və cəmiyyətə faydalı xidmət edirlər. İlahiyyat İnstitutunun məzunları artıq paytaxtdan bölgələrə qədər hər yerdə səmərəli fəaliyyət göstərir, əhalinin dini maariflənməsinə töhfələr verirlər.

***Dağ yəhudiləri dini icmasının sədri Milix YEVDAYEV** Azərbaycanda mükəmməl dövlət-din münasibətləri sisteminin formalaşmasının və tətbiqinin müstəqil dövlətimizin memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd etdi:*



- Bu sahədə Ulu Öndərin zəngin irsinin öyrənilməsi və təbliği təkcə tarix və müasir dövr baxımından deyil, həm də gələcəkdə proseslərin istiqamətini düzgün müəyyənləşdirmək və yönəltmək nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir.

Hazırkı dünyamızda beynəlxalq münasibətlər sistemində mövcud vəziyyət, o cümlədən dünyada cərəyan edən qanlı hadisələr bir daha sübut edir ki, dinə yalnız inanc, mənəviyyat və hüquq məsələsi kimi deyil, həm də dövlətin və cəmiyyətin təhlükəsizliyi və sabitliyi prizmasından yanaşmaq lazımdır. Bu mənada Heydər Əliyevin dövlət-din münasibətləri, dini dəyərlərin qorunması və təbliği, eləcə də tarixi dini abidələrin bərpası, tolerantlığın və dinlərarası dialoqun təşviq edilməsi sahəsində zəngin irsinin öyrənilməsi və düzgün təbliği Azərbaycanla yanaşı, digər ölkələr üçün də faydalı ola bilər.

Bununla yanaşı, dünyəvi dövlətdə dinin yeri, eləcə də qloballaşma prosesinin getdikcə dərinləşdiyi hazırkı dövrdə milli adət-ənənələrin yaşadılması və mənəvi irsin mühafizəsi çağdaş dünyanın ən aktual məsələlərindən biri hesab olunmalıdır. Sürətlənən qloballaşma prosesi xalqların milli xüsusiyyətlərini və özünəməxsusluğunu əridərək ümumi dəyərlərə sahib vahid dünya cəmiyyəti formalaşdırır. Təbii ki, bu təkcə xalqların deyil, milli dövlətlərin də gələcəyi ilə bağlı ciddi suallar doğurur. Azərbaycan xalqı üçün bu sualların cavabları Heydər Əliyevin zəngin elmi-nəzəri və əməli irsində axtarılmalıdır.

Həyatda elə dahilər dünyaya gəlir ki, onlar "sağlığında xalqın sevimlisi - dünyasını dəyişəndən sonra isə tarixin yaraşığına çevrilirlər". Ümummilli Lider Ulu Öndər məhz belə Dahilərdəndir. Biz Azərbaycan xalqı ilə birgə Ulu Öndərin 100 illiyini qeyd etməklə, həm də möhtəşəm qələbəmizin 3 illiyini qeyd edəcəyik.

Bütün işğal illəri zamanı Ulu Öndərin arzuları Azərbaycan xalqının arzuları ilə birgə olaraq bu torpaqların azadlığı uğrunda bütün səyləri birləşdirərək, güclü bir dövlət formalaşdırmış, dövlət quruculuq ənənələrini davam etdirmiş, dövlətin Konstitusiyasını ərsəyə gətirmiş, dövlət dilinin qorunub saxlanması və inkişaf etdirilməsinə nail olmuş, dövlət iqtisadiyyatını yaratmış, "Əsrin müqaviləsi"ni reallaşdırmış, daxili və xarici siyasətin düzgün prioritetlərini müəyyən etmiş, azərbaycançılıq ideyasını hazırlamışdı.

Ulu Öndər müstəqiliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik və vətəndaş həmrəyliyinin lazım olduğunu dönə-dönə qeyd edirdi. Ölkəmizdə milli həmrəyliyin, vətəndaş birliyinin möhkəmlənməsi istiqamətində aparılan dövlət siyasəti özünün məntiqi nəticəsini 44 günlük Vətən müharibəsi dövründə göstərdi.



# Heydər Əliyev İli 2023

# dövlət-din münasibətlərinin banisidir

Azərbaycan xalqı, şanlı ordumuz Ali Baş Komandan ətrafında birləşərək düşmənimizin başını əzən "dəmir yumruğ"un yaranmasına nail oldular.

İndi isə ölkəmiz üçün yeni dövr başlayır: yeni quruculuq, azad edilmiş ərazilərimizin bərpası dövrü. Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik, güclü iradə göstərəcək və dağıdılmış bütün əraziləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Ulu Öndərin yaratdığı ən böyük əsər müstəqil, azad, çağdaş Azərbaycan Respublikasıdır. İllər keçdikcə Ulu Öndərin arzuları çin olacaq, Azərbaycan başdan-başa cənnətə dönəcəkdir.

***Alban-Udi xristian dini icmasının sədri Robert MOBİLİ** konfransın yüksək əhəmiyyətindən bəhs edərək vurğuladı ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanda mövcud olan bütün dinlərin və konfessiyaların böyük himayədarı, qayğıkeşi idi:*



- Sevinirik ki, bu siyasət Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Alban-Udi Xristian Dini İcması dövlətin dəstəyi ilə geniş və səmərəli fəaliyyət göstərir.

Azərbaycan çoxmillətli və çoxkonfenssiyalı bir dövlətdir. Bu dövlətdə yaşamağın, icma sədri olmağın üstünlükləri çoxdur. Azərbaycanda multikultural mühitin yaranmasında Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Bu siyasətin doğru-düzgün aparılmasının nəticəsidir ki, Azərbaycanda din təhsili yüksək səviyyədədir. Xüsusilə qeyd etmək istərdim ki, xaricdə din təhsilinə diqqət etsək görərik ki, islamofobiya daha qabarıqdır və bu da din təhsilinin verilməsində xüsusi əngəllər yaradır. Azərbaycanda isə bu belə deyil. Azərbaycan İlahiyyat İnstitutu bütün dinləri tədris edən ali məktəbdir. Biz də çox rahat şəkildə öz icma üzvlərimizə tövsiyə edirik ki, din təhsillərini məhz ölkəmizdə alsınlar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu tərəfindən müraciətimizə cavab olaraq xristianlıq kursu təşkil olundu. Aİİ-nin müəllimləri Qəbələnin Nic qəsəbəsində yerləşən Cotari kilsəsində kursda tədris apardılar. Kursun sonunda müdavimlərə sertifikatlar təqdim edildi. Xüsusilə qeyd etmək istəyirəm ki, kursu bitirənlər üçün dini təhsili ali səviyyədə davam etdirmək daha əlverişlidir.

Bu günlərdə keçirilən X Qlobal Bakı Forumunda cənab Prezident İlham Əliyev çıxışında ölkəmizin multikultural mühiti barədə geniş danışaraq, birgəyaşayış modelinin, artıq dövlətimizdə öz təsdiqini tapdığını qeyd etdi. Bu da bizim fəaliyyətimizə hər zaman müsbət təsir göstərir.



***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini təhsil şöbəsinin müdiri Elnarə KƏRİMOVA** qeyd etdi ki, hər bir dövlətin dini təhsillə bağlı qarşısına qoyduğu məqsədlər var və həmin məqsədlərə çatmaq üçün dövlətlər özlərinin yol xəritəsini müəyyənləşdirir. Həm islam, həm də Qərb dünyasında dini təhsillə bağlı təcrübələrə nəzər yetirilsə, bunu aydın şəkildə görmək mümkündür:*

- Bu məqsədləri isə iki istiqamətdə qruplaşdırmaq olar. Birinci istiqamətdəki məqsədlər, demək olar ki, bütün ölkələr üçün eynidir. Yəni hər bir dövlət istəyir ki, dini təhsil sistemi onun qanunvericiliyinə uyğun olmaqla, milli maraqlarına cavab verməklə bərabər, həm də ölkədəki mövcud dini duruma, dinlər, məzhəblərarası münasibətlərə adekvat olsun.

Eyni zamanda dövlətlər müvafiq strukturları vasitəsilə çalışır ki, dini duruma olduğu kimi, dini təhsil sahəsinə də mümkün qədər nəzarətini təmin etsin, habelə xarici təsirləri dini təhsillə bağlı proseslərdən kənar tutsun. Çünki din sahəsi hər bir dövlət üçün milli, ictimai, ideoloji təhlükəsizlik məsələsidir. Bu baxımdan müasir dünyamızda dinə yalnız mənəvi dəyər, hüquq, vicdan azadlığı prizmasından baxan ölkə yoxdur.

Azərbaycanın yerləşdiyi region, bu regionun həssaslığı, kənar təsirlərin mövcudluğu, islam dünyasının bir parçası olması, Qərblə Şərqin arasında körpü rolunu oynaması, eyni zamanda ölkəmizdəki dini durum, tarixən formalaşmış tolerantlıq ənənələri və burada mövcud olmuş məzhəblərarası münasibətlər Azərbaycan hökumətini məcbur edir ki, dini təhsil sahəsinə digər ölkələr kimi insan hüquqları, vicdan azadlığı, mənəvi dəyər ilə yanaşı, həm də özünün hərtərəfli təhlükəsizliyi prizmasından baxsın. Bu mənada yuxarıda sadaladığımız məqsədlər Azərbaycan üçün də keçərlidir. Lakin onu da xüsusilə vurğulamaq lazımdır ki, dini təhsil sahəsində ümumi məqsədlərlə yanaşı, hər bir ölkənin spesifik xüsusiyyətlərindən irəli gələn fərqli yanaşmaları da ola bilər.

Elə isə Azərbaycan üçün bu yanaşmalar nədən ibarətdir? Birincisi, dini təhsil dövlətin nəzarətində olmaqla yanaşı, milli, ictimai, ideoloji təhlükəsizliyimizə təhdid yaratmamalıdır. Dindən ölkəmizin milli maraqlarına, ərazi və mənəvi bütövlüyünə, milli mədəniyyətinə xələl gəlməməlidir. Xarici dairələrin hansısa bir formada dindən və ya dini təhsildən dövlətimizə qarşı istifadə etməsinə imkan verilməməlidir. Bunun üçün Azərbaycan dövləti məcburdur ki, dini təhsilə nəzarət etməklə bərabər, bu sahədə prioritetlərini də müəyyənləşdirsin.

Əslində, bu prioritetlər artıq müəyyənləşib. Dini təhsil dövlətin nəzarətində olmalı, qiyabi və ödənişli olmasına icazə verilməməli, məzhəblərüstü mahiyyət daşımalıdır. Bu sahənin, yəni dini təhsilin məhsulu olan kadrlar ölkənin hər yerində fəaliyyət göstərə bilməlidirlər.

Xaricdə dini təhsil almış insanlar var. Onların bir qismi ərəb ölkələrində, digər bir qismi İranda oxuyub. Bu şəxslərin dünyagörüşünə, aldıqları təhsilə, eyni zamanda cəmiyyətin onlara münasibətinə baxdıqda görürük ki, onların fəaliyyəti Azərbaycanın hansısa bölgəsinə və ya hansısa məzhəbə yönəlikdir. Çünki onlar xaricdə məzhəbyönlü, məzhəb prinsiplərinə əsasən təhsil alıblar. Qısası, onlar ya şafilik, ya hənəfilik, ya hənbəlilik, uzağı ya şiəlik, ya da sünnilik üzrə mütəxəssislərdir. Biz məzhəbləri inkar etmirik, lakin məzhəb zəminində təhsili də qəbul edə bilmərik. Bu nöqteyi-nəzərindən dövlət-din münasibətlərinin daha effektiv şəkildə tənzimlənməsi, dövlətin din siyasətinin uğurla həyata keçirilməsi, xarici dövlətlərin dini duruma təsirinin qarşısının alınması, dindarlar arasında və cəmiyyətdə müasir dünyagörüşünün təlqin edilməsi, eləcə də dünyəvi dövlətin əsaslarının düzgün təbliğ olunması üçün ixtisaslı dini kadrların hazırlanması ən vacib məsələlərdən biridir. Hazırda dini təhsilin keyfiyyətcə yeni mərhələyə qaldırılması ölkəmizin həm daxilə, həm də xaricə yönəlik məqsədlərinin reallaşdırılması üçün prioritet milli hədəf kimi qiymətləndirilə bilər.

Din sahəsində kadr hazırlığı mərkəzləşdirilmiş qaydada və planlı şəkildə həyata keçirilməlidir. Belə olacağı təqdirdə, gələcəyin din xadimləri öncə islam kolleclərində, daha sonra Azərbaycan İlahiyyat İnstitutunda təhsil alacaqlar ki, bu da dövlətin idarəçiliyi və nəzarəti altında din sahəsində ardıcıl və mərhələli təhsil sisteminin formalaşması deməkdir.



Deməli, bu gün üçün qarşımızda duran əsas məqsədlərdən biri də Azərbaycan İlahiyyat İnstitutu ilə bağlı reallaşdırdığımız məqsəd və prinsipləri orta ixtisas dini təhsil müəssisələrində də tətbiq etməyə nail olmaqdır.

*Konfransın cəmiyyətimizin həyatında mühüm hadisəyə həsr olunduğunu söyləyən **Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının İctimai təşkilatlarla əməkdaşlıq üzrə yeparxiya şöbəsinin rəhbəri protoiyerey Mefodiy ƏFƏNDİYEV** bildirdi ki, keyfiyyətli dini təhsil almaqla bağlı problem bir neçə onilliklər ərzində aktual problemlərdən biri olaraq qalırdı və onun ətrafında çoxlu mübahisələr və müzakirələr aparılırdı.*



- Dövlətimiz tərəfindən dini təhsil məsələlərinə cəmiyyətdə sülhə və sabitliyə təsir edən istiqamətlərdən biri kimi strateji əhəmiyyət verilir. Müstəqilliyin bərpası ilə Azərbaycan vətəndaşları dünyəvi dövlətin vətəndaşları olaraq öz dini etiqadlarına riayət etmək hüququ əldə etdilər. Ölkənin dini icmaları inkişafları üçün güclü bir təkan aldılar.

Azərbaycan xalqının mənəvi dirçəlişinə xüsusi diqqət yetirilmişdir. Bu prosesin başlanğıcını dinin cəmiyyətdə əhəmiyyətini dərk edən, mənəvi irsin və milli ənənələrin qorunub saxlanmasını daxili siyasətin aktual məsələlərindən biri hesab edən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev qoymuşdur. O, 10 oktyabr 1993-cü ildə inaqurasiya zamanı demişdir: "Xalqımız öz dininə qayıtdı... Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına islam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda islam dini vasitəsilə nəsildən-nəslə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır. Azərbaycanda islam dininə insanların sərbəst etiqad etməsi üçün bütün şərait yaradılmış və bundan sonra da yaradılacaqdır".

Bu sözlər xalq tərəfindən mənəvi dirçəlişə çağırış, milli və mənəvi dəyərlərə qayıdış çağırışı kimi qəbul edildi. Bunsuz kimliyi qorumaq, güclü və firavan bir dövlət qurmaq mümkün deyil. Ümummilli Liderin dəstəyi və Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələrinin dinc yanaşı yaşamasının zəngin təcrübəsi sayəsində mənəvi dirçəliş prosesi bütün ənənəvi icmaların - müsəlman, xristian və yəhudi icmalarının nümayəndələrinə müsbət təsir göstərmişdir.

Dini dirçəliş şəraitində keyfiyyətli dini təhsilin təmin edilməsi prioritet olmuşdur. Uzun müddət ərzində dini təhsili Bakı İslam Universitetində və Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində almaq mümkün olmuşdur. Təəssüf ki, çox zəif elmi, texniki və maddi baza, bu sahədə mütəxəssislərin azlığı yerli dini təhsilin inkişafına mane olurdu. Çox sayda gənc xaricdə ali dini təhsil almaq məcburiyyətində qalırdı. Bu da, öz növbəsində, dinc yanaşı yaşamaq və dinlərarası dialoq sahəsində Azərbaycan xalqının əsrlər boyu topladığı təcrübəyə yad olan bir sıra dəyərlərin mənimsənilməsi ilə müşayiət olunurdu. Bu mənfi hadisənin qarşısını almaq üçün mənəvi, etik və ideoloji problemlərlə məşğul olan strukturları xarici təsirlərdən və maliyyə asılılığından qorumaq üçün bir sıra tədbirlər hazırlamaq lazım idi. Bu tədbirlərin məntiqi nəticəsi hazırda dövlət səviyyəsində ali dini təhsilin verilməsi ilə məşğul olan Azərbaycan İlahiyyat İnstitutunun yaradılması oldu.

İldən-ilə cəmiyyətin dini təhsilə marağının artması müşahidə olunur. Orta təhsil müəssisələrində "dünya biliyi" fənni çərçivəsində uşaqlara ənənəvi dinlərin əsasları haqqında məlumat verməyə cəhdlər edilir. Dərsliklərdə yerləşdirilən məlumatlar, ixtisaslı ilahiyyatçıları və ya dini icmaların nümayəndələrini məsləhətçi kimi cəlb etmək də əhəmiyyətli olar. Ənənəvi ibadət yerlərinin - məscidlərin, kilsələrin və sinaqoqların orta və ali təhsil müəssisələrinin tələbələri tərəfindən ziyarətlərin sayı artır. Bu, gənc nəslin dünya görüşünün genişlənməsinə və çoxmillətli cəmiyyətimizin ənənəvi multikultural dəyərləri ilə tanış olmasına kömək edir. Unutmayaq ki, ənənəvi dinlərin böyük yaradıcılıq potensialı var və dini təhsil milli xüsusiyyətləri nəzərə alaraq cəmiyyətimizin möhkəmlənməsinə və destruktiv yalançı dini cərəyanların rədd edilməsinə yardımçı olur.

***Azərbaycan İlahiyyat İnstitutunun dekanı, dosent Elnurə ƏZİZOVA** qeyd etdi ki, dünyəvi dövlət anlayışının inkişafına paralel olaraq XIX əsrdən etibarən dövlət məktəblərində din təhsili mövzusu Qərb dünyasında müzakirə obyektinə çevrilmişdir:*



- Ötən müddət ərzində demokratik və dünyəvi dövlətlərin böyük əksəriyyəti siyasi, dini və mədəni keçmişinə uyğun olaraq dövlət məktəblərində öz din təhsili modelini seçərək inkişaf etdirdi. Nümunə olaraq, Danimarka, İsveç və Norveçdə məcburi din fənni; İngiltərə, İrlandiya, Almaniya, Finlandiya, Avstriya və digər ölkələrdə məcburi din-əxlaq fənni, Yaponiya və Fransa kimi ölkələrdə isə əxlaq fənni tədris olunur. Əlbəttə, dünyəvi-demokratik ölkələrdə tədris olunan din fənninin metodlarına dair vahid bir standart mövcud deyil. Müxtəlif metodların tətbiqində bir ölkənin din tədrisinə dair yanaşmasının, ictimai və mədəni strukturunun, dini dəyərlərin cəmiyyətdəki rolunun, din-dövlət arasındakı münasibətin, təhsil sisteminin özünəməxsus xüsusiyyətlərinin mühüm bir rolu vardır.

Azərbaycanın dövlət məktəblərində müstəqil din fənni tədris edilmir. Bununla birlikdə 2004-cü ildən ümumtəhsil məktəblərində tədris olunan "Həyat bilgisi" dərsliklərində dinlərlə əlaqəli əsas biliklər öyrədilir. Bu biliklərin məzmun və çərçivəsi Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün "Həyat bilgisi" fənni üzrə təhsil proqramı (kurikulum) nəzərə alınaraq hazırlanır. "Həyat bilgisi" dərsliklərində "din" mövzusu dinin tərifi, mənşəyi, məqsədi, dinlərin təsnifatı, Tanrı, peyğəmbər, vəhy kimi fövqəltəbii anlayışlar, dünyanın dərk olunması, insan hüquqları və tolerantlıq zəminində "dinin" təqdim olunması kimi məsələlər çərçivəsində və ayrı-ayrılıqda dinlərin nümunəsində deyil, ümumi din konsepsiyası əsasında tədqiq olunur. "Həyat bilgisi" dərsliklərində verilən din təriflərində iman, ibadət, dünyanı dərk etmə ehtiyacı, əxlaq və ictimai funksiya kimi amillər ön plana çıxarılır. Dinin tərifi mövzusuna olduğu kimi, mənşəyi məsələsinə də dərsliklərdə müxtəlif prizmalardan baxılır. Dinlərin təsnifatı isə zamanı müxtəlif terminlərdən istifadə olunan "Həyat bilgisi" dərsliklərində aralarında dərəcə fərqi qoyulmadan dinlərin çoxluğu anlayışı hakimdir və bu anlayış əsasən 1-ci sinifdən etibarən Azərbaycanın dini demoqrafiyasına uyğun olaraq islam, xristianlıq və yəhudilik dairəsində təqdim olunur. Dərsliklərdə yəhudilik, xristianlıq və islam kimi "təkallahlı", "səmavi" və ya "haqq" dinlərin ibadət və mərasimlərindəki fərqliliklərə baxmayaraq, inanc və əməldə ortaq xüsusiyyətlərinin çox olduğu xüsusilə qeyd edilir.

Dərsliklərdə dinə baxışı müəyyənləşdirən bir digər mövzu, dünyanın dərk olunmasında dinin rolu ilə əlaqəli yanaşmadır. Ümumilikdə dərsliklərdə dini və elmi dünya görüşün bir-birinə alternativ olaraq təqdim edilməsi nümunələrinə rast gəlmək mümkündür. Dinə baxışla əlaqəli bir digər önəmli məsələ isə dinin insan hüquqları çərçivəsində dəyərləndirilməsidir. Dərsliklərdə insan hüquqları və tolerantlıq fonunda dinə yer ayrılmasının zəruriliyi ilə yanaşı, dinin həm tarixdə, həm də müasir dövrdə tolerantsızlıq və terror məqsədilə də istifadə olunduğunun nümunələrinə yer verilir, din ekstremizm və terrorla münasibətdə də qiymətləndirilir. Tarixdə dini zəmində fərqliliklərə qarşı təqib və zorakılığın müasir dövrdə də davam etdirilməsi riski vurğulanır. Xüsusilə xarici ölkələrdən gələn zərərli dini ədəbiyyatın, informasiyanın təbliğinin, xalqımızın milli təfəkkürünə yad olan dini radikal çağırışların qarşısının alınması, xarici ölkələrdə yerləşən dini-terror qruplaşmaları ilə əlaqədə olan bəzi dini təşkilatların fəaliyyətinin nəzarətdə saxlanması, ictimai asayişin pozulmasına, şəxsiyyətin şərəf və ləyaqətinin alçaldılmasına istiqamətlənən bu kimi qanunazidd fəaliyyətlərin qarşısının alınmasına dair fəaliyyətlər qeyd olunur. Dini ekstremizm və terror kontekstində islamla əlaqəli qərəzli ictimai rəyin mövcud olduğu və bu düşüncələrin ortadan qaldırılmasının müsəlmanların da öhdəsinə düşdüyü dərsliklərdə vurğulanan bir digər məsələdir.

*Azərbaycanda Katolik Kilsəsinin apostol prefekti, yepiskop Vladimir FEKETEnin konfrans iştirakçılarına salamlarını və müraciətini Azərbaycan Respublikası Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumunun təmsilçisi Yozef MAREK çatdırdı:*

- Biz Azərbaycanda multikulturalizm və tolerantlıq siyasətinin haqlı olaraq banisi hesab edilən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd olunduğu ilə qədəm qoymuşuq. Bununla bağlı mən Heydər Əliyevin 1993-cü ildə Azərbaycan Prezidenti kimi andiçmə mərasimindəki nitqindən bir hissəni diqqətinizə çatdırmaq istədim: "Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və biz bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır".



Ümummilli Liderin bu tarixi sözlərinin deyildiyi gündən 30 il keçir və bu gün sevinclə deyə bilərik ki, onlar nəinki həyata keçmiş, həm də öz gələcək inkişaflarını əldə etmişlər. Buna çoxlu sübutlar var ki, onlardan biri də Azərbaycan İlahiyyat İnstitutunda ənənəvi dini icmaların rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə keçirilən tədbirimizdir. Bu o deməkdir ki, Azərbaycan bu illər ərzində nəinki öz dini palitrasının zənginliyini qoruyub saxlaya, hətta artıra bilmişdir.

İndi qarşımızda yeni vəzifələr, o cümlədən ölkə vətəndaşlarının gənc nəslinin Azərbaycan cəmiyyəti üçün ənənəvi olan multikulturalizm və tolerantlıq dəyərləri ruhunda mənəvi-əxlaqi inkişafının təşviqi durur. Bununla belə, dövrümüzün narahatedici reallıqlarını, dünyada dini və etnik dözümsüzlüyün ümumi artımını nəzərə alaraq, biz də cəmiyyətimizin mənəvi təhlükəsizliyinə xüsusi diqqət yetirməyə borcluyuq. Bu baxımdan dini təhsil məsələsi xüsusilə aktuallaşır.

Azərbaycan İlahiyyat İnstitutunda əsasən islam ilahiyyatı ilə bağlı fənlərin tədris olunması tamamilə təbiidir. Eyni zamanda institut rəhbərliyi tələbələrin hərtərəfli inkişafına xüsusi diqqət yetirir və onları Azərbaycandakı digər dini icmaların inanc əsasları və adət-ənənələri ilə tanış edir. Mən Azərbaycan Katolik Kilsəsinin İlahiyyat İnstitutumuzla daha fəal və çoxtərəfli əməkdaşlığa hazır olduğunu vurğulamaq istərdim.

2021-ci ilin oktyabrında Papa Fransisk Vatikanda dünya dinlərinin nümayəndələrini, Qlobal Təhsil Paktını təşviq etmək üçün Birinci Beynəlxalq Görüşün iştirakçılarını qəbul etmişdi. Onların qarşısında çıxış edən Müqəddəs Ata vurğulamışdı: "Daha təhlükəsiz dünya qurmaq istəyiriksə, mənşəyindən asılı olmayaraq hər bir insanı sevməyi və hər kəsə hörmət etməyi bacaran yeni nəsillər yetişdirmək lazımdır". Dinlərin təhsildə rolunu qeyd edən Papa Fransisk dinlərin hər zaman maarifçilik fəaliyyəti ilə sıx bağlı olduğunu vurğulamışdır. Papa fikirlərini davam etdirərək demişdir: "Savadlılığın yayılmasında həmişə öndə olan dini ənənələrimiz ..., hər bir insanda bütövlüyü - ağıl, əl, qəlb və ruhun vəhdətini, yəni ona xas bütün gözəlliyi tərbiyə etmək missiyasını gücləndirməlidir".

Bu sözlər hamımız üçün xatırlatma rolunu oynaya bilər ki, ölkədə dini maarifləndirmə sisteminin qurulmasında xalqın artıq formalaşmış mənəvi ənənələrinə söykənmək lazımdır. XX əsrdə Azərbaycan çox əziyyətlər çəkmişdir, lakin buna baxmayaraq, onun xalqı həm islam dəyərlərinə əsaslanan ənənəvi mənəviyyatını, həm də digər dinlərə və dünyagörüşlərinə hörmətlə yanaşmağı qoruyub saxlaya bilmişdir. Mənə elə gəlir ki, ilk "tərbiyə məktəbi" olan ənənəvi Azərbaycan ailəsinin təcrübəsinə, cəmiyyəti hər zaman ifratçılıq və radikalizmdən qoruyan Azərbaycanın xalq müdrikliyi xəzinələrinə müraciət etsək, onda biz dini təhsildə unikal Azərbaycan milli sisteminin qurulmasına kömək edə biləcək zəngin ilham mənbələri kəşf edəcəyik. Mən, həmçinin əminəm ki, Azərbaycanın bütün ənənəvi dinlərinin nümayəndələrinin bu istiqamətdə fəal əməkdaşlığı yaxşı töhfə verəcək və biz Yerli Katolik Kilsəsi olaraq bu işdə hər cür kömək göstərməyə hazırıq.

***Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi Aqşin MƏMMƏDOV** qeyd etdi ki, bu tədris ocağında "Dinşünaslıq" ixtisası üzrə təhsil aldığı müddətdə bütün dünya dinləri ilə əlaqəli fənləri öyrənib. Peşəkar müəllimlər tərəfindən tədris edilən bu fənləri lazımi şəkildə mənimsədikdən sonra milli şüurlu ilahiyyatçı kimi yetişmək imkanı var. Bu baxımdan da ölkədə yeganə dini ali təhsil müəssisəsi olan Azərbaycan İlahiyyat İnstitutu ən yaxşı seçimdir:*

- Azərbaycan İlahiyyat İnstitutunda biz həm islam elmləri (fiqh, əqaid, kəlam, təfsir və s.), həm də dünyəvi elmlər (tarix, ingilis dili, sosiologiya, fəlsəfə, məntiq, psixologiya) öyrənirik. Buna görə də həm dünyəvi elmlər, həm də dini elmlər vasitəsilə əldə olunan məlumatları müxtəlif aspektlərdən dəyərləndirmək imkanımız yaranır. Belə ki, Azərbaycanda din sahəsində yüksəkixtisaslı kadrlara ehtiyac olduğunu nəzərə alsaq, biliklərə dərindən yiyələnməyimiz vacibdir. Həmçinin müxtəlif dilləri (ərəb, ingilis dili, rus dili) öyrənmək şansı əldə edirik. İslam və digər dinlərlə əlaqəli klassik mətnləri oxumaq qabiliyyətmizi formalaşdırırıq.



Sinif otaqlarımız lazımi vəsaitlə tam təchiz olunmuşdur. Müəllimlərimiz dərsləri müasir texniki vasitələrlə bizə izah edir. Kitabxanada dərslərimizi və araşdırma mövzularımızı rahatlıqla hazırlamaq üçün normal şərait və vəsait mövcuddur. Ərəb dili, ingilis dili, rus dili kimi beynəlxalq dilləri öyrənmək üçün Aİİ tərəfindən bizə ödənişsiz kurslar təşkil edilir. Həmçinin bir sıra din elmləri sahəsində də institutumuzdakı kurslardan faydalanırıq.

Biz Azərbaycan gənci kimi, öz dinimizi, dilimizi və milli kimliyimizi daha yaxşı bilməliyik. Bu kimlik bizə gələcək həyatımızda, eləcə də Azərbaycan xalqının təhsil baxımından savadlı inkişaf etməsində çox əhəmiyyətlidir. Buna görə də Aİİ-də hər zaman Azərbaycan tarixində baş verən hadisələr, eləcə də Azərbaycan dilində edilən xitabət qaydaları və milli atributlarımız daim ön plandadır.

Dərslərimizdə hansısa məsələni tolerant bir şəkildə həll edirik. Müxtəlif bir məsələ hər bir alimin, dinin, məzhəbin baxışı ilə nəzərdən keçirilir və izah edilir. Burada dini dözümsüzlükdən söhbət belə gedə bilməz. Hər bir tələbə və müəllim hansısa dinə, məzhəbə qarşı qərəzli şəkildə yanaşmır. Biz, həmçinin digər dini konfessiyaların təmsilçiləri ilə görüşür və bu görüşlər sayəsində nəzəri olan biliklərimizi praktik olaraq daha da möhkəmləndiririk. Müxtəlif beynəlxalq konfranslarda iştirak etməyimiz bizim, həm də dünyagörüşümüzə müsbət mənada təsir göstərir. Xaricdən gələn qonaqlar, eləcə də xaricdə təhsil alan müəllimlərimiz vasitəsilə digər dövlətlərin dini məsələləri ilə tanış oluruq.

***"AZƏRBAYCAN"***

# YAP Sədrinin müavini ÇKP və dünya siyasi partiyalarının yüksəksəviyyəli dialoqunda iştirak edib






Martın 15-də Çin Kommunist Partiyasının (ÇKP) təşəbbüsü ilə "Modernləşmə yolu: siyasi partiyaların məsuliyyəti" mövzusunda ÇKP və dünya siyasi partiyalarının onlayn formatda yüksəksəviyyəli dialoqu keçirilib.

Yeni Azərbaycan Partiyasının (YAP) Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, partiyanın İdarə Heyəti və Təftiş Komissiyasının, Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunda təmsil olunan üzvləri və Mərkəzi Aparatın məsul əməkdaşları tədbirdə iştirak ediblər.

ÇKP-nin XX Qurultayından sonra dünyanın siyasi partiyaları ilə ilk dəfə təşkil olunan dialoqda Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpin çıxışında hər ölkənin öz milli xüsusiyyətlərinə və maraqlarına uyğun modernləşmə yolu seçməsinə dəstək ifadə edib, beynəlxalq münasibətlərdə hegemonluq və diktə siyasətini qəbuledilməz adlandırıb, müxtəlif ölkələrin siyasi partiyalarının yeni çağırışlar mühitinə uyğun dünyanın qurulmasında rolunun artırılmasına çağırış edib.

Tədbirdə gələcək inkişaf üçün yeni ideya, konsepsiya və strategiyanın təqdim edilməsi, müxtəlif ölkələrin siyasi partiyalarının iştirakı ilə daha sağlam və təhlükəsiz dünyanın qurulması məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# ABŞ və Azərbaycan arasında fövqəladə hallarla mübarizə üzrə əlaqələrin inkişaf etdirilməsi hər iki ölkə üçün faydalıdır



Martın 15-də Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığının tərəfdaşlıq, təhlükəsizlik və siyasət imkanları üzrə direktor müavini briqada generalı Edvard Voqan ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazir Kəmaləddin Heydərov hər iki ölkənin fövqəladə hallarla mübarizə üzrə uyğun qurumları arasında əlaqələrin hazırkı səviyyəsindən məmnunluq ifadə edib. Qurumlararası əlaqələrin, o cümlədən mülki müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğunu vurğulayan nazir qarşılıqlı səfərlərin, təlimlərin əhəmiyyətindən danışıb. Bu çərçivədə ABŞ-nin Təhlükənin Azaldılması üzrə Müdafiə Agentliyi tərəfindən FHN-in Mülki müdafiə qoşunlarına avadanlıqların verilməsinə və təlimin keçirilməsinə görə təşəkkür edən nazir iki qurum arasında prioritet sahələr üzrə gələcək ikitərəfli əməkdaşlıq perspektivlərinin müəyyən olunması məqsədilə müzakirələrin aparılmasının vacibliyini vurğulayıb.

Nüvə təhlükəsizliyi məsələlərinə toxunan nazir K.Heydərov Ermənistanda köhnə texnologiya ilə fəaliyyət göstərən və ciddi texniki problemlərinin olduğu "Metsamor" Atom-Elektrik Stansiyasının bütün region üçün yaratdığı böyük nüvə təhlükəsi barədə danışıb.

Həmçinin nazir fevralın 6-da Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən qardaş ölkəyə göndərilmiş FHN-in çevik xilasetmə qüvvələrinin fəaliyyəti barədə ətraflı məlumat verib, əldə edilmiş təcrübələri bölüşüb. Səmimi görüşə görə təşəkkür edən briqada generalı Edvard Voqan iki ölkənin uyğun qurumları arasında fövqəladə hallarla mübarizə üzrə əlaqələrin inkişaf etdirilməsinin qarşılıqlı faydalı olduğunu vurğulayıb. Bu çərçivədə qonaq ABŞ-nin Təhlükənin Azaldılması üzrə Müdafiə Agentliyi ilə Azərbaycan Fövqəladə Hallar Nazirliyi arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsi perspektivləri barədə fikirlərini bölüşüb.

Qonaq Türkiyədə baş vermiş dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılması ilə əlaqədar Azərbaycan Fövqəladə Hallar Nazirliyinin əldə etdiyi təcrübələri bölüşdüyünə görə nazir Kəmaləddin Heydərova təşəkkür edib. Bundan əlavə, E.Voqan dənizdə neft dağılmaları ilə mübarizə üzrə uyğun qurumlar arasında əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər geniş müzakirə olunub.

# Azərbaycan öz resurslarına güvənir

## İlham Əliyev Almaniyanın tanınmış böyük şirkətlərini birgə tərəfdaşlığa, əməkdaşlığa çağırdı

*Əvvəli 1-ci səh.*

### Son 20 il Azərbaycanda əsasən enerji sektoru sayəsində sürətli iqtisadi artım illəri olub

Öncə Azərbaycanın müstəqillik illərində sürətli yüksəlişi barədə məlumat verən dövlət başçısı vurğulayıb ki, məhz ölkəmizin iqtisadi cəhətdən inkişafı öz resurslarına güvənmək imkanını yaradıb.

Hökumətin əsas hədəfi ilk növbədə ölkənin iqtisadi müstəqilliyinin formalaşdırılması olub və həyata keçirilən müstəqil siyasət, aparılan islahatlar, reallaşdırılan qlobal layihələr Azərbaycanın iqtisadi müstəqilliyini təmin edib. Son iyirmi il əsasən enerji sektoru sayəsində sürətli iqtisadi artım illəri olub. İndi isə hədəf iqtisadiyyatın daha çox şaxələndirilməsi üzərində işləməkdir. Çünki ÜDM-in tərkibinə gəldikdə, ÜDM-in əksər hissəsi qeyri-enerji sektorunun payına düşür, lakin ölkə hələ də əsasən neft və qazı ixrac edir.

"Biz artıq Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və bir neçə başqa beynəlxalq maliyyə institutları ilə ilkin məsləhətləşmələrə başlamışıq. Lakin infrastruktur layihələri, yol tikintisi, dəmir yolu və sair üçün borc aldığımız əvvəlki illərdən fərqli olaraq, indi öz şirkətlərimizin və sənaye sektorumuzun imkanları artdığından, bizim artıq bunun üçün vəsaitə ehtiyacımız yoxdur", - deyən Prezident vurğulayıb ki, bu yaxınlarda qəbul edilmiş 2030-cu il strategiyasına əsasən ölkəmizin qarşısında duran strateji hədəflər üçün borc alınacaq və bu strategiyanın həyata keçirilməsi üçün toplanacaq minimal məbləğ 40-50 milyard dollar olacaq. Başqa sözlə, Azərbaycan texnoloji keçidlə əlaqəli məsələlərlə bağlı borc almağa davam edəcək, eyni zamanda gələcək iqtisadi planları əsas etibarilə öz ehtiyatlarına əsaslanaraq quracaq.

### Avropanın ehtiyacı səbəbindən Azərbaycan imkanlarını genişləndirməyi planlaşdırır

Ümumiyyətlə, həyata keçirdiyi tam müstəqil siyasətlə Azərbaycanı yeni inkişaf mərhələsinə çıxaran Prezident İlham Əliyevin qlobal təşəbbüsləri, enerji layihələri, əlbəttə ki, ölkəmizin beynəlxalq miqyasda nüfuzunu, siyasi çəkisini artırıb. Hazırda dünyanın geosiyasi və geoiqtisadi gündəminin əsas mövzularından birini təşkil edən Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın əsas rol oynaması bunu təsdiq edir.

Bu gün Azərbaycan, həqiqətən də, Avropanın enerji təminatında açar rolunu oynayan dövlətlərdən biri kimi qəbul olunur. Bu, ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunmaqdadır. Bu prosesi dəyərləndirən Prezident İlham Əliyev mərasimdə diqqətə çatdırıb ki, artıq Avropanın bəzi ölkələri Azərbaycandan elektrik enerjisi və təbii qaz almağa başlayıb. Lakin Avropada yeni mənbələrdən təbii qaza olan tələbatın artması ilə əlaqədar hazırda Azərbaycan kəmər imkanlarını genişləndirməyi planlaşdırır. Xüsusilə 16 milyard kubmetr tutumu olan TANAP-ı 32 milyard kubmetrədək, 10 milyard kubmetr tutumu olan TAP-ı isə 20 milyard kubmetrədək genişləndirməyi nəzərdə tutur. Yəni bu əsasən Avropadan tələbatın artması ilə əlaqədardır.

Onu da vurğulayaq ki, bu ehtiyac Rusiya-Ukrayna müharibəsi başlayandan sonra yaranıb. İlham Əliyev də bildirib ki, məhz bu savaş başlayandan sonra qaz təchizatı və ya mövcud qaz təchizatının artırılması ilə bağlı Azərbaycana 10-dan çox Avropa ölkəsindən müraciət olunub. Hər zaman etibarlı tərəfdaş olan Azərbaycan da tərəfdaşlarının ehtiyaclarını qarşılamaq üçün hər şeyi edir.

### Azərbaycanın ən perspektivli planları - Böyük qayıdış və "yaşıl enerji" ixracı...

Azərbaycanın sahib olduğu enerjinin ixracının daha da şaxələnməsi və həcminin artması üçün nəqliyyat infrastrukturu və dəniz ticarət limanının imkanlarının genişlənməsi əsas şərtlərdən biridir. Həmçinin Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycanın enerji sektoruna tələbatın artması da əsas hədəfi hər iki sahədəki imkanların genişləndirilməsinə yönəldib.

Bunu təsdiqləyəcək təkcə iki fakt yetərli ola bilər. Rusiya-Ukrayna müharibəsindən sonra, məsələn, Azərbaycanın ötən il tranzit yüklərində 75 faizdən çox artım olub və hətta yükaşırma imkanı 15 milyon ton olan dəniz ticarət limanında müəyyən tıxac yaranıb.

Prezident ümidvar olduğunu bildirib ki, Almaniya şirkətləri bu prosesdə Azərbaycanın tərəfdaşları olacaqlar: "Bir sözlə, biz çox ürəkdən çalışırıq və əlavə maliyyə vəsaitlərini ayırırıq ki, dəniz limanımızın və dəmir yolu infrastrukturunun imkanlarının artırılması baş tutsun. Əlbəttə ki, bütün bunlar icra olunmalıdır. Təbii ki, ümidvarıq Almaniya şirkətləri bu sahədə bizim tərəfdaşlarımız olacaqlar".

Prezident həmçinin Azərbaycanın əsas perspektiv planlarını da açıqlayaraq qeyd edib ki, bu təxminən 30 il ərzində işğal altında olmuş Qarabağ və Şərqi Zəngəzurun azad edilmiş torpaqlarında yenidənqurma işləri və hər iki iqtisadi rayonun "yaşıl enerji" imkanlarından yararlanmaqdır.

Artıq, demək olar ki, ölkəmizdə "Böyük qayıdış" proqramına start verilib və ilk sınaq layihəsinə uyğun olaraq cəmi il-yarım ərzində 400-dən artıq məcburi köçkün öz doğma yerlərinə qayıdaraq məskunlaşıb. Bu dövlət planına uyğun olaraq yüz minlərlə keçmiş məcburi köçkün öz yurd-yuvalarına qayıtmalıdır: "Bir sözlə, bu böyük proqramdır və onun icrası böyük vəsaitlər tələb edəcək. Biz tamamilə yeni, müasir standartlar əsasında layihəni icra etməyi planlaşdırırıq".

İlham Əliyev həmçinin Qarabağ və Şərqi Zəngəzur bölgələrinin artıq "yaşıl enerji" zonası elan edildiyini də vurğulayaraq investorların diqqətinə çatdırıb ki, orada yalnız bərpaolunan enerji mənbələrindən istifadə ediləcək. Bu mənbələr nəinki həmin yerlərdə insanların və sənayenin tələbatını ödəyəcək, o cümlədən ölkənin qalan hissəsinə də xidmət edəcək. Ona görə də Azərbaycan hazırda bu prosesə xarici sərmayədarları cəlb etməkdədir. Eyni zamanda həmin enerji həcmlərini ixrac etmək məqsədilə lazımi ötürmə imkanları da yaradılır.

Azərbaycanın bərpaolunan enerji potensialı hələ bununla yekunlaşmır. Prezident bildirib ki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə yanaşı, Naxçıvanı da "yaşıl enerji" zonasına çevirmək planları mövcuddur. Naxçıvanda su-elektrik stansiyasının tikintisi üçün böyük potensial mövcuddur. Bu yaxınlarda orada ekspertizanın da aparıldığını bildirən Prezident deyib ki, yaxın vaxtlarda 500 meqavatlıq günəş-elektrik enerjisi stansiyasının tikintisi ilə bağlı bəzi addımlar atıla bilər.

Prezident həmçinin ötən ilin dekabrında Buxarestdə ölkəmizdən Avropaya "yaşıl enerji"nin ötürülməsi üçün Qara dənizin dibi ilə kabelin çəkilməsi üçün Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan saziş barədə də məlumat verərək bildirdi ki, bu layihə "Cənub qaz dəhlizi"ndən fərqlənəcək. Çünki orada Cənub Qafqaz Boru Kəməri, TANAP və TAP var. Bu, Xəzər dənizində külək enerjisi stansiyalarından başlayan və Avropa istehlakçılarına xidmət edən vahid layihə olacaq. Qara dənizin dibi ilə ötürmənin birinci mərhələsində 4 qiqavatlıq güc nəzərdə tutulur.

İlham Əliyev əminliklə vurğulayıb ki, Azərbaycan mövcud resursları ilə, həqiqətən də, Avropa üçün vacib "yaşıl enerji" təchizatçısına çevriləcək. Azərbaycanda olan "yaşıl enerji" tezliklə bu gün təbii qaz qədər əhəmiyyətə malik olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Aqrarkredit" QSC Naxçıvan Muxtar Respublikasında sahibkarlara kredit xidmətinin əhatə dairəsini genişləndirir

Dövlət başçısının müəyyən etdiyi iqtisadiyyatın regional şaxələnməsi strategiyasına uyğun olaraq, Azərbaycanın regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında əlverişli biznes və investisiya mühiti yaradılmışdır.



Bunun nəticəsidir ki, ölkədə olduğu kimi muxtar respublikada da sosial-iqtisadi islahatların əhatə dairəsi genişlənmiş, ərzaq və enerji təhlükəsizliyi təmin edilmiş, yerli istehsalın həcmi artmışdır. Digər tərəfdən, kənd təsərrüfatına dövlət dəstəyi aqrar sahədə sahibkarlığın inkişafına geniş imkanlar açmışdır. Torpaq mülkiyyətçilərinə və fermerlərə güzəştli kreditlərin və subsidiyaların verilməsi, lizinq xidmətinin təşkili, texnika və avadanlıqlarla təminat özəl mülkiyyətə əsaslanan təsərrüfatların sayını artırmışdır. Hazırda muxtar respublikada aqrar sahədə məhsul istehsalının əsas hissəsi özəl mülkiyyətə əsaslanır.

Naxçıvan Muxtar Respublikasında 1 yanvar 2023-cü il tarixinə 1188 müəssisə (hüquqi şəxs), 35.9 mindən artıq fərdi sahibkar fəaliyyət göstərir. Bunlardan təxminən 10 faizi aqrar sferada, qalanları isə iqtisadiyyatın digər sahələrində çalışırlar.

"Aqrarkredit" QSC-nin Naxçıvan Muxtar Respublikasının bütün rayonlarına xidmət edən regional filialı fəaliyyət göstərir. Naxçıvan filialının kredit portfeli 1 yanvar 2023-cü il tarixə 2.6 milyon manat olmuşdur. Hazırda filial 400-dən artıq sahibkar borcalana xidmət göstərir.

Sahibkarlığın inkişafı maliyyə xidmətlərinin genişləndirilməsini, xüsusi olaraq maliyyə-kredit resurslarının əlçatanlığının yaxşılaşdırılmasını zəruri edir.

Ölkənin aqrar sahəsinin kreditləşməsində yüksək təcrübəyə malik olan "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı ("Aqrarkredit" QSC) tərəfindən 2023-cü il martın 14-də Naxçıvan filialında mətbuat nümayəndələrinin iştirakı ilə sahibkarlarla görüş keçirilmiş, muxtar respublikada fəaliyyət göstərən sahibkarlara kreditlər verilmişdir.

Naxçıvan Muxtar Respublikasının kənd yerlərində mikro, kiçik və orta sahibkarların (məhsul istehsalçılarının) kreditə olan tələbatının ödənilməsini, sahibkarların maliyyə xidmətlərinə əlçatanlığının artırılmasını, "Aqrarkredit" QSC-nin bazar payının artırılmasını təmin etmək üçün bu istiqamətdə "Aqrarkredit" QSC-nin 14 fevral 2023-cü il tarixli qərarı ilə kredit təşkilatının Naxçıvan filialı tərəfindən sahibkarlıq subyektlərinə, fiziki və hüquqi şəxslərə, ailə kəndli təsərrüfatlarına göstərilən kredit xidmətlərinə görə tətbiq olunan faiz dərəcələri xeyli aşağı salınmış və kreditlərə güzəşt müddətləri artırılmışdır.

Həmin qərarla "Aqrarkredit" QSC-nin öz vəsaiti hesabına kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı məhsullarının tədarükü, ticarət, xidmət və digər sahələrə əlverişli şərtlərlə, eyni zamanda Aqrar Kredit və İnkişaf Agentliyinin və Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına güzəştli şərtlərlə kreditlərin verilməsi qərara alınmışdır.

Martın 14-də tədbirin keçirilməsində də məqsəd həmin kreditlərin əlverişli şərtlərlə sahibkarlıq subyektlərinə verilməsi, eyni zamanda bu barədə ictimaiyyətin məlumatlandırılmasından ibarət olmuşdur. "Aqrarkredit" QSC-nin Naxçıvan regional filialında aqrar sferada fəaliyyət göstərən sahibkarlıq subyektlərinə əlverişli şərtlərlə 60 min manatdan çox kreditlər verildi.

Ümumilikdə ilin əvvəlindən "Aqrarkredit" QSC-nin Naxçıvan regional filialı tərəfindən 85 müştəriyə 800 min manatdan artıq güzəştli şərtlərlə kreditlərin verilməsi həyata keçirilmişdir. Verilmiş kreditlərin 70 faizindən çoxu aqrar sferada çalışan sahibkarların payına düşmüşdür.

Muxtar Respublikada kredit xidmətinin coğrafiyasının daha da genişləndirilməsi üçün regional nümayəndələrin işə cəlb olunması planlaşdırılır. Hazırda Naxçıvan filialının əhatə dairəsi daha çox Naxçıvan şəhərini, Şərur və Babək rayonlarını əhatə edir. Yeni strateji dövrdə muxtar respublikanın bütün rayonlarını əhatə etməklə kredit xidmətinin əhatə dairəsi genişləndiriləcək.

Qeyd olunanlarla yanaşı, "Aqrarkredit" QSC tərəfindən aqrar sahədə fəaliyyət göstərən sahibkarlara maliyyə xidmətlərinin əhatəsini genişləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu ilə əməkdaşlıq nəzərdə tutulur. Bununla bağlı müvafiq müqavilələr imzalandıqdan sonra muxtar respublikada aqrar sahədə fəaliyyət göstərən sahibkarlara, həmin fondun vəsaitlərindən istifadə etməklə güzəştli şərtlərlə kreditlərin verilməsinə başlanılacaq.

***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ



# Almaniyanın aparıcı şirkətləri Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlıdır

**Berlində Prezident İlham Əliyevin Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşü xüsusi əhəmiyyət kəsb edir və indiyədək keçirilən bu tipli tədbirlərdən məzmun və formatına, qaldırılan məsələlərin geniş spektrinə görə tam fərqlənir.**

Əvvəlcə onu qeyd edək ki, tədbirdə Almaniyada biznesin müxtəlif sektorlarını təmsil edən 30 şirkətin nümayəndələri ilə bərabər Federativ Hökumətin, İqtisadiyyat və İqlim Müdafiəsi Nazirliyinin təmsilçiləri də iştirak edirdi. Müzakirələrin maksimum faydalı olması üçün şirkətlər təşkilatçılar tərəfindən 5 klaster üzrə qruplaşdırılmışdı. Birinci enerji, sonra logistika və infrastruktur, üçüncü sənaye, dördüncü kənd təsərrüfatı və beşinci maliyyə, texniki qaydalar və assosiasiyalar üzrə klaster idi.

Tədbirin təşkilində özünü ilk büruzə verən alman dəqiqliyi oldu. Belə ki, hər bir çıxışçıya çox qısa, cəmi 2-3 dəqiqəlik vaxt verilmişdi. Çünki hər bir klasterin sonunda Azərbaycan Prezidenti deyilənlərə və verilən təkliflərə öz ətraflı münasibətini bildirəcəkdi.

Görüşün əvvəlindəki çıxışında Prezident İlham Əliyev diqqətə çatdırdı ki, Azərbaycanın inkişafı bizə öz resurslarımıza güvənmək imkanını verib və ölkəmiz iqtisadi cəhətdən tam müstəqildir: "Son 20 ildə iqtisadiyyatımız üç dəfədən çox artıb. Düşünürəm ki, bu, dünya rekordu hesab oluna bilər. Eyni zamanda birbaşa xarici borcun azalması strategiyasına əsaslanaraq, biz xarici borcumuzu azaltmışıq və 2023-cü il yanvarın 1-nə olan məlumata görə, bu, ÜDM-in 10 faizindən aşağı olub. Faktiki olaraq, bu, mənim bir neçə il bundan əvvəl hökumətin qarşısında qoyduğum hədəf idi. İndi hədəfə nail olunduğundan biz borclanma strategiyamıza yenidən başlayırıq. Biz artıq Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və bir neçə başqa beynəlxalq maliyyə institutları ilə ilkin məsləhətləşmələrə başlamışıq. Lakin infrastruktur layihələri, yol tikintisi, dəmir yolu və sair üçün borc aldığımız əvvəlki illərdən fərqli olaraq, indi öz şirkətlərimizin və sənaye sektorumuzun imkanları artdığından, bizim artıq bunun üçün vəsaitə ehtiyacımız yoxdur".

Prezident çıxışında qaz ixracı və bu sahədə imkanların genişləndirilməsi, Rusiya-Ukrayna müharibəsinin yaratdığı çətinliklər, nəqliyyat və logistika, neft və qaz gəlirlərinin nəqliyyat infrastrukturuna yönəldilməsi mövzusuna toxunmuşdur. Perspektiv planlarla bağlı dəniz limanının və dəmir yolu infrastrukturunun imkanlarının artırılmasının zəruriliyindən danışmış, Almaniya şirkətləri ilə əməkdaşlığın vacibliyini qeyd etmişdir: "Əsas perspektiv planlarımıza gəldikdə, əlbəttə ki, təxminən 30 il ərzində işğal altında olmuş Qarabağ və Şərqi Zəngəzurun azad edilmiş torpaqlarında yenidənqurma işləri nəzərdə tutulur. Hazırda Livanın ərazisi qədər sahə tamamilə yerləyeksan edilib. Beləliklə, biz Böyük qayıdış adlanan dövlət proqramına artıq start vermişik. Biz proqramı tərtib etmişik və ilk sınaq layihəsini artıq həyata keçirmişik. Müharibə bitdikdən sonra cəmi ilyarım ərzində 400-dən artıq məcburi köçkün öz yerlərinə qayıdaraq məskunlaşıb. Planımızda yüz minlərlə keçmiş məcburi köçkünü öz yurdyuvalarına qaytarmaqdır, çünki erməni işğalı nəticəsində bir milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür".

Birinci klasterdə enerji sahəsini təmsil edən "Siemens Energy", "Uniper", "S.E.T.", "Notus Energy" şirkətlərinin nümayəndələri çıxış etdilər. "Siemens Energy"nin təmsilçisi Kristian Vays çıxışında məlumat verdi ki, şirkətin 90 ölkədə 19 min əməkdaşı var. Bu şirkət respublikamızda xeyli vaxtdır ki, çalışır və quraşdırılmış enerji güc avadanlıqlarına xidmət göstərir. Perspektivdə isə Azərbaycanda istehsal olunmuş elektrik enerjisinin ötürülməsinə imkanlar yaratmaq niyyətindədir. Ən vacibi isə odur ki, şirkət bp kimi tərəfdaşı ilə birgə Səngəçalda elektrikləşdirmə layihəsinin icrası ilə bağlı öhdəliyi öz üzərinə götürməyə və dəstək verməyə hazırdır. "Siemens Energy" Azərbaycanın növbəti inkişafını təmin etmək məqsədilə Prezident İlham Əliyevin göstərişləri və planına uyğun birbaşa və ya dolayı yolla karbohidrogenlərin havaya atılmasının qarşısını almaq üçün tam müasir konsepsiyanı tərtib etmək işinə də cəlb olunub. Şirkət üç sahədə Azərbaycana töhfə verə biləcəyinə əmindir.

"Uniper" şirkətinin təmsilçisi Peter Hohaus çıxışında bildirdi ki, Azərbaycanda istehlakçılar üçün təchizatın təhlükəsizliyi və enerji sisteminin dekarbonlaşdırılması istiqamətində işləyir, SOCAR ilə 2006-cı ildən etibarən tərəfdaşdır. "Uniper" Azərbaycanda tam inteqrasiya edilmiş ilk istilik enerji stansiyasının tikintisini başa çatdırıb və SOCAR-la birgə işçi qrupu yaradaraq "yaşıl hidrogen"in potensialını araşdıracaq. Bu şirkət Çilov adasında artıq kiçik külək enerjisi stansiyasını istismara verib və qarşıdakı illərdə əməkdaşlığı dərinləşdirməkdə maraqlıdır.

"SCT Energy" şirkəti enerji, xüsusən də neft və qaz sahəsində 40 ildən artıqdır ki, fəaliyyət göstərir. Şirkətin təmsilçisi Dohna York çıxışında şirkətin atdığı ilk addımlardan birinin Azərbaycanla bağlı olduğunu diqqətə çatdırdı və hələ 90-cı illərdən SOCAR-la münasibətlərinin qorunub saxlanıldığını bildirdi.

Potsdamda yerləşən "Lotus Energy" şirkətinin təmsilçisi Matthias Pallutt bərpaolunan enerji sahəsində əsasən külək və günəş enerjisi layihələri tərtib edən şirkət kimi 20 ildən artıqdır Almaniyada və digər ölkələrdə fəaliyyət göstərir. Azərbaycanın nəhəng sərvətləri onu əməkdaşlığa cəlb edir, lakin bəzi məqamların müzakirəsi vacibdir.

Prezident birinci klasterə yekun vurarkən bir çox məsələlərin praktiki əhəmiyyət daşıdığını qeyd etdi. Dövlətimizin başçısı həm də perspektivlərdən geniş danışdı, Azərbaycanın həqiqətən də Avropa üçün vacib "yaşıl enerji" təchizatçısına çevriləcəyini bildirdi. Enerji təhlükəsizliyi üzrə Avropadan olan ölkələr və şirkətlərlə mövcud əməkdaşlığımızın, Avropa Komissiyası tərəfindən planlarımızın tamamilə dəstəklənməsini vurğuladı.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni rezident qeydə alınıb

**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni rezident - "Holcim (Azərbaycan)" ASC qeydiyyata alınıb.**

Yeni rezident tərəfindən Sənaye Parkının 5 hektar ərazisində əmtəə beton və quru yapışdırıcı istehsalını həyata keçirəcək zavod inşa olunacaq, eləcə də sement satışı üzrə terminal təşkil ediləcək.

İnvestisiya dəyəri 3,4 milyon manat olan müəssisədə 20 nəfərdən çox insanın daimi işlə təmin olunması planlaşdırılır. İstehsal ediləcək məhsulların daxili bazarda satışı nəzərdə tutulur.

Xatıladaq ki, indiyə qədər Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 3 sahibkarlıq subyekti rezident, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyatdan keçib.

# DSMF Londonda "Mükəmməllik Sertifikatı, 2023-cü il Qalibi" oldu

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu (DSMF) növbəti beynəlxalq mükafatla təltif edilib.**

Fond mənzil-qərargahı London şəhərində (Böyük Britaniya) yerləşən "iESE - The Public Sector Transformation Partner" beynəlxalq qurumunun təşkil etdiyi "Dövlət sektorunda transformasiyaya görə beynəlxalq mükafat" müsabiqəsində qalib gələrək "Mükəmməllik Sertifikatı, 2023-cü il Qalibi" mükafatına layiq görülüb. DSMF bu müsabiqədə bir müsabiqə işi ilə iştirak edirdi.




Mükafatla yanaşı, dövlət xidmətlərinin göstərilməsi sahəsində mütərəqqi innovativ həll üsullarını ehtiva edən uğurlu müsabiqə işinə görə fonda beynəlxalq təşkilat tərəfindən aprel ayında təşkil ediləcək və xarici iştirakçıların qatılacağı tədbirdə təqdimatla çıxış etmək imkanı yaradılıb.

Qeyd edək ki, ötən il də DSMF "2022-ci ilin Beynəlxalq Dövlət Qurumu" (Böyük Britaniya) ali mükafatı, Beynəlxalq Sosial Təminat Assosiasiyasının mükafatı və 2 Mükəmməllik Sertifikatı, Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının mükafatı ilə təltif olunub.

# "AzərŞəkər" MMC ilə ADAU arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanmışdır

**Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) ilə "AzərŞəkər" MMC arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.**



Bununla bağlı universitetdə keçirilən görüşdə çıxış edən universitetin rektoru vəzifəsini icra edən Zəfər Qurbanov ADAU-nun kənd təsərrüfatı mütəxəssislərinin yetişdirilməsi üçün yerli və xarici şirkətlərlə əməkdaşlığa verdiyi önəmdən danışıb. Universitetin kadr potensialı, beynəlxalq əlaqələri və təcrübə imkanlarından danışan Z.Qurbanov qarşıda duran perspektivlərdən də söz açıb.

"AzərŞəkər" MMC-nin kənd təsərrüfatı üzrə direktoru Seymur Səfərli təqdimatla çıxış edərək bildirib ki, 2017-ci ildə təsis edilmiş "AzərŞəkər" MMC ölkəmizin ayrı-ayrı rayonlarında əkin sahələrinə yatırım etməklə müxtəlif növ kənd təsərrüfatı məhsullarının istehsalına başlayıb. Şirkətin hədəfi dünyada mövcud olan qabaqcıl texnologiyanı uğurla tətbiq edərək, yüksək effektivli idarəetməyə malik aqroholdinq kimi fəaliyyət göstərməkdir". Görüşdə həmçinin tələbələrin təcrübə, birgə elmi-tədqiqat işlərinin aparılması və s. məsələlər ətrafında müzakirələr aparılıb.

Sonda "AzərŞəkər" MMC və Azərbaycan Dövlət Aqrar Universiteti arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Özünüməşğulluq özünəgüvənliyi artırır

## Təkcə son iki ayda 46,5 mindən çox şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub

Məlumdur ki, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin önəmli istiqamətlərindən biri də əhalinin məşğulluğunun təmin edilməsidir. O səbəbdən müxtəlif layihələr icra olunur və bu zaman həm cəmiyyətin bütün kateqoriyalarından olan insanların mənafeyi nəzərə alınır, həm də şəffaflığa xüsusi diqqət yetirilir.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən cari ilin yanvar-fevral aylarında 46 533 şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlardan 7228-i münasib işlərlə təmin olunub, 914-ü isə kiçik ailə təsərrüfatlarını yaratmaq üçün özünüməşğulluq proqramına cəlb edilib. Eyni zamanda agentlik tərəfindən 1304 işsiz şəxs üçün peşə hazırlığı kursları təşkil olunub, 37087 şəxsə peşəyönümü xidmətləri göstərilib. Bunlardan əlavə, ƏƏSMN və Dünya Bankının birgə icra etdiyi "Məşğulluğa dəstək layihəsi"nə 7533 işsiz şəxs cəlb edilib. Onlardan 5400-ə yaxın şəxsə aktivlər verilib. Bu hesaba onlar istehsal və xidmət sahələri üzrə kiçik bizneslərini yaradıblar. Onu da qeyd edək ki, cari ilin ötən 2 ayı ərzində proqrama daha 1000-ə yaxın şəxs cəlb olunub.

Xatırladaq ki, layihə iştirakçıları üçün əvvəlcə təlimlər təşkil edilir. Təlimlərin sonunda keçirilən qiymətləndirmə prosesində biznes planlarını müdafiə edən şəxslər fərdi bizneslərini qurmaq üçün avadanlıqlarla təmin olunurlar. Layihənin məqsədinə gəldikdə, bu, işsiz kimi qeydiyyata alınmış əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və digər həssas qruplara aid şəxslərin özünüməşğulluq üzrə kiçik biznesə çıxışına imkan yaradılmasıdır. Layihə üzrə əlavə olaraq 22 min işsiz şəxsin kiçik biznesə çıxışına imkan yaradılması nəzərdə tutulub.

Yenə də rəqəmlərə nəzər salaq: özünüməşğulluq proqramı üzrə ötən il 4 minədək qadın üçün kiçik biznes sahələri yaradılıb. Qadınları xüsusi vurğulamağımız təsadüfi deyil. Çünki ölkəmizdə həyata keçirilən dövlət məşğulluq siyasətinin prioritetlərindən biri də qadınların əmək bazarında iştirak və məşğulluq imkanlarının artırılmasıdır. Bu istiqamətdə işlərin davamı olaraq, ƏƏSMN-in tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 2022-ci ildə 16,3 min qadın münasib işlə təmin olunub, 2,4 min qadın üçün peşə hazırlığı kursları təşkil edilib. Ötən il həmçinin əməkhaqqının birgə maliyyələşməsi proqramına cəlb olunanlardan 317-si, ictimai işlər proqramına cəlb olunanlardan 3151-i də qadınlar olub. Ümumilikdə isə hazırda haqqı ödənilən ictimai işlər proqramında 16 minədək qadın çalışır.

Amma əlilliyi olanlar da xüsusi diqqətdən kənarda qalmır. Hazırda ƏƏSMN və BMT-nin İnkişaf Proqramının birgə layihəsi üzrə əlilliyi olan 500 nəfər üçün kiçik bizneslər qurulur. Buraya əlilliyi olan qadınlar da daxildir. Ümumiyyətlə, son illər nazirliyin BMT-nin Əhali Fondu və BMT-nin İnkişaf Proqramı ilə birgə layihəsi çərçivəsində bir sıra bölgələrdə əlilliyi olan qadınların məşğulluq imkanlarının artırılmasına dəstək verilib. Eləcə də ötən il Dövlət Məşğulluq Agentliyi ilə Azərbaycana Birgə Yardım Təşkilatının (UAFA) müştərək layihəsi üzrə 16 bölgədə 50-dək qadına icma əsaslı məktəbəqədər təhsil xidmətləri üzrə kiçik biznesə başlamaları üçün avadanlıqlar verilib. Ümumilikdə son illər sosial tərəfdaşlarla birgə qadınların əmək bazarına, kiçik biznesə çıxışının dəstəklənməsi üçün çoxsaylı layihələr icra olunub.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Tikinti assosiasiyaları ilə ictimai müzakirə keçirilib

**İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın tikinti assosiasiyaları ilə görüşündə bu sahəni təmsil edən ictimai birliklərin təqdimatları keçirilib, dövlət-özəl əməkdaşlığına dair müzakirələr aparılıb.**

Tədbirdə iştirak edən İctimai Şuranın sədri Ədalət Muradov qurumun İqtisadiyyat Nazirliyinin fəaliyyətində ictimai iştirakçılığın təmin edilməsi prosesinə dəstək verdiyini, müxtəlif mövzular üzrə təşkil olunan müzakirələrin dövlət-sahibkar dialoquna töhfə verməklə, bu sahədə əhəmiyyətli platformaya çevrildiyini vurğulayıb.

Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının sədri Elxan Bəşirov isə tikinti materiallarının istehsalı sektorunun inkişafı, bu sahədə fəaliyyət göstərən sahibkarların qarşılaşdıqları məsələlər və onların həllində dövlət-özəl əməkdaşlığına dair fikirlərini bölüşüb.

Qarşılıqlı müzakirələr şəraitində keçən görüşdə tikinti sektorunu təmsil edən ictimai birliklərin təqdimatları olub, dövlət orqanlarının fəaliyyətində vətəndaş cəmiyyəti institutlarının iştirakı, ictimai məsləhətləşmələr və ictimai rəyin nəzərə alınmasının əhəmiyyəti vurğulanıb. Görüşdə İctimai Şura üzvləri ilə əməkdaşlıq istiqamətlərinə dair fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib, suallar cavablandırılıb.

## Müasir Azərbaycan hərbçisinin gözündən heç nə yayınmır və istənilən təxribat cavabsız qalmır



# Təxribatların cavabı layiqincə verilir

44 günlük Vətən müharibəsində darmadağın edilən Hayastan kapitulyasiya aktına, üçtərəfli Bəyanata imza atmağa məcbur edildi. Bəyanata əsasən, öhdəliklər boynuna götürən İrəvan quldur dəstələrini Azərbaycan ərazilərindən çıxarmalı, kommunikasiyaların açılmasını təmin etməli idi.

### Hayastan sülhə qarşıdır

Lakin öhdəliklərini yerinə yetirməkdən boyun qaçıran məğlub ölkə sülh prosesinə qarşı çıxır, regionda vəziyyəti gərginləşdirməyə cəhd edir. Xəbardarlıqdan nəticə çıxarmayan ermənilər cinayətlərini davam etdirir, atəşkəsi pozur, ərazilərimizdəki təbii sərvətlərin daşınmasına cəhdlər göstərir, həmçinin havadarlarından dəstək alaraq Xankəndiyə silah-sursat daşıyırlar.

Hayastan belə təxribat xarakterli əməlləri ilə Azərbaycanla münasibətlərin normallaşmasına, Cənubi Qafqazda sülhün bərqərar olmasına əngəllər törədir. Digər tərəfdən, İrəvan rəsmiləri sərsəm bəyanatlar verir, sözləri ilə əməllərinin bir olmadığını göstərirlər.

Ermənilər öz havadarlarına, xüsusilə də islam dini pərdəsinə bürünən terror mahiyyətli İrana və Azərbaycana qarşı qarayaxma kampaniyalarının əsas iştirakçısı və təşkilatçısı olan Fransaya arxalanmaqla yenidən səhvlərə yol verir. "Onlar müstəqil ölkə olmaq şansını itiriblər. Onlar tamamilə asılı olan, digər ölkənin və hazırda, ola bilsin, digər ölkələrin müstəmləkəsinə çevriliblər. Beləliklə, onlar bizə qarşı təcavüz səbəbindən, həqiqətən müstəqil olmaq, öz gələcəyini qurmaq şansını əldən buraxıblar", - deyə X Qlobal Bakı Formunda çıxışı zamanı Prezident İlham Əliyev deyib.

Daim humanizm prinsiplərinə sadiqliyi ilə seçilən Azərbaycan dövlətinin mövqeyini ifadə edən dövlətimizin başçısı əlavə edib: "Beləliklə, hazırda onlar üçün öz qonşuları ilə qonşu kimi davranmaq şansı yaranıb. Bir sözlə, biz sülh istəyirik. Biz hər hansı digər müharibəni istəmirik. Hesab edirik ki, sülhə nail olmaq olar".

### Azərbaycanın səbri tükənməz deyil

Düşmənin davamlı şəkildə törətdiyi təxribatlar bir daha göstərir ki, onlar öz revanşist əməllərindən əl çəkmək istəmirlər. Son vaxtlar düşmən mövqelərimizi atəşə tutaraq bölgədə süni gərginlik yaratmağa cəhd edir. Mart ayından etibarən Azərbaycan Ordusunun mövqeləri erməni separatçıları tərəfindən mütəmadi olaraq atəşə tutulur. Martın 15-də də ordumuz Hayastanın eyni təxribatı ilə üzləşib. Basarkeçər rayonunun Əzizli və Qaraiman istiqamətlərindən ordumuzun Kəlbəcər rayonunun Yuxarı Ayrım və Daşkəsən rayonunun Astaf yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqeləri müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutulub. Bu təxribatlara qarşı ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Azərbaycan işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işləri apardığı halda Hayastanın əməlləri sülh prosesinə hər vəchlə mane olmaq cəhdindən, riyakarlığından, vəziyyəti gərginləşdirmək niyyətindən xəbər verir. Təxribatlarla ordumuzu cavab atəşi açmağa təhrik etməsi isə onun şərti sərhəddə fəaliyyət göstərən Avropa İttifaqının nümayəndələrində yanlış rəy formalaşdırmaq cəhdidir.

Dövlətimizin səbrinin tükənməz olmadığını, gücünü və qüdrətini Hayastan 44 günlük müharibə zamanı görüb. İkinci Qarabağ savaşında düşmənin silahlı qüvvələrinin 80 faizi sıradan çıxarılıb, "dəmir yumruğ"un zərbəsi altında məhvə məhkum edilib. Odur ki, Hayastan unutmamalıdır ki, reallığı dərk və qəbul etməzsə, ordumuz yenə də hərbi yolla təxribatların kökünü kəsəcək. Azərbaycan Ordusu Ermənistanın siyasi rəhbərliyinin və revanşist qüvvələrinin törətdikləri təxribatların cavabını artıqlaması ilə verib və lazım gəlsə, yenə də verəcək. Ötən ilin avqust və sentyabr döyüşləri bunu təsdiq edir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# N.Paşinyanın Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar bölgədə sülh prosesinə növbəti zərbədir

Ermənistanın baş naziri Nikol Paşinyanın mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi tamamilə əsassız və tarixi faktları kobudcasına təhrif edən iddiaları bölgədə sülhün bərqərar edilməsi prosesinə növbəti zərbədir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş naziri Nikol Paşinyanın martın 14-də keçirdiyi mətbuat konfransı zamanı səsləndirdiyi əsassız iddialarla bağlı yerli medianın sualına cavabında deyib.

Ayxan Hacızadə bildirib ki, baş nazir N.Paşinyanın bu günədək müxtəlif beynəlxalq platformalarda verdiyi vədlərdən və üzərinə götürdüyü öhdəliklərdən boyun qaçıraraq həyata keçirdiyi anti-Azərbaycan kampaniyası, o cümlədən sülh sazişi üzrə danışıqları və beynəlxalq vasitəçilərin səylərini heçə endirən ritorikası Ermənistan üçün heç bir xeyirli gələcək vəd etmir.

Ermənistan baş nazirinin azərbaycanlıların indiki Ermənistan ərazisindəki torpaqlarından zor gücünə qovulması faktını inkar etməsi, Ermənistanın sistemli və məqsədyönlü şəkildə onilliklər ərzində həyata keçirdiyi etnik təmizləmə siyasətinə bəraət qazandırması niyyətindən xəbər verir.

"Ermənistan ərazisində yaşayan dinc azərbaycanlıların fiziki məhvi, onlara qarşı qanlı qırğınlar törədilməsi, hədə-qorxu vasitəsilə əhalinin zorla köçürülməsi tarixi bir faktdır. Ermənistan tərəfinin təxribatçı iddialarına baxmayaraq, indiki Ermənistan ərazisində azərbaycanlı əhaliyə qarşı zorakılığın və deportasiyanın miqyasına dair tam təsəvvürə malik olmaq üçün baş nazirin bölgədə azərbaycanlı və erməni əhalinin nisbətində hansı dəyişikliklər baş verdiyi ilə tanış olması kifayətdir. Yaxşı məlumdur ki, vaxtilə Ermənistanın indiki ərazisində faiz nisbətində say çoxluğuna malik olan azərbaycanlılardan heç bir əsər-əlamət qoyulmayıb, bu fəaliyyət mütəşəkkil və məqsədyönlü siyasətin tərkib hissəsi olub", - deyə XİN-in sözçüsü vurğulayıb.

Onun sözlərinə görə, Ermənistan rəhbərliyinin azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri qayıtması hüququnu təkzib etməsi, yüz minlərlə azərbaycanlının daxil olduğu Qərbi Azərbaycan İcmasının Ermənistan rəhbərliyini bu istiqamətdə dialoqa çağırışına qarşı çıxması, bu hüquqların tələbinin "ərazi iddiası" kimi təqdim edilməsi Ermənistanın "insan hüquqları"na heç bir dəyər verməyən və "etnik təmizləmə əsasında monoetnik dövlət titulu"nu qorumaq üzrə məkrli siyasətinin bir göstəricisidir.

"Ermənistan baş nazirinin növbəti dəfə erməni sakinlərlə dialoq məsələsinə müdaxilə etməyə çalışması, Azərbaycanın Qarabağ bölgəsi üzərində beynəlxalq səviyyədə tanınmış suverenliyinə və ərazi bütövlüyünə qarşı təxribat dolu bəyanatlar səsləndirməsi, "Qarabağın xalqı və hökuməti" kimi ifadələr işlətməsi qəbuledilməzdir.

Erməniəsilli sakinlərin reinteqrasiyası üzrə müzakirənin Azərbaycanın daxili işi olduğu və kənar dövlətlərin bu məsələdə heç bir rolunun olmadığı barədə mövqeyimizə Ermənistanın məhəl qoymaması, onun "xalqların öz müqəddəratlarını təyin etməsi" prinsipi pərdəsi altında 1990-cı illərin əvvəllərində ölkəmizə qarşı başlatdığı təcavüz siyasətindən əl çəkmədiyindən xəbər verir. Ermənistan baş naziri anlamalıdır ki, Qarabağ bölgəsinin erməni sakinlərinin hüquqları bölgənin azərbaycanlı əhalisinin hüquqlarından heç zaman üstün ola bilməz və Azərbaycan, ərazisində yaşayan müxtəlif etnik xalqlara münasibətdə yalnız bərabər yanaşma tətbiq edir və edəcək.

İndiyə qədər heç bir razılaşmaya və öhdəliyinə riayət etməyən Ermənistanın Azərbaycanı xəyali razılıqları inkar etməkdə təqsirləndirməsi, Azərbaycanın sərhədyanı bölgələrdə vəziyyəti gərginləşdirəcəyini iddia etməsi yalnız və yalnız Ermənistanın öz mümkün hərbi təxribatlarını ört-basdır etməyə yönəlmiş bir addımdır.

Sülh sazişinin mətnində Azərbaycana qarşı ərazi iddialarını istisna edən müddəalara hər vəchlə qarşı çıxması, gələcək pozuntulara saziş mətni hazırlanan müddətdə belə rəvac yaratması, bu qeyri-konstruktiv yanaşmaları gizlətməklə "beynəlxalq mexanizmlər", "beynəlxalq zəmanət institutu" kimi ideyalarla çıxış etməsi Ermənistanın sülh sazişində maraqlı olmadığının göstəricisidir.

Bununla yanaşı, sonuncu dəfə ötən ilin dekabr ayında sülh sazişi üzrə danışıqlardan imtina edən Ermənistan tərəfinin Avropa İttifaqının vasitəçilik səylərinə müxtəlif bəhanələrlə qarşı çıxması, onun 30 ilə yaxın müddətdə işğal dövründə danışıqlara maneələr yaradılması təcrübəsindən əl çəkmədiyini nümayiş etdirir.

Ermənistan baş nazirinin yalnız Ermənistanın təkliflərinin qeyd olunduğu və Azərbaycanın təkliflərinin nəzərə alınmadığı layihəni imzalanmağa hazır olduğunu brifinq zamanı bəyan etməsi isə onun sülh prosesinə laqeyd yanaşmasının növbəti sübutudur və hesab edirik ki, Ermənistanın bu destruktiv fəaliyyətləri beynəlxalq ictimaiyyət tərəfindən qınanmalı və onların qarşısı alınmalıdır", - deyə Ayxan Hacızadə bildirib.

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Ekoaksiya iştirakçıları: Tələblər yerinə yetiriləcək!

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan haqlı etiraz aksiyası 95 gündür davam edir.




AZƏRTAC xəbər verir ki, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. İştirakçılar səhər saatlarında Azərbaycanın Dövlət himnini səsləndiriblər.

Qeyd edək ki, aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirirlər. Aksiya iştirakçıları tələbləri yerinə yetirilməyənədək etirazlarını davam etdirəcəklərini bildirirlər.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

# Sülhməramlıların avtomobil karvanı Xankəndiyə maneəsiz keçib

Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidə maneəsiz hərəkət edir.

AZƏRTAC xəbər verir ki, Laçından Xankəndi istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus 13 təminat-təchizat və iki minik avtomobili aksiya ərazisindən maneəsiz keçib.

Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Ermənistan mətbuatında yayılan və etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

# Hayastanda ordu hərraca çıxarılıb

## Məğlub ölkədə hərbi hissənin ərazisi özəlləşdirilib

Hayastanda cinayət hadisələrinin sayında əhəmiyyətli dərəcədə artım baş verib ki, bu da sözügedən ölkənin ümumilikdə kriminal məkana çevrilməkdə olduğunu göstərir.

Ölkənin bölgələrində də cinayətkarlıq səviyyəsi əsas etibarı ilə mülkiyyət oğurluğu, özgənin əmlakını qanunsuz yolla mənimsəmə və bu qəbildən olan qanunazidd əməllər hesabına çoxalmaqdadır. Məhz bu da iqtisadi problemlərin Hayastan üçün daha bir fəsad yaratdığını, yəni ölkənin kriminogen durumunu xeyli ağırlaşdırdığını göstərir.

Elə bu günlərdə Hayastan Baş Prokurorluğu Geqarkunik rayonunun Berdkunk kəndində hərbi hissənin binalarının və ərazisinin qanunsuz olaraq özgəninkiləşdirilməsi faktı ilə bağlı cinayət işi açıb. Ümumi sahəsi 20 min kvadratmetrdən çox olan böyük daşınmaz əmlak 2012-ci ildə Rusiya vətəndaşının xeyrinə pulsuz istifadə üçün özgəninkiləşdirilib. Həmin vaxt əməliyyatın leqallaşdırılması üçün əsasnamədə daşınmaz əmlakın statusunda dəyişikliklər edilib. Prosesdə Müdafiə Nazirliyinin keçmiş baş qərargah rəisi, Berdkunk icmasının keçmiş rəhbəri və digər rəsmi şəxslər iştirak edib. Kadastr sənədlərində əməliyyatı həyata keçirmək üçün "hərbi təyinatlı" işarəsi "xüsusi təyinatlı" olaraq dəyişdirilib.

Bu məqsədlə 2013-cü ilin əvvəllərində Berdkunk icmasının Ağsaqqallar Şurasının qərarı ilə torpaq sahəsinin statusu yenidən dəyişdirilib. Yerli hökumət hərbi hissənin binasını istirahət zonasına çevirib. 2022-ci ilin dekabrında torpaq sahəsi və tikililər nəhayət ki, G.V-nin mülkiyyətinə keçib. Ötən ilin sonunda o, torpaq sahəsini Kipr vətəndaşına 158 milyon drama (405 min dollar) satıb.

Göründüyü kimi, qarşıdakı dövr ərzində Hayastanda sosial-iqtisadi vəziyyətin daha da pisləşməsi gözlənir ki, bu fonda cinayət hallarının miqyasının da əhəmiyyətli dərəcədə genişlənməsi istisna olunmur. Hayastanda, ilk növbədə mülkiyyətlə bağlı cinayətlərin sayı daha da artacaq və belə cinayətlərə maddi vəziyyəti ağır olan xeyli sayda insanın cəlb olunma ehtimalının kifayət qədər böyük olacağı da erməni sosioloqları tərəfindən istisna edilmir. Bütün bunların fonunda kriminallaşan erməni cəmiyyətinin məhvi prosesinin daha da tezləşməsi isə qaçılmazdır.

Ölkədə real durumu şərh edərkən xüsusi olaraq vurğulanır ki, əhalinin maddi rifah halının daha sürətlə pisləşməyə başlaması, yaranmış ağır vəziyyətdən xilas üçün hökumətin konkret nəticələr verə biləcək planlarının olmaması, korrupsiya və rüşvətxorluğun miqyasının əhəmiyyətli dərəcədə artması və bu qəbildən olan digər məsələlər əhalinin Nikol Paşinyan iqtidarından yaranan narazılığını həqiqətən də təhlükəli həddə çatdırır. Bu vəziyyət isə qeyd edildiyi kimi, Hayastanda hər an sosial partlayışların olacağını şərtləndirən əsas amillərdən biri qismində çıxış edir.

Hadisələrin sözügedən səpkidə inkişafına görə əsas məsuliyyət daşıyan tərəf kimi Nikol Paşinyan hakimiyyəti və onun yarıtmaz siyasəti göstərilir. Hayastanın "İravnuk" qəzeti yazır ki, müharibədən sonra ölkənin üzləşdiyi çoxsaylı problemlər burulğanından xilas edilməsi əvəzinə, hakimiyyət təmsilçiləri əvvəlki kimi şəxsi mənafelərini güdməklə məşğuldurlar. Nəticə isə ondan ibarətdir ki, korrupsiya və rüşvətxorluğun miqyası durmadan genişlənir, bu da öz növbəsində iqtisadi tənəzzül prosesini daha da sürətləndirir. Bildirilir ki, korrupsiya və rüşvətin gömrük və vergi orqanlarında getgedə daha dərin kök salması Hayastan üçün çox təhlükə yaradır. Çünki bu hal həm dövlət büdcəsinin boş qalmasına, həm də Hayastan kimi idxaldan asılı olan bir dövlətdə inflyasiyanın davamlı artımına səbəb olur.

Görünən odur ki, Hayastanda daxili siyasi vəziyyət daha da mürəkkəbləşməyə doğru gedir. Bütün bunlar Hayastanı kifayət qədər narahat günlərin gözlədiyindən, ölkənin üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# Ən ədalətsiz ölkə

## Fransa illərdir dünyada həyata keçirdiyi repressiv və istismarçı siyasətini artıq öz vətəndaşlarına da tətbiq edir

**Bəzi Avropa ölkələrinin Azərbaycana qarşı ikili standartlar çərçivəsində siyasət yürütdüklərinin, ədalətsiz mövqe sərgilədiklərinin zaman-zaman şahidi oluruq. Xüsusən 44 günlük Vətən müharibəsindəki şanlı zəfərimizdən sonra ölkəmizə qarşı belə qərəzli münasibətlər intensiv xarakter alıb.**

Bunun nəticəsidir ki, anti-Azərbaycan mövqeyi ilə seçilən dövlətlərin üzv və ya həmsədr olduqları təşkilatlar da beynəlxalq hüquq prinsiplərinə zidd davranışlar sərgiləyir, tutduqları ədalətsiz mövqedə otuz il ərzində ərazi bütövlüyümüzün təmin olunmamasına, bir milyondan çox azərbaycanlının öz doğma torpaqlarından didərgin düşərək qaçqın və məcburi köçkün kimi yaşamalarına, xalqımıza qarşı ermənilər tərəfindən törədilən soyqırımlarına göz yumublar.

### Beynəlxalq hüquq pozucusu

Təbii ki, erməni lobbisinin təsirinə məruz qalan, işğalçı Hayastanın olmayan haqlarını tələb edən Fransa kimi üzvlərdən ibarət olan təşkilatlardan başqa nəsə gözləmək də qeyri-mümkündür. BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvlərindən birinin, Avropa Parlamentində irəlidə gedənlərdən, həmçinin ötən otuz ildə heç bir fəaliyyət göstərməyən ATƏT-in Minsk qrupunun həmsədrlərindən birinin Fransa olması, əslində, hər şeyi ortaya qoyur.

Vətən müharibəsindəki məğlubiyyətdən sonra kapitulyasiya aktını imzalayan Hayastan da dara düşən kimi Fransaya sığınmağı adət edib. Onlar ermənipərəst ölkə üzərindən arzularını reallaşdırmaq, hədəflərinə çatmaq istəyirlər. Fransa isə bu "sevgi"nin qarşısında acizdir, Hayastanı başsız qoymağa "ürəyi imkan vermir". Dəfələrlə erməni lobbisinin təzyiqi altında Fransa Senatı guya ermənilərin "pozulmuş" hüquqlarının müdafiəsi üçün Azərbaycan əleyhinə ədalətsiz və əsassız qətnamələr qəbul edib.

Rəsmi Paris dekabr ayında Laçın - Xankəndi yolunda ekofəallarımız tərəfindən başladılan aksiyaya da başqa don geydirməkdən çəkinməyib. Hər kəsə bəllidir ki, uzun illər ərzində erməni işğalı altında qalan ərazilərimiz viran qoyulub, həmçinin təbii sərvətlərimiz qeyri-qanuni şəkildə istismar edilərək başqa ölkələrə daşınıb. İndi isə öz ərazimizdə yerləşən təbii yataqlarımızda monitorinqə icazə verilməməsi haqlı olaraq, vətəndaş cəmiyyəti üzvlərinin, ekofəalların etirazına gətirib çıxarıb. Eyni zamanda Laçın-Xankəndi yolundan humanitar məqsədli istifadəsi nəzərdə tutulsa da, müharibədən sonra da bu yoldan hərbi məqsədlər üçün silah-sursatın daşındığı müəyyənləşib. Həmçinin Ermənistan tərəfindən Azərbaycana qarşı mina terroru davam etdirilib.

Bütün bunları görmək istəməyən, daha doğrusu, Azərbaycana çatanda kor olan Fransa, haylara gələndə, guya haqqı, ədaləti, azadlığı müdafiə edir. Heç bir əsas olmadan Laçın-Xankəndi yolunun blokadada olduğunu iddia edir.

Ümumiyyətlə isə, müharibədən sonrakı dövrdə Avropa Parlamentinin Azərbaycana qarşı, beynəlxalq hüquqazidd qətnamələri Avropanın dünyaya aşıladığı humanizm prinsiplərinə uyğun gəlmir. Bunu Fransa nümunəsində daha aydın görmək olar. Ermənilərə dəstək olan, hətta keçmiş "Dağlıq Qarabağın" statusunu qəbul edən Fransa özünü belə humanist sayırsa, hayların üstünlük təşkil etdiyi ölkəsində onlara xüsusi yer ayırsın və onlara muxtariyyət versin. Başqalarının işinə qarışan Fransa, əslində, öz ölkəsində yaşayan etnik azlıqlarla bağlı ədalətə dayanan mövqe ortaya qoymur. Ona görə də, tolerantlıqdan uzaq ölkədən Azərbaycana qarşı qərəzsiz mövqe gözləmək mümkün deyil.

### Bir millətin məhvinə çalışan ölkə

Bir neçə gün əvvəl Fransa ərazisi hesab edilən Korsika adasında məhkəmə qərarı ilə korsikan dilinə qadağa qoyuldu. Qərara əsasən, ada sakinlərinin ana dilinin Korsika Assambleyasının debatlarında istifadə edilməsi qeyri-konstitusion hesab edilib.

Qərar yerli sakinlərin, həmçinin bir çox beynəlxalq statuslu rəsmi şəxslərin etirazına səbəb olub. Məsələn, BMT-nin azlıqlar üzrə xüsusi məruzəçisi Fernan de Varenn bildirib ki, Korsikada yalnız fransızcanın istifadəsinə icazə ayrı-seçkilikdir və beynəlxalq hüququn pozulmasıdır. O qeyd edib ki, ingiliscə dövlət universitetlərində istifadə olunduğu halda korsikan dilinə qadağa qoyulub.

Bəli, humanizmdən, beynəlxalq hüquqdan dəm vuran Fransanın beynəlxalq hüququ necə kobud şəkildə pozduğu açıq-aydın göz qabağındadır. Bir xalqın, millətin dilinə qoyulan qadağa o milləti məhv etməkdir. Bir millətin məhvinin tərəfdarı olan ölkədən isə riyakarlıqdan, ədalətsizlikdən başqa nəsə gözləmək mümkündürmü?

Qloballaşan dünyada müxtəlif millətlərin, fərqli dinlərə mənsub etniklərin bir arada yaşaması halları genişlənir. Fransa isə belə bir zamanda milli azlıqlara qarşı ayrı-seçkilik nümayiş etdirir. Onların haqlarını tapdalayır.

İtalyan dili ilə oxşarlığı olan Korsikan dili həmin adadakı 150 min sakinin ana dilidir və bu dil UNESCO tərəfindən ölmək təhlükəsi ilə üzləşmiş dil kimi təsnif edilir. Bütün bunlara baxmayaraq, Fransa bir xalqın dəyərlərini məhv etmək üçün dövlət səviyyəsində qərarlar verir. Bununla da korsikalıların hüquqlarını kobudcasına pozur, haqlarını əlindən alır. Uzun illər ərzində azərbaycanlıların hüquqlarının, ölkəmizin beynəlxalq hüquq çərçivəsində tanınan ərazisində ədalətin pozulduğunu göz ardına alan BMT tərəfindən qəbul olunmuş 4 qətnamənin otuz ildə ancaq sənəd kimi qalmasına dəstək verən, humanizm pərdəsi arxasında riyakar siyasət yürüdən Parisin hansısa qanuna əsaslanan addımını görmək təəccüblü olardı.

Bu elə Fransa siyasətidir: riyakar, ədalətsiz, qərəzli, əsassız, beynəlxalq hüquqazidd, ayrı-seçkilik, islamofob...

Bu siyasətin ən bariz nümunəsini isə Hayastan timsalında görmək mümkündür. İşğalçı, barbar dövləti dəstəkləmək elə həmin ölkənin öz daxili və xarici siyasətindən də xəbər vermirmi?

Sonradan gəlib başqasının olan torpaqları özününküləşdirməyi, mənimsəməyi, bu azmış kimi həmin əraziləri dağıdıb, məhv etməsini görməyən Parisin siyasətinin ana xəttini də beynəlxalq hüquq normalarının kobudcasına pozulması təşkil edir.

Təsadüfi deyil ki, sözünün üstündə durmayan, gəlinən razılıqların arxasından iş çevirən, birtərəf Parisin Azərbaycan və Ermənistan münasibətlərinin normallaşması prosesində iştirak etmədiyini Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransında qeyd etmişdi. "...Minsk qrupunun 28 il ərzində heç bir nəticəyə nail ola bilməyən keçmiş həmsədrləri vəziyyətə hələ ki nisbətən təsir edə bilirlər. Bu səbəbdən biz ABŞ, Rusiya və indi də Aİ tərəfindən təşkil olunmuş platformada bir araya gəlmişik. Lakin Fransa hökuməti birtərəfli ermənipərəst mövqe tutduğundan o, bu platformada artıq iştirak etmir. Aydındır ki, vasitəçi olan tərəf tuta və bunu nümayiş etdirə bilməz", - deyə dövlət başçımız bildirmişdi.

Təbii ki, Azərbaycana qarşı qərəzli münasibət sərgiləyən, riyakar siyasət yürüdən, ölkəmiz əleyhinə əsassız qətnamələrin qəbulunda xüsusi canfəşanlıq göstərən, eyni zamanda Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin səylərinin əksinə olaraq iki ölkə arasında münasibətlərin normallaşmasına, sülh müqaviləsinin imzalanmasına cəhd etməyən Fransa bu istiqamətdə heç bir töhfə verə bilməz.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sülh gündəliyini Azərbaycanın qətiyyətli rəhbəri müəyyən edir

## Hayastanın bunu qəbul etməkdən başqa yolu yoxdur

Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfəri çərçivəsində bu ölkənin Prezidenti Frank-Valter Ştaynmayer, eləcə də Kansleri Olaf Şolts ilə apardığı əsas müzakirə mövzularından biri də Cənubi Qafqazda təhlükəsizlik məsələləri, həmçinin Azərbaycan və Hayastan arasında sülh danışıqları ilə bağlı oldu.

Hər zaman müxtəlif mötəbər tribunalardan səsləndirdiyi kimi, dövlət başçısı İlham Əliyev Frank-Valter Ştaynmayerlə görüşündə də bir daha bəyan etdi ki, beş prinsipi özündə əhatə edən sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüs məhz Azərbaycan tərəfindən irəli sürülüb və iki ölkə arasında sülh müqaviləsi bu prinsiplər əsasında imzalana bilər.

### Üçtərəfli Bəyanata zidd davranış

Azərbaycan Vətən müharibəsində Hayastanı məğlub edərək torpaqlarının 30 illik işğalına son qoyub, 28 il əvvəl BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməsini icra edib. Döyüş meydanının qalib tərəfi olan ölkəmiz eyni zamanda yüksək humanizm nümayiş etdirərək düşməninə sülh təklif edib. Zəfərdən sonrakı dövr ərzində iki ölkə arasında normallaşmaya, bölgədə davamlı sülhə nail olunması üçün mühüm təşəbbüslərlə çıxış edib.

2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar bəyanatlarından sonra Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin 2021-ci ilin 26 noyabrında Soçi Bəyanatını imzalayıblar.

Eləcə də Avropa İttifaqının vasitəçiliyi ilə 2021-ci ilin dekabrından başlayan "Brüssel prosesi" sayəsində üçtərəfli bəyanatlarda nəzərdə tutulan məsələlərin real müstəvidə həlli ilə bağlı əhəmiyyətli irəliləyişlərə nail olunub. Bu prosesdə Azərbaycan daim reallıqlara əsaslanan və regionda təhlükəsizliyin, əməkdaşlığın, rifahın təmin edilməsinə yönəlik təşəbbüslər irəli sürüb.

Lakin 2022-ci ilin 7 dekabrında keçiriləcək və sülh bağlaması istiqamətində irəliləyişlərin əldə olunması ilə bağlı mühüm gözləntilərin olduğu növbəti Brüssel görüşü Paşinyanın bilərəkdən etdiyi barışığa xələl gətirən tələbi ilə baş tutmadı. Ötən ilin payızında Soçidə keçirilən görüşdə də üzdə sülhə razı olduğunu göstərən Paşinyan əməldə bunun əksini nümayiş etdirdi.

Ümumiyyətlə, Vətən müharibəsinin üzərindən ötən iki il yarım müddət ərzində Azərbaycandan fərqli olaraq Hayastan 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən yayınır. Bəyanata zidd olaraq erməni silahlı qüvvələrinin qalıqları hələ də Azərbaycan ərazilərindən çıxarılmayıb, eləcə də bölgədə bütün nəqliyyat-kommunikasiya yollarının açılmasına maneçilik törədilir. Bəyanatın 6-cı bəndinə zidd olaraq Hayastan Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə edib.

Ermənilərin törətdikləri hərbi cinayətlər Azərbaycan-Hayastan arasında sərhəd nəzarət-buraxılış rejiminin tətbiq edilməsinin vacibliyini gündəmə gətirib.

### Razılaşma əldə etmək üçün yaxşı şans var

Yuxarıda sadalanan bütün bu faktlar göstərir ki, Hayastan bölgədə gərginliyin artmasında və barışığın əngəllənməsində maraqlıdır. Lakin Hayastan özü də yaxşı bilir ki, Azərbaycanın irəli sürdüyü təkmil sülh modelini imzalamaqdan başqa çıxış yolu yoxdur.

Prezident İlham Əliyev Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü zamanı bildirdi ki, razılaşma əldə etmək üçün yaxşı şans var, xüsusən də ötən ilin oktyabrında Soçidəki görüşlərdən sonra Ermənistanın və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdığı bir zamanda.

"Bu sazişi gec-tez imzalamaq yaxşı fikirdir", - deyə bildirən dövlətimizin başçısı onu da əlavə etdi ki, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanma prosesini, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin missiyasını, Brüssel sülh gündəliyini dəstəkləyir.

Sülh gündəliyi ilə bağlı ölkəmizin mövqeyi iki yanaşmadan ibarətdir. Azərbaycanla Hayastan arasında sülh müqaviləsinin imzalanması və Azərbaycanın Qarabağın erməni sakinləri ilə dialoqun həyata keçirilməsi. Artıq rəsmi Bakı tərəfindən bu istiqamətdə ilkin uğurlu addımlar da atılıb. Xatırladaq ki, martın əvvəlində Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qərargahında Qarabağda yaşayan erməni sakinlərin təmsilçiləri ilə birinci görüş baş tutub. Görüş zamanı Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin Azərbaycan Respublikasına reinteqrasiyasına dair ilkin müzakirələr aparılıb.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Qarabağın erməni ictimaiyyətinin nümayəndələrini reinteqrasiya ilə bağlı təmasların davam etdirilməsi, habelə Qarabağda infrastruktur layihələrinin reallaşdırılması məsələlərinin müzakirəsi üçün ikinci görüşə dəvət edib. Görüşün yaxın günlərdə Bakı şəhərində keçirilməsi təklif olunur.

### Sülhün zamanı çatıb

Martın 14-də Prezident İlham Əliyev və Almaniya Kansleri Olaf Şolts arasında da görüş olub və ölkəmizin rəhbəri Ermənistan-Azərbaycan normallaşma prosesi ilə bağlı Almaniya kanslerinə Azərbaycanın mövqeyini bildirib.

Eləcə də O.Şoltsla birgə keçirilən mətbuat konfransı zamanı dövlət başçısı İlham Əliyev bölgədə yaşanan reallıqlar barədə məlumat verib, indi bölgədə sülhün zamanının çatdığını söyləyib: "Ümid edirəm ki, Ermənistan bu şansı qaçırmayacaq, nəhayət Cənubi Qafqazda sülh və əməkdaşlıq dövrü başlayacaqdır".

Göründüyü kimi, Cənubi Qafqazda sülh, təhlükəsizlik, rifah və əməkdaşlığın yeganə qarantı Azərbaycandır. Ölkəmiz regionda hərbin gücü ilə nail olduğu ədaləti sülh yolu ilə daha da möhkəmləndirəcək, bölgədə qalıcı barışı təmin edəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İslamofobiya müsəlmanlara qarşı düşmənçiliyin təzahürüdür

Son illər dünyada diqqəti çəkən məsələlərdən biri də islamofobiyaya meyillərin artmasıdır. Beynəlxalq təşkilatlar çağırışlar etsələr də, islamofobiya ilə mübarizəyə dair bir sıra qətnamələr qəbul olunsa da, problemlə əlaqəli ziddiyyətli proseslər baş verməkdədir. Müxtəlif adlarla, bəhanələrlə pərdələməyə çalışılsa da, bunlar islama və müsəlmanlara qarşı düşmənçiliyin, nifrətin təzahürüdür.

İslam dininin terrorizmlə eyniləşdirilməsi, yaxud cəmiyyətə müqayisəli şəkildə təqdim edilməsi yalan, iftira olduğu qədər də zərərli və təhlükəlidir.

Xatırladaq ki, 15 Mart İslamofobiya ilə Mübarizə Günüdür. İlk dəfə 2020-ci il noyabrın 27-28-də İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Niger Respublikasının Niamey şəhərindəki toplantısında bu əlamətdar gün elan olunub. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 2022-ci ildə 15 mart tarixini İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü kimi qəbul edib.

Dünən respublikamızın paytaxtında Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 15 mart tarixini İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü kimi elan etməsinin bir illiyi ilə əlaqədar Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və G20 Dinlərarası Dialoq Forumunun birgə təşkilatçılığı ilə "İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: Yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfrans işinə başlayıb.

Dünyanın 30-dan çox ölkəsindən tanınmış ekspert və mütəxəssislərin qatıldığı konfrans beynəlxalq və milli səviyyədə müsəlmanları və əhalisinin əksəriyyəti müsəlman olan ölkələri hədəf alan həyəcanverici tendensiyaları müzakirə etmək üçün akademik platforma yaratmaq məqsədilə düzənlənib. Xüsusilə konfransda islamofobiya ilə mübarizədə kəsişən yanaşma, bəzi Avropa ölkələrində islamofobiyanın təzahürləri, dünya mediasında islamofobiya mövzuları müzakirəyə çıxarılıb.

İki gün davam edən konfrans "İslamofobiya və yeni perspektivlərlə mübarizədə kəsişən yanaşmanın əhəmiyyəti", "İslamofobiya: Avropa və milli qanunvericilik", "Fransada islamofobiya" və digər mövzuları əhatə edir.

Konfransın açılış mərasimində BMT Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosun tədbir iştirakçılarına videomüraciəti nümayiş olunub. Migel Anxel Moratinos videomüraciətində qeyd edib ki, islamafobiya termin kimi istifadə olunur: "Təəssüflə qeyd etmək istəyirəm ki, bu irqçiliyin ifadəsidir. Dünyada islama sülh dini kimi baxılır. Təkallahlılıq dini kimi bu məfhumlar qorunmalıdır. İslamofobiyanın Qərb dünyasında, dünyanın müxtəlif ölkələrində yayılması müsəlmanlara qarşı nifrət deyil, fobiyadır, qorxudur". Migel Anxel Moratinos deyib ki, biz birlikdə islamı sülh və monoteizm dini kimi təbliğ etməklə islamofobiyaya qarşı mübarizə aparmalıyıq.



Ötən il BMT Baş Assambleyasının 15 mart tarixini İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü elan etməsinə dair qətnamənin qəbulunun birinci ildönümündə tanınmış ekspertlərin iştirakı ilə belə genişmiqyaslı beynəlxalq konfransın Bakıda keçirilməsinin böyük əhəmiyyəti var. Konfransın təşkilini şərtləndirən əsas səbəblərdən biri islamofobiyanın artması və dünyada bu istiqamətdə vəziyyətin getdikcə pisləşməsidir.

Son vaxtlar demokratik dəyərlərin daşıyıcısı adlandırılan bəzi Qərb cəmiyyətlərində islamofobiya tüğyan edir. Dəhşətlisi odur ki, İslamofobiya media tərəfindən təbliğ edilir və müxtəlif ekstremist qrupların şüarlarına daxil edilir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov deyib ki, Fransada islamofobiya təkcə cinayətlərə nifrət və ayrı-seçkiliklə məhdudlaşmır, həm də yerli müsəlmanların gündəlik həyatına təsir göstərir. Fransada bir çox müsəlman məşğulluq və əməkhaqqı məsələsində ayrı-seçkilik və ədalətsiz rəftarla üzləşir ki, bunlar da getdikcə daha çox yayılır. Xüsusilə müsəlman qadınlar hicabları və dini baxışlarına görə təhsil və iş sahəsində çətinliklərlə üzləşirlər. Bəzən bir sıra ölkələrdə demokratiyanın gücləndirilməsi adı altında qəbul edilən yeni qanunlar dini etiqad azadlığını ciddi şəkildə pozur.

İslamofobiyaya qarşı fəal mübarizənin aparılmasında təhsil, media təmsilçiliyi və inklüziv siyasi müzakirələrin xüsusi önəmi var. Bu, hökumətlərdən, vətəndaş cəmiyyətindən və fərdlərdən hamı üçün tolerantlığın, hörmətin və anlaşmanın təşviqi istiqamətində işləməyi tələb edir. Ümumiyyətlə, bu hala qarşı mübarizə gücləndirilmişdir.

Hazırda qarşıda duran çağırışlardan biri dini liderlərin bu sahəyə səfərbər edilməsidir. Düzdür, dini liderlər də çox vaxt təhdidlərlə üzləşirlər. Amma onlar bu zərərli hala qarşı mübarizədə qətiyyətli olmalıdırlar.

Avropada islamofobiya və müsəlmanlara qarşı nifrət aradan götürülməlidir. Avropada müsəlman qadınlara qarşı təzyiqlər var və buna qarşı mübarizə aparılmalıdır. İslamofobiya həm də dövlətlərin təhlükəsizliyinə, sosial həyatına ciddi zərbə vurur. Odur ki, dövlətlər ona qarşı əməli işlər görməlidir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Bakıda "İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: Yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfrans işə başlayıb

**BMT Baş Assambleyasının 15 mart tarixini İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü elan etməsinin bir illiyi münasibətilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM), Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin və G20 Dinlərarası Dialoq Forumunun birgə təşkilatçılığı ilə Bakıda "İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: Yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfrans işə başlayıb.**









AZƏRTAC xəbər verir ki, konfransın əsas məqsədi beynəlxalq və milli səviyyədə müsəlmanları və əhalisinin əksəriyyəti müsəlman olan ölkələri hədəf alan həyəcanverici tendensiyaları müzakirə etmək üçün akademik platforma yaratmaqdır. Tədbirdə islamofobiya ilə mübarizədə kəsişən yanaşma, Avropanın bəzi ölkələrində islamofobiyanın təzahürləri, dünya mediasında islamofobiya mövzularında müzakirələr aparılır.

Konfransın açılış mərasimində əvvəlcə BMT Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi **Migel Anxel Moratinosun** tədbir iştirakçılarına videomüraciəti nümayiş etdirilib.

Videomüraciətdə Migel Anxel Moratinos bildirib ki, BMT Baş Assambleyası 15 mart tarixini islamofobiya ilə Beynəlxalq Mübarizə Günü elan edib. İslamofobiyanın termin kimi istifadə olunduğunu söyləyən Migel Anxel Moratinos təəssüflə qeyd edib ki, bu irqçiliyin ifadəsidir: "Dünyada İslama sülh dini kimi baxılır. Təkallahlılıq dini kimi bu məfhumlar qorunmalıdır. İslamofobiyanın qərb dünyasında, dünyanın müxtəlif ölkələrində yayılması müsəlmanlara qarşı nifrət deyil, fobiyadır, qorxudur".

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru **Rəvan Həsənov** ötən il BMT Baş Assambleyasının 15 mart tarixini İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü elan etməsinə dair qətnamənin qəbulunun birinci ildönümündə tanınmış ekspertlərin iştirakı ilə belə genişmiqyaslı beynəlxalq konfransın Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayıb. Bildirib ki, konfransın keçirilməsini şərtləndirən əsas səbəblərdən biri islamofobiyanın artması və dünyada bu istiqamətdə vəziyyətin getdikcə pisləşməsidir: "Təbii ki, biz də hamı kimi vəziyyətdən çox narahatıq. İkincisi, Azərbaycan da İslam mədəniyyətinin və tarixinin bir parçasıdır. Dünyəvi və multikultural dövlət olmağımıza rəğmən, cəmiyyətimizin əksəriyyəti müsəlmandır. Ən vacib səbəblərdən biri isə Azərbaycanın və Bakının mədəniyyətlərarası və dinlərarası dialoqda oynadığı mühüm roldur".

Son vaxtlar demokratik dəyərlərin daşıyıcısı adlandırılan bəzi Qərb cəmiyyətlərində islamofobiyanın sürətlə yayıldığını qeyd edən R.Həsənov bildirib: "İslamofobiya media tərəfindən təbliğ edilir və müxtəlif ekstremist qrupların şüarlarına daxil edilir. Məsələn, Fransada islamofobiya təkcə cinayətlərə nifrət və ayrı-seçkiliklə məhdudlaşmır, həm də yerli müsəlmanların gündəlik həyatına təsir göstərir. Fransada bir çox müsəlman məşğulluq və əməkhaqqı məsələsində ayrı-seçkilik və ədalətsiz rəftarla üzləşir ki, bunlar da getdikcə daha çox yayılır. Xüsusilə müsəlman qadınlar hicabları və dini baxışlarına görə təhsil və iş sahəsində çətinliklərlə üzləşirlər. Bəzən bir sıra ölkələrdə demokratiyanın gücləndirilməsi adı altında qəbul edilən yeni qanunlar dini etiqad azadlığını ciddi şəkildə pozur".

İslamofobiyaya qarşı fəal mübarizənin aparılmasında təhsil, media təmsilçiliyi və inklüziv siyasi müzakirələrin önəmini qeyd edən Rəvan Həsənov bildirib ki, bu, hökumətlərdən, vətəndaş cəmiyyətindən və fərdlərdən hamı üçün tolerantlığın, hörmətin və anlaşmanın təşviqi istiqamətində işləməyi tələb edir. Bunun əksinə olaraq, İslam kimi sülhü təbliğ edən dini terrorla əlaqələndirmək və bu cür mənfi təbliğat yaymaq heç bir cəmiyyətə və dövlətə fayda verməyəcək. Əksinə, o cəmiyyətlərdə nifrət nitqini və ayrı-seçkiliyi artıracaq.

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) sabiq Baş katibi **Ekmələddin İhsanoğlu** konfransda çıxış edərək bildirib ki, İslam dini Qərb üçün yad deyil, Avropada müsəlmanların sayı milyonlarladır. Yerli müsəlmanlar əsrlər əvvəl Avropa ölkələrinə gəliblər. Müsəlmanlar Qərb cəmiyyətlərini dəyişdirməyi qarşılarına məqsəd qoymayıblar. "Elə etməliyik ki, hamı çoxmədəniyyətlilik məfhumunu qəbul etsin. Bu, çox vacibdir. Özümüzü həmişə tənqid etməyə çalışmalıyıq. Bizim ritorikamız dəqiq və düzgün olmalıdır. Münaqişələr göstərir ki, sülh çox asanlıqla dağıdıla bilər. Burada bizə qarşılıqlı etimad yaratmaq lazımdır. Müsəlmanlar da yeni sülh erası istəyirlər", - deyə Ekmələddin İhsanoğlu vurğulayıb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri **Fərid Şəfiyev** qeyd edib ki, müsəlmanlara qarşı mədəni və siyasi baxımdan qərəzli münasibət var. Bu baxımdan Ermənistan-Azərbaycan münaqişəsini xüsusi vurğulayan Fərid Şəfiyev bildirib ki, bu münaqişənin heç bir dini tərəfi olmasa da, ermənilər özlərindən dini rəvayətlər uyduraraq ölkəmizə qarşı ərazi iddiası irəli sürüblər. Azərbaycan 30 il ərzində Ermənistanın işğalçı təcavüzünə məruz qalıb. Biz tarix boyu müsəlmanların təcrid olunmasını görürük.

"İslamofobiya anlayışının həm də dövlətlərin təhlükəsizliyinə, ərazi bütövlüyünə, iqtisadiyyatına və sosial həyatına ciddi təsiri var. Məhz bu səbəbdən İslamofobiya müxtəlif kontekstlərdə ciddi nəticələr doğurur", - deyə Fərid Şəfiyev diqqətə çatdırıb.

G20 Dinlərarası Dialoq Forumunun prezidenti Kol Durham bu gün dünyada islamofobiyanın öz aktuallığını saxladığını söyləyib. İslamofobiyaya qarşı mübarizədə dialoq və müzakirələrin önəmini qeyd edən Kol Durham bu baxımdan rəhbərlik etdiyi Fondun fəaliyyətindən danışıb. Hazırda qarşıda duran çağırışlardan birinin dini liderlərin bu prosesə səfərbər edilməsi olduğunu söyləyən qonaq deyib: "Dini liderlər də çox vaxt təhdidlərlə üzləşirlər. G20 dinlər arasında sülhün bərqərar olmasına xüsusi diqqət ayırır. Biz qütbləşmiş dünyada yaşayırıq və bundan əziyyət çəkirik. Ona görə də qütbləşmənin azaldılması istiqamətində fəaliyyətimizi artırmalıyıq".

Çıxışlardan sonra islamofobiyaya dair filmin təqdimatı olub.

❖ ❖ ❖

## Plenar sessiya: İslamofobiya və yeni perspektivlərlə mübarizədə kəsişən yanaşmanın əhəmiyyəti

Konfrans çərçivəsində "İslamofobiya və yeni perspektivlərlə mübarizədə kəsişən yanaşmanın əhəmiyyəti" mövzusunda plenar sessiya keçirilib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru **Rəvan Həsənovun** moderatorluğu ilə keçirilən sessiyada çıxış edən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının rəhbəri, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil daimi insan haqları komissiyasının üzvü **Aydın Səfixanlı** konfransın məhsuldar və effektiv müzakirələr üçün mühüm platforma olduğunu vurğulayaraq deyib: "Heç kimin dini azadlığını məhdudlaşdırmaq olmaz. Bu beynəlxalq hüquqa da ziddir. İslamofobiya dedikdə İslama qarşı müəyyən ölkələrdə bəzi alçaldıcı davranışlar, müsəlmanlara qarşı təhqiredici hərəkətlər nəzərdə tutulur. Fransa, İsveç kimi ölkələr buna nümunədir. Təəssüf ki, Fransada irqçilik institutlaşdırılır və bu proses getdikcə dərinləşməkdədir. Bəzi ölkələrdə təxribat xarakterli fotoşəkillər hazırlanır, müsəlmanlar alçaldılır, "Qurani-Kərim" yandırılır. Bütün bunlar qəbuledilməzdir. İnsanların həssas olduğu dəyərlərə, inanclarına toxunmaq yolverilməzdir".

Son dövrlər islamofobiya hallarına daha çox rast gəlindiyini vurğulayan **A.Səfixanlı** xüsusilə Ermənistanın işğal dövründə Azərbaycanın tarixi-dini abidələrini məhv etməsinə diqqət çəkib. Bildirib ki, Ermənistan işğal dövründə İslam dininə aid mədəniyyət nümunələrini, məscidləri təhqir edib, dağıdıb. Ən dəhşətlisi odur ki, müsəlmanlar dini inanclarına və türk olduqlarına görə ermənilər tərəfindən soyqırımına məruz qalıblar. Dünyada mövcud olan ikili standartlar bu cür faciələrə yol açır. Ermənistan bu hərəkətləri Fransadan örnək götürüb. Fransa Əlcəzair xalqına və Afrikanın bir sıra ölkələrində müsəlmanlara qarşı qəddar soyqırımları həyata keçirib. Bu cür əməlləri həyata keçirən insanlar mütləq cəzalandırılmalıdır".

Lids Universitetində Sosiologiya və sosial siyasət məktəbinin rəhbəri **Salman Sayyid** islamofobiyanın sürətlə yayılmasının ciddi və ağır nəticələr doğurduğunu qeyd edib, bu baxımdan belə müzakirələrin önəmini vurğulayıb. "İslamofobiya gündəlik hadisələrdən soyqırımına qədər dəyişə bilər. Hicabın insanların üzərindən qəsdən çıxarılması, "Qurani-Kərim"in yandırılması və digər əməllər yayılmaqda davam edir. Müsəlman qadınlara qarşı islamofobiya hallarına daha çox rast gəlinir. Yadda saxlamaq lazımdır ki, islamofobiyanın artmasına bəzən hökumətlər də səbəb olur. Fransa, Avstriya buna nümunədir. İslamofobiya qlobal məna alıb və müxtəlif vasitələrlə həyata keçirilir. İslamofobiya İslam dini ilə bağlı deyil, müsəlmanlara qarşıdır, onların alçaldılması, diskriminasiyaya məruz qalması məqsədi güdür. İslamofobiyaya qarşı mübarizə aparmaq üçün birləşməliyik. Bu, siyasi mübarizədir".

Müsəlman İnstitutu Düşüncə Mərkəzinin sədri **Sultan Əhməd Sahibzadə** islamofobiyanın Cənubi Asiyanın bəzi ölkələrində də sürətlə artmaqda olduğunu vurğulayaraq deyib: "Müsəlmanlara qarşı qərəzli münasibət göstərilir. Milyonlarla müsəlman vətəndaşlığını buna görə itirib. Müsəlmanların bizneslərinin dağıdılması ilə bağlı məlumatlar var. Eyni zamanda, müsəlmanlara qarşı təcavüz halları da xeyli artıb. Ümumiyyətlə, dünyada İslam mədəniyyəti və müsəlmanlara qarşı müxtəlif siyasətlər həyata keçirilir".

İslam Mədəniyyəti Misir İnstitutunun rektoru **Mohamed Al Sahhat Al Cindi** hazırda dünyanın müxtəlif ölkələrində xeyli çətinliklərlə üzləşən müsəlmanlara qarşı təhqiredici hərəkətlər edildiyini deyib. Bildirib ki, İslam dini dünya dinlərinə hörmət göstərir və qarşılığını tələb edir. İslamda qadınlara yüksək ehtiram göstərilir.

İslamofobiyanın düşmənçilik yaratmaq məqsədilə ortaya atıldığını və qızışdırıldığını qeyd edən rektor bildirib: "Bəzi ölkələrdə İslam haqqında insanlara yanlış məlumat verilir, müsəlmanların hüquqları tapdalanır, onlar öldürülür. Bütün bunlar qəbuledilməzdir. İnsanlar sülh içində yaşamalıdırlar. Kimsə müsəlmanı öldürərsə, İslamı təhqir edərsə, geyimlərə qarşı olarsa bu, onlarda fikir və ifadə azadlığı sayılır. Bu, xüsusən Qərb ölkələrində baş verir. Müsəlmanlar dünya əhalisinin mühüm hissəsini təşkil edirlər. Biz istəyirik ki, hər birimiz dinc şəraitdə yaşayaq. Müsəlman olaraq dini inancımızla qürur duyuruq və bu, bizim hüququmuzdur".

Veyn Dövlət Universitetinin Yaxın Şərq, Asiya və qlobal tədqiqatların tədrisi üzrə dosenti **Saed Ahmed Xan** çıxışında müsəlmanların bir çox ölkələrdə qorxu altında yaşadıqlarını qeyd edib: "Müsəlmanlara qarşı ayrı-seçkilik hallarına şərait yaradan qanunların qəbul olunması, onların alçaldılması cəhdləri qeyri-insani addımlardır. Biz bəzi dövlətlərin bunu qəsdən daha da qızışdırdığını görürük. Dövlətin roluna gəldikdə, bu barədə onlar düşmənçilik siyasətini pərdələnmiş şəkildə həyata keçirirlər. Təəssüf ki, müsəlman təşkilatlarının fəaliyyəti media tərəfindən daha az işıqlandırılır. Müsəlmanlar islamofobiyaya qarşı birgə mübarizə aparmalıdırlar".

Bosniya və Herseqovinanın Elm və İncəsənət Akademiyasının prezidenti **Ferid Muhik** dünyanın bir çox ölkələrində müsəlmanlara qarşı açıq şəkildə zorakılığın həyata keçirildiyini qeyd edib: "İslamla bağlı bir çox ölkələr tərəfindən saxtalaşdırma cəhdləri edilir. İslamofobiya müsəlmanlara qarşı ayrı-seçkiliklə nəticələnir və bütün bunlar hazırda dövlətlər tərəfindən sui-istifadə olunmaqdadır. Ancaq unutmaq lazım deyil ki, Avropa bəzi dəyərləri İslam dinindən götürüb".

❖ ❖ ❖

## Birinci aralıq sessiyası: İslamofobiya: Avropa və milli qanunvericilik

Forum çərçivəsində keçirilən "İslamofobiya: Avropa və milli qanunvericilik" mövzusunda birinci aralıq sessiyasında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü **Esmira Cəfərova** moderatorluq edib.

İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun prezidenti **Taha Ayhan** iclasda çıxış edərək bildirib ki, islamofobiya xüsusilə Avropada geniş vüsət alıb və müsəlmanlar bununla bağlı ciddi travmalara məruz qalırlar. Avropanın bəzi ölkələrində "Qurani-Kərim"in yandırılmasının beynəlxalq ictimaiyyət tərəfindən qınandığını qeyd edən T.Ayhan deyib: "Bizim qurumun əsas məqsədi sülhə dəstək göstərməkdir. İslamofobiyanın köklü şəkildə aradan qaldırılmasını arzu edirik. İslamofobiya ilə mübarizə üçün hökumətlər bəzi qərarlar qəbul etməlidirlər. Cəmiyyətlər daxilində müzakirələr təşkil olunmalıdır. İslamofobiya insanlığa qarşı ciddi problemdir. Beynəlxalq təşkilatlar tolerantlığı təşviq etməlidir".

İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanındakı səfiri və daimi müşahidəçisi **İsmet Cahan** Avropada yayılan islamofobiya hallarının qarşısının alınması üçün ciddi həll yollarının tapılmasının vacibliyini bildirib: "İslamofobiyaya qarşı ən yüksək səviyyədə tədbirlər görülməlidir. Biz bununla bağlı müəyyən işlər görməliyik. Xüsusilə qadınlar İslam dininin buyurduğu geyimlərdə olduqda onlara qarşı alçaldıcı və zorakı hərəkətlərə daha çox rast gəlinir. Hətta onların guya "azad edilməsi" ilə bağlı çağırışlar da eşidilir. Avropalıların İslamla bağlı bilikləri artırılmalıdır. Bakıdakı konfrans yaxşı fürsətdir".

Avropa-Türk-İslam İttifaqının Prezidenti, Asiya Strateji Araşdırmalar Mərkəzinin baş direktoru **Musa Sərdar Çələbi** İslam dininin Avropaya yayılmasından, həmçinin müsəlmanların müxtəlif sahələrdə fəaliyyətindən söhbət açıb: "Avropanın bir çox ölkələrində İslam dininə qarşı nifrət artmaqda davam edir. Müsəlmanların ölkələrindən getməyini istəyirlər və bu dinlərarası problemlər yaradır. Avropaya sırf işləmək üçün gedən bəzi türklərə qarşı terror hadisələri həyata keçirildi. İslamofobiyanın olduğu ölkələrə ciddi çağırışlar, müraciətlər edilmədikcə bu hallar davam edəcək. Bununla bağlı ciddi qərarlar qəbul olunmalıdır".

Türk Alman Universitetinin Beynəlxalq əlaqələr və siyasi elm departamentinin rəhbəri **Enes Bayraklı** hazırda dünyada islamofobiyanı qlobal trendə çevrilməkdə olduğunu qeyd edib: "Bu trend hazırda təhlükəli vəziyyət almaqdadır. Bəzi qərb ölkələrində islamofobiya ilə bağlı hadisələrə göz yumulur və bununla bağlı məlumatlar qeydə alınmır. Bu konfrans İslam dinini hədəfə alan belə əməllərin qarşısının alınması ilə bağlı qərarların qəbulu baxımından çox faydalıdır. Avropada müsəlmanlara qarşı yaranmış ayrı-seçkilik milyonlarla insanın həyatına ciddi təsir göstərir. Bu istiqamətdə geniş maarifləndirmə tədbirləri həyata keçirilməlidir".

AMEA-nın Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi **Leyla Məlikova** çıxışında hazırda dünyada plüralizm probleminin yaşandığını qeyd edərək deyib: "Hazırda Fransa kimi ölkələrdə islamofobiya geniş yayılır. Bir çox ölkələrdə antimüsəlman tendensiyası bir neçə il öncə də özünü şiddətli şəkildə büruzə vermişdi. Fransız cəmiyyətində müsəlmanlar barbar olaraq təsvir edilir və nəticədə onlar zorakılığa məruz qalırlar. İslamofobiya ilə bağlı araşdırmalar nəticəsində məlum olur ki, bu proses Fransada hələ orta əsrlərdən başlayıb. Onlar İslamı müasirliyə qarşı maneə hesab edirlər. Bəzi ölkələrdə bununla bağlı konkret hadisələr yaşanıb. Fransızlar demək olar ki Əlcəzair əhalisinin üçdəbirini qətlə yetiriblər və bunu xüsusi amansızlıqla törədiblər. Onlar digər müstəmləkələrdə də qəddar siyasət həyata keçiriblər. Fransa Nigeriyada da vəhşiliklər həyata keçirib".

Sosial Dayanıqlılıq İnstitutunun nümayəndəsi **İbrahim Yerden** çıxışında Qərbi Avropada siyasətin və dövlətin islamofobiyaya təsirindən danışıb. Qeyd edib ki, islamofobiya irqçiliyin geniş yayılmış növlərindən biridir. Qərbdə baş verən hadisələri birbaşa İslam dininə aid etmək absurddur. Bu mənada Bakıda keçirilən bu konfrans İslam aləmi üçün xüsusi əhəmiyyət daşıyır.

❖ ❖ ❖

## Bakı konfransının növbəti iclasında Qərbdə müsəlmanlar haqqında konspiroloji nəzəriyyələrə dair müzakirələr aparılıb

Beynəlxalq konfransın növbəti aralıq sessiyası "Qərb mədəniyyətlərində müsəlmanlar haqqında konspiroloji nəzəriyyələr: Böyük yerdəyişmə nəzəriyyəsi" mövzusuna həsr olunub.

"Haider Global" şirkətinin baş icraçı direktoru **Saccad Kərimin** moderatorluğu ilə aparılan müzakirələrdə çıxış edən Sivilizasiyaların Mübadilə və Əməkdaşlığı Fondunun təsisçisi və prezidenti **Mohamed Başar Arafat** hazırda dünyanın müxtəlif bölgələrində ciddi münaqişələrin yaşandığını qeyd edib. O, münaqişələrin qarşısının alınması üçün ciddi səy göstərilməsinin və mühüm qərarların qəbul edilməsinin önəmini vurğulayaraq bildirib: "Müsəlmanlar islamofobiyaya qarşı uğurla mübarizə aparmaq üçün ilk növbədə, gənclərin İslamı yaxşı tanımalarına fürsətlər və şərait yaradılmalıdır. Bu məqsədlə aparıcı beyin mərkəzləri ilə səmərəli əməkdaşlıq həyata keçirilməlidir".

Notr-Dam Universitetinin İslam düşüncəsi və müsəlman cəmiyyətləri departamentinin əməkdaşı, professor **İbrahim Musa** fikirlərini tədbir iştirakçıları ilə bölüşüb. Qeyd edib ki, müsəlmanlar əvvəlcə öz aralarında müəyyən məsələlərdə razılığa gəlməlidirlər. Əks halda islamofobiya hallarının güclənməsinin qarşısını almaq mümkün olmayacaq. İslam dininin tarixindən danışan İ.Musa çıxışında digər dinlər ilə İslam arasında bənzərlik və fərqliliklərdən bəhs edib.

Corctaun Universitetinin Müsəlman-xristian anlaşması üzrə Alvaled Mərkəzinin "Körpü təşəbbüsü"nün baş tədqiqatçısı **Arsalan İftixar** bildirib ki, dünyanın bir çox yerində müsəlmanlara "ikinci dərəcəli" insanlar kimi davranılır. Bəzi ölkələrdə müsəlmanlarla bərabər yəhudilərə qarşı da ayrı-seçkilik nümayiş olunur. Məscidlərə, sinaqoqlara hücumlar törədilib. Avropalılar və digər Qərb ölkələri fikirləşirlər ki, İslam dininin nümayəndələri onların ölkələrinə köçərək gələcəkdə oranı müsəlman etmək niyyətindədir. Müsəlmanlar öz dinini qorumalı, digər dinlərin nümayəndələrinə, gənclərə və gələcək nəsillərə düzgün şəkildə çatdırmalıdırlar.

"Monitor İslamofobiya" layihəsində müstəqil tədqiqatçı **İneke van der Valk** qeyd edib ki, son illər irqçiliyin bir forması kimi müsəlmanlara qarşı da təhqiredici hərəkətlərə yol verilməsi sürətlə yayılmaqdadır. Bir çox ölkədə İslam dininə etiqad edən şəxslərə müəyyən maneələr yaradılır, onların cəmiyyətdən təcrid olunmasına cəhdlər göstərilir. İslamofobiya radikal ideologiyalardan irəli gəlir. Qərbi Avropada artıq 20 ilə yaxındır ki, İslama qarşı müəyyən kampaniyalar təşkil olunur.

Yaxın Şərq Araşdırmalar Mərkəzinin rəhbəri **Ahmet Uysal** qeyd edib ki, əksər dövlətlər müsəlman ölkələrinin inkişafını və müsəlmanların güclü olmasını istəmirlər. İslam dininin nümayəndələri kifayət qədər elmli olmalı və müasir dünyanın tələblərinə cavab verməlidirlər: "Birinci Dünya müharibəsi zamanı Qərbdə belə bir fikir formalaşmışdı ki, guya müsəlmanlar onlara qarşı soyqırımı həyata keçirmək, onları öldürmək istəyirlər. Lakin real həyatda biz hər zaman müsəlmanların zülmə məruz qalmalarının şahidi olmuşuq. Türkiyə bəzi ölkələrdə müsəlmanların mərkəzi elan olunmaqdadır. Türkiyə hazırda islamofobiyaya qarşı ciddi mübarizə aparır və dünyada İslama qarşı edilən alçaldıcı hərəkətlərə tez və sərt reaksiya verir. İslamofobiyanın qarşısının alınması üçün gənclər ətraflı maarifləndirilməli, dinə bağlılıq və sevgi hissi aşılanmalıdır".

❖ ❖ ❖

## Üçüncü aralıq sessiyası: Fransada islamofobiya

Beynəlxalq konfransın növbəti aralıq sessiyası "Fransada islamofobiya" mövzusuna həsr olunub.

Siyasi analitik, tədqiqatçı **Anastasiya Lavrinanın** moderatorluğu ilə aparılan müzakirələrdə çıxış edən Belçikanın Avropa İnkişaf və Tədqiqatlar Akademiyasının direktoru **Brahim Laituss** müsəlmanlara qarşı ayrı-seçkiliyin avropalılara da təsir etdiyini deyib. Bildirib ki, bu, Avropa üçün təhlükəsizlik baxımından çox vacib məsələdir. O, eyni zamanda qeyd edib ki, islamofobiyanın geniş vüsət almasında İslam dini ilə bağlı etibarlı məlumatların çatışmazlığının da böyük rolu vardır. Alimlər elmi tədqiqatlar zamanı İslam dini ilə bağlı axtarış apararkən müxtəlif saytlarda çoxsaylı fərqli məlumatlar ortaya çıxır. Bu da həqiqət axtarışında çətinliklər yaradır.

Politoloq və ərəbşünas, Elmi Araşdırmalar üzrə Fransa Milli Mərkəzində fəxri baş elmi işçi **Fransua Burqat** bildirib ki, Fransa artıq xristian cəmiyyəti deyil, xristianlıqdan azad edilən cəmiyyətdir. Fransada siz öz inancınıza məxsus hansısa atributla gəzsəniz, bu, qeyri-qanuni hesab olunacaq. Onun sözlərinə görə, Fransada olan islamofobiyanın digər bir səbəbi "Fransa üslublu dünyəvilik"dir.

"Fransa cəmiyyəti dövlət islamofobiyasına doğru gedir. On il əvvəl müsəlmanlarla bağlı kiçik bir mübahisə olardısa, o kriminallaşdırılardı. Artıq Fransa hökuməti hərəkətləri yox, düşüncələri kriminallaşdırır. Müsəlman vətəndaşların fikirləri kriminallaşdırılır", - deyə politoloq əlavə edib.

Tarixçi, "İslamofobiya lüğəti" kitabının müəllifi **Kamil Meziti** qeyd edib ki, Fransa son 10 il ərzində klassik irqçilikdən qanuni irqçiliyə gəlib çıxıb. Bu ölkədə Fransa Respublikası dəyərlərinə xas olmayan proseslər baş verməyə başlayıb.

Fransada müsəlmanlar üçün mühitin yaxşı olmadığını bildirən Kamil Meziti deyib: "Onlar deyir ki, müsəlmanlar Fransa cəmiyyətini zəbt edib. Müsəlmanları, eyni zamanda, potensial terrorçu kimi görür, terrorçularla eyniləşdirirlər. Terror aktları baş verdikdə müsəlmanlara işarə edilməməlidir. Nəyə görə birinci müsəlmanlar haqqında düşünülür? Biz birlikdə yaşayırıq. Hamımız birlikdə islamofobiyaya qarşı mübarizə aparmalıyıq".

*Ardı 11-ci səh.*

# Bakıda "İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: Yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfrans işə başlayıb






*Əvvəli 10-cu səh.*

Rutgers Universitetinin Hüquq Məktəbinin hüquq və sosial ədalət üzrə tədqiqatçısı **Saha Aziz** diqqətə çatdırıb ki, Fransada məktəblərdə hicaba qarşı qadağa patriarxat bir qərardır. Bu qərar yalnız həmin şəxsin seçimindən asılı olmalıdır. Bu, qadınlara qarşı çox aqressiv yanaşmadır. O deyib ki, ABŞ-da belə bir fikir var ki, müsəlman azlıqlar şəriət cəmiyyəti qurmaq istəyirlər. Amma müsəlman əhalisi çoxluq təşkil edən ölkələrdə belə şəriət cəmiyyəti yoxdur.

AMEA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşı **Rauf Məmmədov** deyib ki, bu gün dünyada İslama qarşı təzyiqlər digər dinlərlə müqayisədə daha çoxdur. Fransa müsəlman əhalisi ən çox olan Avropa ölkəsidir. Belə ki, bu ölkənin əhalisinin 9 faizi müsəlmanlardır. O bildirib ki, 2020-ci ildən Fransada 89 məscid, 650-yə yaxın ibadət yeri bağlanıb, iki imam deportasiya edilib. "Fransa hakimiyyəti 1989-cu ildən başlayaraq, müsəlman əhalisi çox olan şəhərlərdə özlərinin icmalarını yaratmağa başladılar. Bu, məhdudlaşdırma siyasətinin bir parçası idi. Fransa Prezidenti Emmanuel Makronun hakimiyyəti dövründə bu ölkədə islamofobiya daha da artıb. Müsəlmanlar polislər tərəfindən təqib edilir. Fransada bəzi elə qanunlar qəbul edilib ki, bütün insanların inancını tanıyır, amma müsəlmanlarınkını yox",- deyə R. Məmmədov bildirib.

❖ ❖ ❖

### Bakı konfransında "Korsika məsələsi və təməl insan hüquqlarının pozulması" mövzusunda ictimai müzakirə keçirilib

"İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: Yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfrans çərçivəsində "Korsika məsələsi və təməl insan hüquqlarının pozulması" mövzusunda QHT-lərin təşəbbüsü ilə ictimai müzakirə keçirilib.

"Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri **Səadət Bənənyarlının** moderatorluğu ilə keçirilən müzakirələrdə çıxış edən Milli Məclisin deputatı **Asim Mollazadə** son vaxtlar Fransada baş verənlərin təhlükəli vəziyyət yaratdığını deyib. Bildirib ki, bu, Avropa dəyərlərinin və prinsiplərinin kobud şəkildə pozulmasıdır. Belə ki, əhalisi 150 min nəfər olan əhali xalq adlanmaq hüququnu itirib.

Deputat qeyd edib ki, korsikalıların öz dillərində danışmaq hüququ var. Korsikalılar öz hüquqlarını qorumağa çalışacaqlar. Mümkün deyil ki, Avropanın mərkəzində belə bir vəziyyət olsun. "Fransa hökuməti bu məsələ olduğu halda, hansısa qondarma "artsax" məsələsi ilə məşğul olmaq istəyir. İnanıram ki, Fransa xalqı bu təhlükəli vəziyyətdən çıxış yolu tapacaq. Bu, Fransa Respublikasının azadlıq və qardaşlıq prinsiplərinin pozulmasıdır", - deyə A.Mollazadə diqqətə çatdırıb.

İctimai müzakirədə çıxış edən "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin rəhbəri **Ayaz Mirzəyev** deyib ki, Korsika dilinin qadağan edilməsi Fransanın təcavüzünün daha bir bariz göstəricisidir. Bu qərar təkcə korsikalılarda deyil, beynəlxalq hüquqa hörmət edən Avropa ictimaiyyəti arasında da haqlı etirazlara səbəb olub. Fransanın Şimali Afrika və ərəb ölkələrində tarixən törətdiyi cinayətləri yadına salmaq lazımdır. Fransa tarixi müstəmləkəçilik iddialarından ayrılmaq istəmir. Bu ölkə beynəlxalq hüquq normalarına əməl etməli, mənəvi dəyərlərə hörmətlə yanaşmalıdır.

Milli Məclisin deputatı **Məlahət İbrahimqızı** Korsika dilinin qadağan edilməsini bəşəriyyət üçün rüsvayçı hadisə kimi qiymətləndirib. Diqqətə çatdırıb ki, Fransa dünyada ən çox müstəmləkəçilik siyasəti yürüdən ölkədir. Dünyada buna son qoyulsa da, Fransa yeni müstəmləkəçilik siyasətini davam etdirir.

"Təəssüf ki, Fransa bu gün, sözün həqiqi mənasında, dini müstəmləkə siyasətinin mərkəzi kimi çıxış edir. Fransanın milli azlıqlara qarşı əsas prinsipləri pozması, bu yöndə cinayətlərin törədilməsi geniş vüsət alıb. Hesab edirəm ki, Korsika məsələsi məhz bu yöndə həyəcan təbilidir. Bütün bunların fonunda Fransa Prezidenti Emmanuel Makron Azərbaycanın suveren ərazisində qondarma bir "dövlət"in qondarma "haqlarını" müdafiə edir. Fransa ölkələrin daxili işlərinə qarışır. Fransa bu gün Qarabağda yaşayan ermənilərin də separatizmə meyl etməsi üçün dəstək verir", - Milli Məclisin deputatı bildirib.

Qoşulmama Hərəkatı Gənclər Təşkilatının sədri **Orduxan Qəhrəmanzadə** diqqətə çatdırıb ki, Fransa Korsikaya qarşı linqvistik ayrı-seçkilik siyasəti yürüdür. Tarixən Fransa korsikalıları fransız dilində danışmağa məcbur edib və onların dialektlərinin rəsmi istifadəsini qadağan edib. Korsikada yerli dildən istifadə hüququnu ləğv etməklə Fransa tərəfdar çıxdığı beynəlxalq sənədlərin tələblərini pozub. Bu sənədlər arasında 1789-cu il böyük fransız inqilabının ən mühüm sənədi olan və fərdi insan hüquqlarını müəyyən edən İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi var. Bastia Məhkəməsinin son qərarı, eləcə də Fransanın korsikalılara qarşı ayrı-seçkilik siyasəti ilk növbədə Bəyannamənin 11-ci maddəsinin pozulmasıdır.

O.Qəhrəmanzadə deyib ki, Fransa hökumətinin həyata keçirdiyi müstəmləkəçilik və assimilyasiya siyasəti beynəlxalq hüquqa hörmət edən ictimaiyyət tərəfindən daha sərt şəkildə qınanmalıdır.

Milli Məclisin deputatı **Kamal Cəfərov** Fransanın Korsikaya qarşı qeyri-insanı siyasət yürütdüyünü söyləyib. Qeyd edib ki, korsikalılar öz dilində danışmaq istəyir, lakin fransızlar tərəfindən buna icazə verilmir. Fransa korsikalıların bu davranışını özlərinə zidd hesab edirlər. Korsika dili 150 min insan tərəfindən danışılır. İngilis dilində təhsil almağa icazə verilir, lakin Korsika dilinə icazə yoxdur.

Çıxışlardan sonra sessiyalarda müzakirələr aparılıb, suallar cavablandırılıb.

❖ ❖ ❖

Beynəlxalq ictimaiyyət müsəlman və qeyri-müsəlman ölkələrindən olan qaçqınlara münasibətdə kəskin fərqlərin olduğunu müşahidə edir və qarışıq dini əhaliyə malik münaqişə və postmünaqişə zonalarında bu cür tendensiyaların olması barədə məlumatlar gəlir. Ən dərin narahatlıq isə son vaxtlar kəskin sıçrayışla ən yüksək həddə çatmış islamofobiya təzahürlərinin davamlı artımı ilə bağlıdır. Xüsusilə Avropanın bəzi ölkələrində müsəlmanların yadelli kimi təqdim olunmasından yaranan bu cür stereotiplər Avropa mədəniyyət və dəyərlərinə zidd olaraq bu damğalamanın (stiqmatizasiya) kəskinləşməsinə və izolyasiya siyasətinə gətirib çıxarır.

Son illər beynəlxalq təşkilatların çağırışlarına və islamofobiya ilə mübarizəyə dair bir sıra qətnamələrin qəbuluna baxmayaraq, antiislam məzmunlu qanunların irəli sürülməsi və ya qəbuluna, həmçinin milli maraq və dəyərlərə əsaslanan demokratik dəyərləri qorumaq və gücləndirmək adı altında etiqad azadlığının açıq şəkildə pozulmasına dair ziddiyyətli proseslər baş verir və bu qanunlar islamofobiya və digər növ irqçilik və ayrı-seçkiliyin artması üçün baza formalaşdırır. Bununla yanaşı, nifrət nitqi mediada daha geniş yayılmağa və təhlükəli şəkil almağa başlayıb və İslam dininin terrorizmlə eyniləşdirilməsi və ya cəmiyyətə müqayisəli şəkildə təqdim edilməsi inklüziv cəmiyyətlərin bünövrəsinin sarsılmasına gətirib çıxarır.

Nəticədə müxtəlif ölkələrin islamofobiya ilə mübarizəyə dair qəti fəaliyyət planının olmaması mütəmadi və davamlı əsasda beynəlxalq konfransın bazasının yaradılmasını və alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatlarının bu işə cəlb olunmasını labüd edir. Bakının ev sahibliyi etdiyi "İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: Yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfrans məhz bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

# Avropa Parlamenti Azərbaycandan Zəfərin intiqamını alır

## Erməni lobbisinin təsiri altında olan bu bədnam qurum Qarabağın azadlığı gerçəkliyi ilə barışa bilmir

*Əvvəli 1-ci səh.*

### AP-nin qətnamələri əhəmiyyəti və dəyəri olmayan adi kağız parçalarıdır

Reallıq ondan ibarətdir ki, Azərbaycan hər sahədə irəliləyişə nail olduqca, inkişaf etdikcə, regionda və dünyada söz sahibinə çevrildikcə AP Avropadakı erməni lobbisindən, Fransa kimi ölkələrin siyasi mərkəzlərindən gələn sifarişlər əsasında Azərbaycanı hədəf alan qətnamələr qəbul edib. Ölkəmizdə keçirilən mühüm beynəlxalq tədbirlər ərəfəsində, Azərbaycan qlobal uğurlara imza atdığı vaxtlarda ermənipərəst siyasi mərkəzlərin təmsilçilərinin kürkünə birə düşüb və onların təlimatları əsasında AP də riyakarlığından qalmayıb. Bu cür əməlləri ilə AP-nin özü də işğalçı Ermənistanı dəstəkləyən qaragüruh yuvasına çevrilib.

Əlbəttə ki, AP-nin hansısa dövlətin daxili işlərinə qarışmağa siyasi və mənəvi haqqı çatmır və bu mənada onun Azərbaycanla bağlı qəbul etdiyi qətnamələrin heç bir əhəmiyyəti yoxdur və bunlar dəyəri olmayan adi kağız parçalarıdır. Bu qurumun bütün məkrlərinə baxmayaraq, Azərbaycan öz yolu ilə qətiyyətlə addımlayıb və inamla da hədəflərinə çatıb, regionda və dünyada mövqelərini daha da möhkəmləndirib. Bu həmin AP-dir ki, bir vaxtlar "Cənub qaz dəhlizi" layihəsinə qarşı çıxmışdı. Lakin bu layihə reallaşdı və Azərbaycan istədiyini etdi. Zaman "Cənub qaz dəhlizi"nin Avropanın enerji təhlükəsizliyi üçün vacibliyini, Azərbaycanın Avropa üçün əhəmiyyətini sübut etdi.

Bunun davamı kimi, AP-nin azərbaycanofob, islamofob mövqeyinə rəğmən, keçən ilin iyul ayında Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığa dair anlaşma memorandumu, dekabrda isə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq anlaşması imzalandı. Bütün bunlar göstərir ki, AP-nin qərəzli və böhtançı fəaliyyəti Azərbaycanın qarşısını kəsə bilməz və ölkəmiz həm Avropa dövlətləri ilə, həm də Avropa İttifaqı ilə də qarşılıqlı faydalı əməkdaşlığını davam etdirir.

### Azərbaycan öz yolu ilə bundan sonra da qətiyyətlə irəliləyəcək

Erməni lobbisinin təsiri altında olan AP Qarabağın azadlığı gerçəyi ilə barışa bilmir. Ona görə də bu bədnam qurum ermənipərəst xislətinin göstəricisi kimi Azərbaycanın, guya, Ermənistana hərbi təcavüz etməsi, Laçın yolunun, guya, "blokada"da olması kimi sərsəm iddialarla çıxış edir, gorbagor olmuş "Minsk qrupu", "status" kimi, ümumiyyətlə, gündəlikdən çıxmış məsələlərdən dəm vurur.

Azərbaycan Vətən müharibəsində qələbəsi ilə Qarabağ münaqişəsini birdəfəlik həll edib. Ona görə də 28 ilə yaxın bir müddətdə sülh danışıqlarında irəliyə doğru bir addım belə ata bilməyən Minsk qrupunun da fəaliyyətinə ehtiyac qalmayıb. Azərbaycan Vətən müharibəsindəki zəfəri ilə ermənilərin status iddialarına da son qoyub. Bu baxımdan AP-nin bunlarla bağlı sərsəmləmələri yalnız və yalnız regionda vəziyyətin daha da gərginləşdirilməsinə və sülhün əldə edilməsinə qarşı yönəlmiş məkrli cəhddir. Görünən odur ki, erməni lobbisi və maraqlı siyasi dairələr regionda vəziyyətin normallaşdırılmasını istəmirlər. AP-ni idarə edənlər Azərbaycanın irəliyə apardığı sülh danışıqları prosesini ardıcıl və metodik surətdə pozmağa cəhd göstərirlər.

AP həm də Azərbaycana böhtan atmaq yolunu tutub. Çünki Azərbaycanın, guya, Ermənistana hərbi təcavüz etməsi, Laçın yolunun, guya, "blokada"da olması ilə bağlı iddialar AP-nin böhtançılığının göstəricisidir.

Ümumiyyətlə, AP-nin bu mövqeyi Azərbaycanla Avropa İttifaqı arasında dinamik inkişaf edən qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin ruhuna ziddir. Eyni zamanda AP-nin bu davranışı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması istiqamətində nümayiş etdirdiyi səylərə ziddir.

AP-nin vaxtaşırı anti-Azərbaycan fəaliyyəti ölkəmizin ədalətli mövqeyinə təsir göstərmək, Azərbaycanı gözdən salmaq və Ermənistanın xeyrinə güzəştlər əldə etmək cəhdidir. Vətən müharibəsinə qədər Ermənistanın işğalçılığını görməzdən gələn "köhnə qitənin" bu riyakarlıq tribunası indi də şərə himayədarlıq edir, ədalətə qarşı çıxır. Erməni məkrinin yuvasına çevrilmiş bu korrupsiyalaşmış qurumun əlindən ancaq belə riyakarlıqlar gələr. Əlbəttə ki, AP-nin bütün cəhdləri əbəsdir. Çünki onun indiyədək qəbul etdiyi qətnamələrin Azərbaycan üçün heç bir əhəmiyyəti yoxdur. Azərbaycan öz yolu ilə bundan sonra da qətiyyətlə irəliləyəcək və AP-nin hansı yol tutmasından asılı olmayaraq, Ermənistanı yeni reallıqların tələblərini yerinə yetirməyə məcbur edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycandan Türkiyəyə əsl qardaş yardımı

Azərbaycan xalqı qədim dövrlərdən insanpərvərliyi və humanistliyi ilə seçilib. Qonşuya və dosta yardım göstərmək adəti bizə babalarımızdan miras qalıb və xalqımızın mənəvi dəyərlərə sadiqliyini göstərir.

Ötən ayın əvvəlində qardaş Türkiyənin cənub-şərqində baş verən güclü zəlzələ nəticəsində 40 mindən çox insanın həlak olması, genişmiqyaslı dağıntılara yol açması Azərbaycanda da dərin ürək ağrısı ilə qarşılandı. Azərbaycan dövləti ilə yanaşı, aidiyyəti qurumların, eləcə də ictimai təşkilatların və ölkə əhalisinin yardım kampaniyalarına fəal şəkildə qoşulması bütövlükdə Azərbaycanın Türkiyə ilə bağlı həssaslığını, xalqımızın qardaşlıq bağlarının nə qədər güclü olduğunu göstərdi.

AZƏRTAC xəbər verir ki, zəlzələ ilə əlaqədar Azərbaycan Respublikası tərəfindən qardaş Türkiyəyə fevralın 6-dan martın 15-dək göstərilmiş humanitar və maliyyə yardımının ümumi məbləği 76 milyon 344 min 930 manat (44 milyon 908 min 783 ABŞ dolları) təşkil edir. Belə ki, bu müddətdə Türkiyəyə 53 milyon 568 min 530 manat (31 milyon 510 min 900 dollar) dəyərində humanitar yardım göstərilib. Birbaşa göstərilmiş maliyyə yardımının ümumi məbləği isə 22 milyon 776 min 400 manatdır (13 milyon 397 min 883 dollar).

Qeyd edək ki, qardaş Türkiyədə baş verən təbii fəlakətin ağır nəticələrini aradan qaldırmaq məqsədilə Azərbaycanın dövlət qurumları səfərbər olaraq köməyə tələsdilər. Prezident İlham Əliyevin göstərişinə əsasən, fəlakət zonasına ilk olaraq Azərbaycanın xilasediciləri çataraq dağıntılar altında qalan insanları çıxarmağa başladılar. Azərbaycandan göndərilən 669 xilasedici Hatay, Antakiya, Kahramanmaraş, Adıyaman və digər şəhərlərdə xilasetmə əməliyyatlarında fəal iştirak edib. Xilasedicilərimiz 53 nəfəri xilas edib, dağıntılar altından 780 cəsədi çıxararaq yaxınlarına veriblər. Fəlakət bölgəsinə 121 həkim və tibbi personal, 150 könüllü gedərək qardaş xalqın dərdinə şərik olub və səmərəli fəaliyyət göstərib. Azərbaycanın hərbi həkimləri 3123 nəfər tibbi xidmət göstərib, ağır yara alanları müalicə edərək sağaldıblar.

Dövlət qurumları tərəfindən Türkiyəyə 6665 çadır, 145 konteyner tipli mobil ev göndərilib, 2 səhra hospitalı və 4 səhra mətbəxi qurularaq zəlzələdən zərər çəkən insanlara xidmət edib. Havaların soyuq keçməsi evləri zəlzələ nəticəsində dağılan insanları daha ağır vəziyyətə saldığından bu problemləri aradan qaldırmaq məqsədilə dövlət qurumları tərəfindən zəlzələ bölgəsinə 786 elektrik generatoru, 11 min 299 ədəd qızdırıcı və texniki avadanlıq, 95 min 580 yataq və yataq ləvazimatı, 207 min 65 dəst isti paltar, 252 ton yanacaq göndərilib.

Xüsusilə vurğulamaq lazımdır ki, Heydər Əliyev Fondu Türkiyədə baş verən zəlzələyə ilk reaksiya verən təşkilatlardan biri oldu. Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə Türkiyədəki zəlzələ bölgəsinə 2518 çadır, 135 elektrik generatoru, 19 min 894 ədəd yataq və yataq ləvazimatı, 404 min 58 adda dərman və tibbi ləvazimat, 143 min 955 dəst isti geyim, 2653 qızdırıcı avadanlıq, 6603 qutu ərzaq və qida məhsulu və digər zəruri əşyalar alınaraq göndərilib. Ümumilikdə Heydər Əliyev Fondu tərəfindən Türkiyənin zəlzələ bölgəsinə 9 milyon 485 min 563 manat (5 milyon 579 min 743 dollar) məbləğində yardım göstərilib.

Ümumilikdə dövlət qurumları tərəfindən zəlzələ bölgəsində zərər çəkənlərə 44 milyon 82 min 967 manat (25 milyon 931 min 157 ABŞ dolları) məbləğində humanitar yardım göstərilib. Humanitar yardımların Türkiyəyə çatdırılması üçün 16 təyyarədən, 459 TIR, 25 vaqondan istifadə olunub.

Qeyd edək ki, Türkiyənin Azərbaycandakı səfirliyinin yardım barəsində müraciətindən az sonra Azərbaycan xalqı türk qardaşlarına isti paltar, ərzaq toplamağa və maliyyə vəsaitləri köçürməyə başlayıblar. Bakıda və regionlarda təşkil olunan yardım toplama məntəqələrinə minlərlə insan üz tutaraq isti paltar və ərzaq gətirdilər.

Bu təbii fəlakət saysız-hesabsız sınaqlardan çiyin-çiyinə verərək mətanətlə çıxan Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını, əbədiliyini bir daha bütün dünyaya göstərdi.

# Ağdamda işğal dövründə yaranmış tikinti-söküntü tullantıları təkrar emal edilərək istifadə olunacaq

Ağdam şəhərindəki konfrans mərkəzində BMT-nin Ətraf Mühit Proqramı tərəfindən (UNEP) Ağdam rayonunda tikinti-söküntü tullantılarının idarə edilməsi ilə bağlı hazırlanmış hesabatın təqdimatı keçirilib.



Təqdimat mərasimində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və müvafiq dövlət qurumlarının nümayəndələri, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin, "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin, "Şərqi Zəngəzur İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin əməkdaşları, həmçinin tikinti sahəsində təcrübəyə malik yerli şirkət nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirdə Ağdam rayonunda planlaşdırılan yenidənqurma və bərpa işləri, tikinti-söküntü tullantılarının miqdarı və təkrar emal imkanları daxil olmaqla, dağıntıların qiymətləndirilməsi və təkrar emalı ssenarilərinin əsas nəticələri ilə bağlı müzakirələr aparılıb, təkliflər dinlənilib.

Təqdim edilmiş hesabat əsasında Ağdam rayonunda tikinti-söküntü tullantılarının idarə edilməsi ilə bağlı Fəaliyyət Planının hazırlanması istiqamətində atılacaq addımlar barədə fikir mübadiləsi aparılıb, bu təcrübədən istifadə edərək işğaldan azad olunmuş digər ərazilərdə də analoji fəaliyyətin planlaşdırılması qərara alınıb.

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ətraf mühitə dəymiş zərərlərin aradan qaldırılmasına beynəlxalq dəstəyin göstərilməsi məqsədilə BMT-nin Ətraf Mühit Proqramı (UNEP) ekspertlərinin ötən il işğaldan azad olunmuş ərazilərə qiymətləndirmə səfəri həyata keçirilib. Ərazilərdə tikinti-söküntü tullantılarının idarə olunması üçün Şuşa şəhəri və Ağdam rayonu ərazilərindən götürülmüş tikinti-söküntü nümunələri üzərində laborator təhlillər aparılıb, tullantıların təkrar emal edilərək tikintidə istifadəyə yararlı olduğu müəyyən olunub.



# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə elektromexaniki alətlərin satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 mart 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1053.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 07 yanvar və 19 yanvar 2023-cü il tarixlərdə "Azərbaycan" qəzetində, 06 yanvar və 25 yanvar 2023-cü il tarixdə www.etender.gov.az portalında dərc edilmiş elan ilə əlaqədar bildiririk ki, idxal inək, idxal qoyun, idxal qoç, keçi, təkə, arı ailəsi və digər malların alınması və özünüməşğulluq layihəsi çərçivəsində təchizatı işlərinin satın alınmasına dair keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarı ilə "Agro Best" QSC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Casusluq edən xarici ölkə vətəndaşı həbs edilib

Dövlət Təhlükəsizliyi Xidmətində istintaq olunan cinayət işi üzrə aparılmış araşdırmalar zamanı xarici ölkə vətəndaşı, 1994-cü il təvəllüdlü Ghaedi Mohammad Najaf oğlu tərəfindən Azərbaycan Respublikası ərazisində casusluq cinayət əməllərinin törədilməsinə əsaslı şübhələr müəyyən edilib.



Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, toplanılmış çoxsaylı sübutlar əsasında Ghaedi Mohammad Najaf oğlunun xarici xüsusi xidmət orqanının tapşırığı ilə dövlət sirri olan və Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə olaraq istifadə etmək üçün məlumatların toplanılması və verilməsinin təşkili, o cümlədən Azərbaycan Respublikası hüquq-mühafizə orqanı əməkdaşları barədə fərdi məlumatların əldə edilməsi, onlarla şəxsi münasibətlər qurulması və onların xarici ölkənin xüsusi xidmət orqanı tərəfindən məxfi əməkdaşlığa cəlb edilməsi istiqamətində fəaliyyət göstərdiyi məlum olub.

Ghaedi Mohammad Najaf oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 276-cı (casusluq) maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilmiş və məhkəmə tərəfindən barəsində həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə araşdırmalar davam edir.

# İsmayıllıda 27 baş zubr vəhşi təbiətə buraxılıb

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi tərəfindən həyata keçirilən zubrların reintroduksiya layihəsi çərçivəsində 27 baş zubr vəhşi təbiətə buraxılıb. Bununla da Avropadan ölkəmizə gətirilərək Şahdağ Milli Parkının İsmayıllı bölməsinin ərazisinə buraxılan zubrların sayı 41 başa çatıb.



AZƏRTAC xəbər verir ki, zubrların adaptasiya dövründən sonra Şahdağ Milli Parkının ərazisinə buraxılmasını izləmək üçün əraziyə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin və WWF-nin Azərbaycanın nümayəndələri, məktəblilər, yerli sakinlər və təbiətsevərlər toplaşmışdılar. Onlar əvvəlcə zubrlar və maralların volyer şəraitində saxlanıldığı, adaptasiya dövrünü keçməsi üçün inşa edilən kompleksla tanış olub, bu heyvanların ilkin mərhələdə qəbul etdikləri qida məhsullarına baxış keçiriblər.

Xatırladaq ki, zubrlar vaxtilə Avrasiyada çox geniş arealda yayılsa da, ötən əsrin əvvəllərində vəhşi təbiətdə nəsli kəsilib. Qafqaz dağlarında sonuncu zubr 1927-ci ildə öldürülüb. Hazırda dünyada mövcud olan zubrların böyük əksəriyyəti zooparklarda artırılıb və bu yolla növün bərpasına yönəlmiş səylər davam edir. Zubrların Azərbaycanda biomüxtəlifliyin daha da zənginləşdirilməsi və meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq, layihənin təşkilatçıları Azərbaycanın şimal bölgələrində yaşayan əhalini və ümumiyyətlə, ölkə ictimaiyyətini Qafqaz zubrlarının təbiətimizə qaytarılması, onların mühafizəsi və qanunsuz ovlanmasının qarşısının alınması işində dəstək olmağa çağırır.

# Ordumuzun mövqeləri müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub

Martın 15-i saat 00:10-dan 02:30-dək Ordumuzun mövqeləri atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Əzizli və Qaraiman istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun Yuxarı Ayrım və Daşkəsən rayonunun Astaf yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocalı və Xocavənd rayonları istiqamətlərində yerləşən mövqeləri də fasilələrlə atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Deməsək olmur

# Küçələrdə "Novruz xonçası"







**Bakıda Novruzun gəlişini təbiətin oyanışından çox küçələrdəki "bayram xonça"larından bilmək olur. Hara gedirsən yolun ortasında Novruz çərəzinin satıldığını görürsən. Fərq etmir - istər tozlu-torpaqlı, istərsə də yağıntılı hava olsun - təki alver getsin.**

İlk baxışda pis deyil: işdən çıxmısan, yorğunsan, gec olduğundan bazara, ya da marketə getməyə həvəsin yoxdur və ən əsası - nisbətən ucuzluqdur. Üstəlik, şərqliyik, küçə alverinə öyrəncəliyik, hansı məhsulun harada satılmasının fərqinə varan deyilik, təki canımıza yox, cibimizə uyğun olsun. Yəni fikirləşmirik ki, belə şəraitdə alver zamanı olan təkcə ucuzluq deyil, həm də antisanitariya və bu üzdən tutulacağımız xəstəlikdir. O xəstəlik ki, sonradan müalicəsinə qat-qat çox xərcimiz çıxacaq.

Xəstəlik demişkən. Məlumdur ki, dünyada, o cümlədən Azərbaycanda koronavirus hələ geri çəkilməyib. Elə ona görə də pandemiya rejimi də tam ləğv olunmayıb. Belə bir vəziyyətdə isə küçə ticarətinin təhlükəsi ikiqat artmırmı? Deyək ki, alıcılar buna əhəmiyyət vermirlər. Bəs bu işə birbaşa nəzarət etməli olan çoxsaylı qurumlar? Onlar ki yaxşı bilir qorxulu virusların dörd bir yanımızda "meydan suladığı" vaxtda qanunsuz küçə alverinin təhlükəsini, xüsusən də həmin alver ərzaq məhsulları ilə edilirsə.

Yeri gəlmişkən. Azərbaycanda küçə ticarəti rəsmən 9 il əvvəl - 2014-cü ildə ləğv olunub. İnzibati Xətalar Məcəlləsinə əsasən, qanunsuz küçə ticarəti, yəni yerli icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilməmiş yerlərdə malların satışına görə 80 manat cərimə nəzərdə tutulub.

Maliyyədən söz düşmüşkən başqa bir məsələ. Ola bilsin ki, küçə ticarətçiləri (daha doğrusu, alverçiləri) vergi qanunvericiliyində nəzərdə tutulmuş maliyyə sanksiyasından çəkinərək vergi ödəyirlər, hərçənd buna şübhəmiz var, amma bu da əsas vermir ki, nəyinsə xətrinə minlərlə insanın sağlamlığı təhlükə altına alınsın.

Bu yerdə bir məsələni qeyd etmək istərdik. İnkişaf etmiş ölkələrdə də küçə ticarəti fəaliyyət göstərir. Amma onların bizdən fərqləri ondan ibarətdir ki, həmin ölkələrdə küçələrdə suvenir, gül-çiçək, antik əşyalar, müxtəlif sənət nümunələri, rəsm əsərləri satılır. Yəni bizim İçərişəhərdə olduğu kimi - sivil və mədəni. Lakin nə edəsən ki, bu sivil və mədəni alverimiz İçərişəhərdən "çöl"ə çıxmır. "Çöl"də olanımız xüsusən bu günlər hər tində əl-ayağımıza dolaşan "Novruz xonça"ları kimi təhlükəli küçə alveridir ki, onun da qarşısını alan tapılmır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan tibbi ləvazimatların satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (Əlaqələndirici şəxs: Əhmədağa Qəhrəman oğlu Salayev, telefon: (+99412) 310 07 70 (daxili: 2011), E-mail: asalayev@its.gov.az) ala bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**

**LOT-1. Ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan tibbi ləvazimatların satın alınması**

**İştirak haqqı: 1500.00 (bir min beş yüz) manat.**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: "Kapital Bank" ASC-nin Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

*1. Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. İddiaçının son bir ildəki fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*7. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
*8. İddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektli olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış;*
*9. İddiaçının tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra **80 (səksən) bank günü** qüvvədə olmalıdır.*
*10. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən **30 (otuz) bank günü** çox olmalıdır);*
*11. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
*12. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **28.04.2023-cü il saat 15:00-a** qədər, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **08.05.2023-cü il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri **10.05.2023-cü il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsdə açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Həmid Bağırov AMEA-nın müxbir üzvü, Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanova əzizi, Əməkdar elm xadimi, professor

**ELDAR QOCAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) kollektivi İqtisadi və texnoloji elmlər kafedrasının professoru Sifariz Səbzəliyevə bacısı

**TELLİ İSKƏNDƏROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5184
Sifariş 681

Qiyməti 40 qəpik